İSLAM QƏRİBLİ

# HÜSEYNBALA MİRƏLƏMOV:
## tarix və müasirlik

“Elm və təhsil”
Bakı – 2016

*AMEA Nizami adına Ədəbiyyat İnstitutu*

*Elmi redaktoru:* ***Nizami Cəfərov***
***AMEA-nın müxbir üzvü***

**İ.E.Qəribli. Hüseynbala Mirələmov: tarix və müasirlik. Bakı: "Elm və təhsil", 2016, 184 səh.**

*Kitaba filologiya üzrə elmlər doktoru, yazıçı-ədəbiyyatşünas İslam Qəriblinin müxtəlif vaxtlarda yazıçı-dramaturq Hüseynbala Mirələmov haqqında yazdığı əsərləri daxil edilmişdir.*

**S $\frac{4603010000–101}{057 – 16}$ Qrifli nəşr**

**© İslam Qəribli, 2016**

*...Nədənsə bəzi tənqidçilər və yazıçılar Hüseynbala Mirələmovun yaradıcılığını arxa plana çəkir, məcələyə onun özünün cəmiyyətdəki mövqeyi nöqteyi-nəzərini əsas götürməklə yanaşırlar. Amma illər keçir, Hüseynbala Mirələmovun "karyerası" dəyişsə də, bədii yaradıcılıq sahəsindəki tutduğu xətt inkişaf etməkdə davam edir. Artıq de-fakto Hüseynbala Mirələmov adlı bir yazıçı Azərbaycan cəmiyyətinin gözü qarşısında böyük ədəbiyyata sədaqətini ifadə edən cəlbedici, oxunaqlı, düşündürücü əsərlər yazmaqda, pyesləri tamaşaya qoyulmaqda davam edir.*

***Akademik İsa Həbibbəyli***

* * *

*Hüseynbala Mirələmov müasir Azərbaycan ədəbiyyatının ən parlaq, ən məhsuldar simalarından biridir. Onun hekayə, povest, roman, dramaturgiya və publisistikasında qaldırılan kifayət qədər ciddi sosial-mənəvi problemlər yalnız Azərbaycanda deyil, əsərlərinin tərcümə olunub yayıldığı ölkələrdə də böyük maraq doğurur, Azərbaycan ədəbiyyatının, ədəbi-ictimai təfəkkürünün səviyyəsi barədə aydın təsəvvür yaradır.*

***AMEA-nın müxbir üzvü Nizami Cəfərov***

## HÜSEYNBALA MİRƏLƏMOV

Bədii, publisistik və elmi əsərləri ilə təkcə Azərbaycan Respublikasında deyil, ölkə hüdudlarından kənarda da yetərincə tanınan Hüseynbala Mirələmov müasir Azərbaycan ədəbiyyatının ən çox sevilən, çap olunan və oxucu rəğbətini qazanan nümayəndələrindəndir. Nəsr əsərləri, teatrlarımızda uğurla tamaşaya qoyulan, səhnələşdirilən dramları, siyasi publisistikamızın gözəl nümunələri olan "Heydər Əliyev", "İlham Əliyev", "Zərifə Əliyeva", "Missiya" kitabları yazıçının bədii imkanlarının nə qədər geniş olduğunu göstərməklə yanaşı, həm də onun vətəndaş mövqeyini əyani şəkildə nümayiş etdirir.

* * *

Hüseynbala Fazil oğlu Mirələmov 25 iyun 1947-ci ildə Azərbaycan Respublikasının Lerik rayonunun Nuravud kəndində anadan olmuşdur. 1950-ci ildə ailələri Lənkəran rayonuna köçdüyündən uşaqlıq, ilk gənclik və məktəb illəri Lənkəranda keçmişdir. 1954-1964-cü illərdə Lənkəran şəhərindəki 3 və

2 N-li orta məktəblərdə oxumuş, 1964-cü ildə orta məktəbi gümüş medalla bitirmişdir.

1970-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirən, 1970-1971-ci illərdə ordu sıralarında həqiqi hərbi xidmətdə olan H.Mirələmov 1971-ildə Lənkərandakı 4 N-li Qaz Tikinti Quraşdırma İdarəsində iş ustası kimi əmək fəaliyyətinə başlamış, az sonra bu müəssisədə iş icraçısı, baş mühəndis, daha sonra idarə rəisi vəzifələrində çalışmışdır. 1980-cı ildə onun əməyi yüksək qiymətləndirilmiş və o, keçmiş SSRİ-nin ən ali mükafatlarından biri olan "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

H.Mirələmov 1986-cı ildə Bakıya dəvət edilərək Azərbaycan Qaz Təmir Tikinti Trestinə rəis təyin olunmuş, 1989-1992-ci illərdə Azərbaycan Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışmışdır.

H.Mirələmov 1992-1996-cı illərdə Azərbaycan İnşaat Mühəndisləri Institutunda dərs demiş, laboratoriyaya rəhbərlik etmiş, ali məktəblər üçün "İnşaat fizikası" adlı dərsliyin həmmüəlliflərindən biri olmuşdur.

H.Mirələmov 1996-cı ildə yenidən Respublika Qaz Sənayesi sisteminə işə dəvət olunmuş, 1996-1998-ci illərdə Bakqaz İstehsalat Birliyində rəis müavini, 1998-2008-ci illərdə Azərbaycan Qaz Emalı Za-

vodunun direktoru vəzifələrində çalışmış, "Əməkdar mühəndis" fəxri adına layiq görülmüşdür.

Azərbaycan Mühəndislik Akademiyasının müxbir üzvü, Beynəlxalq Mühəndislik Akademiyalarının həqiqi üzvü, Azərbaycanın və dünyanın aparıcı elmi jurnallarında dərc olunmuş yüzə yaxın elmi məqalənin, ali-texniki təhsil müəssisələri üçün yeddi dərs vasaiti və dərsliyin müəllifi olan H.Mirələmov "Azərbaycan Qaz Emalı Zavodunda qazın və qaz kondensatlarının kompleks emalının effektliliyinin yüksəldilməsi" mövzusunda namizədlik, "Neftmetal porfirinlərin kondensatları əsasında metalporfirinlərin alınması və onların neft-kimya proseslərində və təbii qazın emalında tətbiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Texnika elmləri doktoru, professor H.Mirələmov 2008-ci ildən Azərbaycan Neft Akademiyasında (hazırda Azərbaycan Neft və Sənaye Universiteti – İ.Q.) "Neftin, qazın nəqli və saxlanması" kafedrasının müdiri, İxtisaslaşdırılmış Doktorluq Müdafiə Şurasının sədridir.

H.Mirələmovun həm elm-əmək, həm də ədəbi yaradıcılıq sahəsindəki fəaliyyəti yüksək qiymətləndirilmiş, o, Azərbaycanın və dünya ölkələrinin bir sıra nüfuzlu mükafatlarına layiq görülmüşdür.

2015-ci ildə Azərbaycan Respublikasının ən ali mükafatlarından olan "Şöhrət" ordeni ilə təl-

tif edilən, bir neçə çağırış rayon və şəhər sovetinin deputatı olan H.Mirələmov xalqın etimadını qazanaraq üçüncü (2005), dördüncü (2010) və beşinci (2015) çağırış Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmiş, Azərbaycan nümayəndə heyətinin tərkibində dünyanın bir sıra dövlətlərində ölkəmizi ləyaqətlə təmsil etmişdir.

* * *

Hüseynbala Mirələmov "hansı mövzuda yazırsa-yazsın, cəmiyyət miqyasında düşünən, həyat materialını cəlbedici ədəbiyyat mətninə çevirməyi bacaran, son nəticədə vətəndaş-publisist sözünü ən müxtəlif tərzdə deməyi ilə fərdiləşdirən sistemli bir yazıçıdır"[1].

İlk mətbu hekayəsi 1961-ci ildə işıq üzü görən, "bir ildən sonra "Gəlin" povestindən parçalar "Leninçi" qəzetində çap olunaraq oxucuların marağına səbəb olan"[2], müasir ədəbi prosesdə "60-cılar"ı təmsil edib bu üslubu ləyaqətlə davam etdirən və özünün yazıçı fərdiyyəti ilə seçilib yeni üslub çalarları ilə nəsrimizi daha da zənginləşdirən H.Mirələmovun bədii yaradıcılığı haqqında yazan müəlliflərin

[1] 1.İ.Həbibbəyli. Ön söz, yaxud mənəvi-ictimai mühitin bədii dərki (N.Cəfərovun "Hüseynbala Mirələmovun yaradıcılığı və ya ədəbi tərcümeyi-halı". AzAtaM, Bakı -2014 kitabına yazılan ön söz), s.3
[2] İ.Qəribli. Sönməyən ocaq, "Mütərcim" nəşriyyatı, Bakı, 1997, səh.273

əksəriyyəti belə bir düzgün nəticəyə gəlmişlər ki, ilk qələm təcrübələrindən başlayaraq ədibin yaradıcılığında lirik-psixoloji ovqat həmişə aparıcı olmuşdur. Onun haqqında yazanların əksəriyyəti belə bir fikirdə həmrəy olmuşlar ki, H.Mirələmovun qəhrəmanları səmimi, xeyirxah, sarsıldıqları məqamlarda belə həyata, insanlığa inamını itirməyən insanlar, yazıçının özü isə həyat həqiqətlərinə sadiq, sözlə təbiətin və insanın daxili aləminin portretini məharətlə yaratmağı bacaran rəssam təxəyyüllü sənətkardır.

Bir çoxu mənsur şeiri xatırladan ilk hekayələrindən tutmuş ayrı-ayrı janrlarda yazdığı irihəcmli əsərləri də daxil edilməklə bütün yaradıcılığında "müasir olduğu qədər məsuliyyətli, məsuliyyətli olduğu qədər humanist sənətkar olan"[3] H.Mirələmov əsərlərində tamamilə fərqli münasibətlər və mətləblərdən bəhs etsə də, zamanla səsləşən milli və ümumbəşəri problemlərə həmişə üstünlük vermiş, əxlaq və mənəviyyat məsələlərini daha çox milli dəyərlər baxımından şərh etmişdir.

H.Mirələmovun əsərlərində insan həyatının dialektikası, onun könül aləmi, iç dünyası daha çox mənəvi-psixoloji aspektdə təqdim olunur və bu səbəbdən də onun əsərlərində şərtiliklər, simvollar, sətiraltı mənalar üstünlük təşkil edir.

---

[3]N.Cəfərov.Hüseynbala Mirələmovun yaradıcılığı və ya ədəbi tərcümeyi-halı. AzAtaM, Bakı -2014, s.11

H.Mirələmovun ədəbi yaradıcılığını zaman baxımından iki mərhələyə bölmək olar: 2000-ci ilə qədərki dövr və 2000-ci ildən sonrakı dövr.

Yaradıcılığının birinci mərhələsində o, əsasən, hekayələr yazmış, yazdıqlarının kitab halında çapına o qədər də həvəs göstərməmiş, əsərlərini "çap etdirməyə tələsməsə də, qələmini korşalmağa qoymamış, ədəbi prosesi izləyərək yaradıcılıq aləminin məziyyətlərini qavramağa daha çox üstünlük vermişdir"[4]. Bu illərdə onun yalnız bir kitabı – "Tənha durna uçuşu" (Gənclik, Bakı-1986) çap olunmuş, haqqında Elçinin "Dağıdır möhnəti, məlalı dağlar.."[5] və İ.Qəriblinin "Yazıçı-mühəndis"[6] adlı az saylı yazılar yazılmışdır.

2000-ci ildən etibarən H.Mirələmov ədəbi yaradıçılıqla daha intensiv şəkildə məşğul olmağa başlamış, Azərbaycan Respublikasında və xarici ölkələrdə yetmişdən artıq kitabı çıxmış, yaradıcılığı haqqında silsilə məqalələr və kitablar yazılaraq nəşr olunmuşdur. Əgər birinci mərhələdə "Gəncə qapıları" (1997) dramını çıxmaq şərti ilə H.Mirələmov, əsasən, nəsr əsərləri – hekayələr, "Cöğrafiya çubuğu" (1982) və "Həyat eşqi" (1995) povestləri-

[4]İ.Qəribli. Sönməyən ocaq, səh.273
[5]Elçin. Dağıdır möhnəti, məlalı dağlar.. (H.Mirələmovun "Tənha durna uşuşu" kitabına ön söz. Gənclik, Bakı-1986, s.3-4)
[6]İ.Qəribli. Sönməyən ocaq. "Mütərcim" nəşriyyatı, Bakı-1997, s.272-275

nin müəllifi kimi tanınırdısa, ikinci mərhələdə hekayə və povestləri ilə yanaşı, monumental romanlar (“Gəlinlik paltarı”, “Yanan qar”, “Dağlarda atılan güllə”, “Qırxıncı otaq”, “Sonuncu fateh” və s.), dramlar müəllifi (“Xəcalət”, “Vicdanın hökmü”, “Ləyaqət”, “Miras” və s.), mütəfəkkir siyasi publisist kimi də (“Heydər Əliyev”, “İlham Əliyev”, “Zərifə Əliyeva”, “Missiya”, “Çində möhtəşəm on gün”) ədəbi və elmi ictimaiyyətdə böyük rəğbət qazandı.

* * *

**Hekayələri:** H.Mirələmovun olduqca həyati mövzuya həsr olunmuş, ərini müharibədə itirmiş xəstə, köməksiz Kübra xala və anasını aclığın əlindən qurtarmaq üçün hər cür fədakarlığa hazır olan yeniyetmə Məmmədin sıxıntılı həyatının səmimi təsviri olan “Bir tikə çörək” adlı ilk hekayəsinin “əsas mahiyyəti birinci növbədə ondan ibarət idi ki, çox gənc, hələ püxtələşməmiş bir qələmin məhsulu müəllifə böyük yaradıcılıq perspektivləri vəd edirdi”[7].

H.Mirələmovun ilk mətbu hekayəsi ilə ilk kitabı arasında iyirmi beş illik zaman məsafəsi var və yazıçı-ədəbiyyatşünas, ictimai xadim Elçinin ön söz yazdığı bu kitaba müəllifin tələbəlik illərin-

[7]N.Cəfərov.Hüseynbala Mirələmovun yaradıcılığı və ya ədəbi tərcümeyi-halı. AzAtaM, Bakı -2014, s.17


Hüseynbala
MİRƏLƏMOV
Vicdanın
cəzası

də qələmə aldığı, onun artıq lirik-psixoloji üsluba malik bir yazıçı kimi püxtələşdiyini aydın şəkildə göstərən "İzlər"(1967), "Qasırğa tez keçdi" (1967), "Qara xal"(1968),"Son arzu" (1968), 80-ci illərdə yazdığı "Dəyirmana gedən yol"(1982), "Ulduza doğru"(1984), "Tənha durna uçuşu"(1984), "Qayıtdı durnalar"(1984) və "Simuzər" (1985) hekayələri daxil edilmişdir.

Mənsur şeri xatırladan, ideya-məzmun xüsusiyyətləri ilə müəllifin ilk hekayəsi olan "Bir tikə çörək"lə səsləşən "İzlər" hekayəsi müharibə mövzusundadır. Bu hekayədə tək ayaqlı Azər müəllim, hər iki qıçı dizdən kəsilmiş ata obrazlarını yaradan və bu obrazların çox böyük məharət və ustalıqla təsviri ilə oxucuda müharibəyə qarşı nifrət oyadan müəllifin "Qasırğa tez keçdi" hekayəsindəki hadisələr dənizkənarı balıq vətəkələrinin birində baş verir. Lirik-psixoloji ovqatı, poetik dili ilə diqqəti çəkən hekayənin qəhrəmanları Zəminə və Rəhim sonsuzluq ucbatından bir müddət bir-birlərindən ayrı düşən, lakin həqiqi məhəbbət və insani duyğularla biri digərinə bağlı insanlardır.

Balıqçı Rəhim və onun balıqçı yoldaşı Xəlilin dənizdə fırtınaya düşərək çətinliklə ölümün əlindən xilas olmasını insanın həyat uğrunda təbiətlə mübarizəsi müstəvisində təsvir edən yazıçı övladsızlığı yox, insani hisslərdən məhrum olmanı böyük dərd

sayır. Əri evindən qayınanası Gövhərin təkidi ilə "Sonsuzsan", – deyilərək qovulan yetim, kimsəsiz Zəminənin əri Rəhimin sövq-təbii fəlakətdə olmasını və onu labüd ölümün əlindən qurtarmasını çöx təsirli və yaddaqalan səhnələrlə təsvir edən yazıçı belə bir fikri təlqin etmək istəyir ki, ailənin xoşbəxtliyi övladın varlığı ilə yox, qarşılıqlı məhəbbət və anlaşma ilə bağlıdır. Bu hekayədən çıxan məntiqi nəticə bundan ibarətdir ki, övladsız yox, məhəbbətsiz ev susuz dəyirman kimidir.

İdeyaca "Son arzu" hekayəsi ilə qismən də olsa səsləşən "Qara xal" qəmli bir ürəyin hekayəti, xeyirin şərlə mübarizəsi, nəhayət, xeyirin şər üzərindəki təntənəsinin bədii təcəssümüdür. Hekayədə müharibənin cəmiyyətin və bəşəriyyətin həyatında yaratdığı fəlakətlər doktor Ümid Bədirov və Nahidənin məşəqqətli taleləri fonunda ümumiləşdirilmişdir.

Ümid Bədirov cərrahdır. Müharibəyə getməmişdən az öncə (1941-1945-ci illər Böyük Vətən müharibəsi nəzərdə tutulur – İ.Q.) Nahidə ilə ailə qurmuş, müharibə bitdikdən sonra vətənə qayıdanda arvadının onun ocağını tərk edərək başqa birisinə qoşulub getdiyini eşitmişdir. Sarsılsa da, həyat onu sındıra bilməmişdir. Aradan illər keçdikdən sonra Nahidə saçları ağarmış, əvvəlki gözəlliyini itirmiş ölümcül vəziyyətdə onun işlədiyi xəstəxanya gətirilir və o, xəstənin yanağındakı qara xaldan onun kimliyini

öyrənir. Xallı qadının Nahidə olduğunu bilən Ümid haldan-hala düşür, ürəyində xeyirlə şərin mübarizəsi başlanır. Beyninə gələn ilk fikir bu olur ki, xəstəni əməliyyat edib cərrahiyə stolundaca onun ömrünü sona çatdırsın və bir növ Nahidənin etdiyi xəyanətin bədəlini ona ödətdirsin. Bu niyyətlə bir gün əməliyyatı gecikdirir və ikinci gün ağır psixoloji sarsıntılar keçirsə də, ürəyindəki mərhəmət hissi şərə qalib gəlir. "Vəfasız Nahidəni yox, xəstə Nahidəni sağaldacağam", - deyə əməliyyata başlayır. Uğurla keçən əməliyyatdan sonra isə onun qulaqlarında bir səs guyuldayır: "Bir ovuc sərvət, bir qarış torpaq üçün qanlı müharibələr törədən ağalara ölüm, ölüm, ancaq ölüm!...".

Yaradıcılığının sonrakı mərhələlərində yazdığı əsərlərində tez-tez müharibəni bəşəriyyətə bəla gətirən qanlı bir oyun kimi lənətləyən H.Mirələmovun qənaəti bundan ibarətdir ki, Ümidin qarşısında Nahidənin vəfasızlığından çox, müharibə günahkardır.

H.Mirələmovun ilk hekayələrində insan və cəmiyyət, insanın cəmiyyətdə yeri, hər kəsin öz əməlinə görə Rəbbi tərəfindən mükafatlandırılması, yaxud da cəzalandırılması ideyası da mühüm yer tutur. "Son arzu" hekayəsindəki Elmar adamları get-gələ salmaqdan zövq alan məmurların tipikləşdirilmiş obrazıdır. İctimai təminat şöbəsində müdir işlədiyi vaxt bir qocanı qanuni arayış üçün bir ay get-gələ sa-

lan Elmar ömrünün qürub çağında əkdiyi toxumların bəhrəsini yeməkdədir. Qapısını açan, əhvalını soruşan kimsə yoxdur. Müəllifin qənaəti belədir ki, insan övladı Allahın ona bəxş etdiyi ömrü şərəflə yaşamalı, həyatda elə iz qoymalıdır ki, öləndən sonra rəhmətlə yad edilsin, çünki "əsl insanlar heç vaxt ölmür. Onların ömürlərinin davamı torpaq ömrüdür. Belə ömürlər torpağa qarışıb, torpağa çevrilib yaşayır. Torpaq ömrü isə əbədidir...".

"Tənha durna uçuşu" hekayəsində Nəsib, Gülgəz, Rəhim, Firəngiz, Əşrəf kimi insanların vaxtilə bitirdikləri orta məktəb xatirələri, habelə Xarüqə, Musa, Surxay, Tahirə, Ələkbər və s. müəllimlərin həyat yolu, yaradıcılıq fəaliyyətləri ilə bağlı bir aləm bədii lövhələrdə canlandırılır, oxucunun hissinə və zəkasına hakim kəsilir. Hekayəyə eyni zamanda qanadlı, romantik bir pafos da hakimdir və əsərdə saf sevgi duyğuları, ilk məhəbbətin əlçatmaz, əsrarəngiz, sehrli, diləgəlməz bir aləm olması zərif, təbii boyalarla bədii həllini tapmışdır.

"Tənha durna uçuşu" hekayəsi böyük sosial-mənəvi mətləbləri ehtiva etdiyinə görədir ki, onu povest kimi də təqdim etmək olar və bu əsərin əsasında eyniadlı tərbiyəvi-əxlaqi televiziya filminin çəkilməsini təsadüfi saymaq olmaz.

Müharibənin bəşəriyyətin həyatında törətdiyi fəlakətlər "Dəyirmana gedən yol", "Qayıtdı durna-

lar" hekayələrinin də əsas ideya istiqamətini təşkil edir. Birinci hekayədə ana, acından ölüb yarımçıq dəyirman yolunun başlanğıcında basdırılan uşaq obrazlarını yaradan və bu obrazların çox böyük məharət və ustalıqla təsviri ilə oxucuda müharibəyə qarşı nifrət oyadan H.Mirələmov "Dəyirmana gedən yol" əsərində yaddaşlardan silinməyəcək təsir gücünə malik lövhələr yaradır.

"Qayıtdı durnalar" hekayəsindəki hadisələr müharibədən sonrakı illərlə səsləşsə də, burada da Sürəyya nənə, Məlik, Əziz obrazlarının təsvirində ananı baladan, övladı atadan ayrı salan, sinələrə yetimlik dağı çəkən müharibədən bəhs olunmuş, müharibə bəşər tarixinin ən iyrənc hadisəsi kimi lənətlənmişdir.

H.Mirələmovun XX əsrin 60-80-ci illərində yazdığı, mövzusu müharibə ilə bağlı hekayələrini nəzərdən keçirdikdən sonra belə bir halın şahidi oluruq ki, bu hekayələrdə "müharibə yaddaş kimi iştirak edir, daha doğrusu, müharibənin özü görünmür, qara-qara kölgələri görünür ki, bu kölgələr müharibə başa çatandan sonra da kədərə, göz yaşlarına çevrilir"[8].

"Ulduza doğru" hekayəsində dünyaya təzəcə göz açmış qızından ötrü ürəyi nanə yarpağı kimi əsən gənc ata və ananın hisslərini təsvir edən müəlli-

[8] V.Yusifli. Bir "Qarabağnamə" də... (H.Mirələmovun "Vicdanın cəzası" kitabında. "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı – 2005), s.260-261

fin hekayələrinin bir qismi insan və təbiət məsələlərinə həsr olunmuşdur.

Təbiət və insan gözəlliyi, onlar arasında fəlsəfi vəhdət, kamilliyə, ucalığa, paklığa çağırış motivləri H.Mirələmovun nəsrində başlıca məziyyətlərdir ki, bunun ən bariz nümunəsini müəllifin "Simuzər" hekayəsində görmək mümkündür. Hekayənin məzmunundan aydın olur ki, qoca keşikçi balıq ovlayanlarla əlbir olub ona tapşırılan sahəni qorumaq əvəzinə, balıqçılardan pul alaraq balıqların qeyri-qanuni yolla ovlanması üçün onlara şərait yaradır və bu, müxtəlif növ balıqların kütləvi şəkildə azalması ilə nəticələnir. Müəllifin şərti olaraq "Simuzər" adlandırdığı balıq-gəlin onu başa salır ki, balıqların kürü tökmək mərhələsində ovlanması onların birdəfəlik yox olması deməkdir. Balıq da insan kimidir. İnsan doğub-törəməklə, balıqlar da kürü tökməklə nəsillərini davam etdirirlər.

Hekayədə təbiət obrazlarının canlı insan surətləri ilə qarşılaşdırılması, müqayisələr, paralellər aparılması oxucuda təbii bir ovqat yaradır və onu həyata, gerçək mühitə daha möhkəm bağlayır. Məhz bu aktuallığına görədir ki, "Simuzər" hekayəsi 2003-cü ildə bir çox xarici dillərə tərcümə olunmuş, ayrıca kitab şəklində nəşr edilmişdir.

Təbiət və cəmiyyət arasındakı zidiyyətlər ədibin"Qartal" (1987), "Qayada çiçək" (2001) və s.

hekayələrində qabardılan başlıca problemlərdir.

H.Mirələmovun yaradıcılığı üçün xas olan yüksək mənəvi keyfiyyətlər, Vətən, torpaq, millət təəssübkeşliyi, əxlaqi təmizlik, saf məhəbbət duyğuları ədibin hekayələrində də öz bədii həllini tapmışdır. Bu mənada "H.Mirələmovun hekayələrini həyatın üzünü görən, əməlinə və zəkasına güvənən adamın həyat və tale üzərində lirik düşüncələri kimi də qiymətləndirmək olar"[9]. İnsanın kamilliyi və saflığından, məhəbbətin aliliyindən, vətən, torpaq, millilik, türkçülük naminə hər cür fədakarlığa hazır olan qəhrəmanların daxili aləmini açmağa yönələn problemlərdən danışmaq və bunları önə çıxarmaq yazıçının "Qartal" (1987), "Vicdanın cəzası" (1994) "Pərviz və Gülgəz" (2001), "Elbrusun səhvi" (2001), "Mərufun qələmi" (2002), "Bir gecənin sehri" (2005), "Gecə bənövşələri" (2010), "Məhəbbət hekayəti" (2011) və s. hekayələrinin başlıca ideya istiqamətini təşkil edir.

H.Mirələmovun hekayələrində dərin müşahidə və ümumiləşdirmə başlıca keyfiyyətlərdəndir ki, bunu hər şeydən əvvəl onun cəmiyyətşünas bir yazıçı olması ilə əlaqələndirmək lazımdır. Maddi məhrumiyyətlərə məruz qalsa da, heç kəsə boyun əyməyən, ləyaqət və şəxsiyyətini qoruyan insanların ümumiləşdirilmiş obrazı kimi düşünülmüş Toğrul Aydəmir ("Qartal"), evə özündən çox qazanc

[9]Nizaməddin Şəmsizadə. Yazıçı ömrünə uvertüra. "Təhsil", Bakı-2010, s.76

gətirən xanımı Gültəkinin sərbəst hərəkətlərinə, açıq-saçıq geyiminə etiraz etmək iqtidarında olmayan Marat ("Yeni həyat"), atasının köməyi ilə ali məktəb qurtarıb yaxşı işə düzələn, sevgi məsələsində tərəddüd edib ürəyini heç kəsə açmayan hərdəmxəyal Elbəy ("Çimərlikdə), halal zəhmətdən, özünə qulluq etməkdən bezərək imkanlı bir arvad alıb onun himayəsinə sığınmaqla rahat gün keçirmək ümidi ilə əyalətdən Bakıya gələn Talıb ("Zurnaçalan Behbud") günümuzün reallıqlarını əks etdirən obrazlardır və bunların hər birinin prototipləri ilə az rastlaşmamışıq.

Qloballaşan dünyamızın təzad və ziddiyyətlərinin təsviri yaradıcılığı psixologizmi və əlvan boyaların zənginliyi ilə seçilən H.Mirələmovun bir çox əsərləri, xüsusilə "Vicdanın cəzası" (1994) hekayəsi üçün səciyyəvidir. Rusiyada yaşayan azərbaycanlıların güzəranı və qarşılaşdıqları problemlər bu hekayədə öz uğurlu bədii ifadəsini tapmışdır.

Hekayədə Rəhim, Firudin, Aygün, Aslan kişi kimi surətlərin hər birinin xarakterik xüsusiyyətləri ədib tərəfindən fərdi cizgiləri ilə təqdim olunur və "mənəvi-əxlaqi məsələlərin vətənpərvərlik duyğusu ilə qaynayıb-qarışması"[10] əsərin əsas ideyasını müəyyənləşdirir.

Əksər hekayələri üçün səciyyəvi olan "lirizm və romantikanın o qədər də hiss olunmadığı, sərt

[10] Vaqif Yusifli. Bir "Qarabağnamə"də.. (H.Mirələmov. Vicdanın cəzası. "Nurlar", Bakı-2005), s. 267

realistik, hətta publisistik intonasiyanın aparıcı olduğu hekayənin"[11] məziyyətlərindən biri də budur ki, müəllif öz qəhrəmanlarını hazır və hamar yollarla deyil, bütün qüsur və ziddiyyətləri ilə təsvir edir, onları həyatın dolanbac döngələrindən keçirib, sağlam həyat və mübarizə yollarına gətirib çıxarır.

Vətəndaş-yazıçı mövqeyindən yazılan "Yuxu" (2001) hekayəsi avtobioqrafik səciyyə daşıyır. Xalq yazıçısı Anara həsr olunan bu hekayədəki qəhrəmanların əksəriyyəti ədibin özünə tanış, doğma obrazlardır və prototipləri də qismən məlumdur.

"Yuxu" hekayəsində bədii sözün insan taleyinə, şəxsi hiss və həyəcanlarına getdikcə daha həssas münasibət bəsləməsinin rolundan bəhs olunur.

Bu kiçik hekayədə yazıçının əsas məqsədi gəmi-restoranda qızışan söhbətlər – qarşılıqlı ittihamlar yolu ilə keçmiş və indiki qəhrəmanlar arasında (Zaur, Təhminə, Qədir, Ziya, Elbəy və b.) bir "saziş" əldə etmək, körpü yaratmaqdır. Qarşılıqlı ittihamlar, tənqid və iradlar, iddialar arxada qalmalıdır. İndi eyhamlar, istehza və rişxənd yolu ilə bir-birinin nöqsan və qüsurlarını üzə vurmağın məqamı deyil. Əl-ələ verib cəmiyyətin yaralarını sağaltmaq, vətənin, torpağın keşiyində durmaq, insanları mənəvi sarsıntılardan xilas etməyin vaxtıdır.

Bu hekayəsində ədib orijinal forma taparaq

[11] N.Cəfərov. Göstərilən kitabı, s. 26

yuxudan, metamorfozadan, yaddaşa qayıtmaq faktorundan ustalıqla istifadə etmişdir.

H.Mirələmov hekayələrində zamanın nəbzini tutur, ən ümdə məsələləri – insanın mənəvi-psixoloji əhval-ruhiyyəsini, humanizm, vətənpərvərlik hisslərini ön plana çəkir. Müəllifin "Bir gecənin sehri" (2005), "Çimərlikdə" (2000), "Hesab çatıb" (2003), "Qatarda" (2004), "Qarınqulu" (2000), "Maşallahın paneli" (2004) və s. hekayələri dediklərimizə əyani sübutdur.

"Hesab çatıb" və "Maşallahın paneli" hekayələrinin qəhrəmanları həyatın özündən gəlmə obrazlardır və onların konkret prototipləri var. Jurnalist dostları Əli Mahmud və Çingiz Tofiqoğluna ithaf olunan bu əsərlərdə insanın həyatdakı mövqeyi, vətəndaşlıq idealı, arzu və xəyalları sənətkarlıqla qələmə alınmışdır.

Tragik xüsusiyyətləri, novella janrına məxsus gözlənilməz cizgiləri, fikir-məna siqləti ilə seçilən hər iki əsərdəki psixologizm, qəhrəmanların üzləşdiyi çətinliklər, keçirdikləri iztirab və həyəcanlar bədii müstəvidə öz əksini tapır. İstər Maşallahın, istərsə də Şakirin başına gələn əhvalatlar elə real və bitkin təsəvvür yaradır ki, həm jurnalistin, həm də qaçqın gəncin taleyini oxucu, sanki öz taleyi kimi yaşayır.

İstedadın hər şeyə qadir olduğunu, "qara daş üstündə də göyərməsini", hər cürə sədləri adlayıb

keçməsini, xalqa, cəmiyyətə fayda gətirməsini “Bir gecənin sehri” hekayəsində aydın görürük. “Hekayəni dolğunlaşdıran, onu oxucusuna sevdirən .... tarixiliklə müasirliyin uğurlu bədii vəhdətidir”[12]. Burada çox yığcam, mənalı şəkildə dörd Azərbaycan dahisinin obrazı yaradılmışdır. Üzeyir Hacıbəylinin, Bülbülün, Qara Qarayevin, Cövdət Hacıyevin hər birinin özünəməxsus sənətkar taleyi yazıçı tərəfindən incə, təsirli lirizmlə qələmə alınmışdır. Bunlarla yanaşı, əsərdə M.C.Bağırovun, M.S.Ordubadinin fərdi cizgiləri də kiçik bədii lövhələrlə ustalıqla canlandırılmışdır. Buraya böyük musiqi korifeyi olan Üzeyir Hacıbəylinin “minbir yaxşılığına” iki nəfərə bəslədiyi qayğı və məhəbbət də əlavə olunur. Bunlar o dövrdə çox gənc olan Qara Qarayev və Cövdət Hacıyevdir. Məhz böyük müəllimlərinin təmənnasız köməkliyi sayəsində hər iki gənc “Vətən” operası ilə Azərbaycan mədəniyyətində əbədi qalmaq səlahiyyəti qazanırlar. Bu işdə böyük Bülbülün yardımı da əsərdə sənətkarlıqla ümumiləşdirilmişdir.

Müəllif ustalıqla, bədii detallarla təsdiq edir ki, həqiqi, böyük istedad əsl möcüzə yaratmağa qadirdir. Sənətin, musiqinin, talantın sehri ən qəddar hakimləri də susdura bilir. Sənət sehri siyasət, hakimiyyət səddini qırıb yarır. Gözəllik, şeir, sənət,

[12]N.Şəmsizadə. Yazıçı ömrünə uvertüra. “Təhsil”, Bakı-2010, s.115

həqiqi istedad hər cür xofu, qara-qorxunu əridib yumşaldır, əsl möcüzələr yaradır.

H.Mirələmovun hekayələrinin mənəvi-emosional təsiri, təlqin etdiyi məna və ideya əsl fədakarlıq, xeyirxahlıq hissləri oyadır ki, bu da müasir gəncliyin tərbiyəvi inkişafında mühüm rol oynayır. Bu cəhəti, şübhəsiz ki, ədibin və onun lirik, emosional hekayələrinin ədəbi qələbəsi kimi qəbul etmək olar. Sənətin təsir gücü də elə bundadır.

* * *

**Povestləri:** H.Mirələmov "Coğrafiya çubuğu" (1982) povestində İkinci Dünya müharibəsindən sonra Respublikanın rayonlarının birində məktəb və maarifin hansı vəziyyətdə olmasını Kürəkçi kəndinin məktəbi və məktəbin direktoru, bir növ C.Cabbarlının "Almaz" dramındakı Mirzə Səməndərə oxşayan Bəhmən müəllimin timsalında ümumiləşdirmiş və belə qənaətə gəlmişdir ki, həqiqətin yalana, yeniliyin köhnəliyə qalib gəlməsi qaçılmaz tarixi zərurətdir.

Müəllifin "Həyat eşqi" (1995) povesti ustad sənətkar, böyük millətçi, istiqlalçı şair Bəxtiyar Vahabzadəyə ithaf olunmuşdur. İnsanın mənəvi dünyasının, onun iztirab və sarsıntılarının şeiriyyəti, Tanrıya qovuşmaq, əzablardan xilas olub asudəliyə, könül rahatlığına can atmaq əsərin əsas ideya is-

tiqamətini təşkil edir. Əsərin qəhrəmanı Müdrik İnsan bir qədər romantik, xəyalpərvər insandır və ümidsiz bir vəziyyətə düşsə də, yenə də optimist olmağa, güclü bir varlığa çevrilmək iddiasındadır. O, Göylərə, Meşələrə heyvanlar arasına və ya uzaqlara – sonsuzluğa getmək arzusunda olsa da, hiss edir ki, əslində, bu, çıxış yolu deyil və ola da bilməz. İnsanlıqdan kənarda, cəmiyyətdən uzaqlarda itirdiyini axtarsan da, tapa bilməyəcəksən. Yenə mənsub olduğun xalqın, cəmiyyətin içərisinə qayıtmağa məhkumsan.

Qədim türklər kainatın hakimi, böyük qüdrət sahibi Göy Tanrıya tapındıqları kimi, Müdrik İnsan da yalnız Allaha tapınır, ondan ümid gözləyir.

"Həyat eşqi" povesti öz fəlsəfi dərinliyinə görə Ç.Aytmatovun "Əsrə bərabər gün" əsəri ilə yaxından səsləşir. H.Mirələmov bu əsərində məntiqi olaraq bu ideyaya sadiq qalır ki, həyatın şirinliyi, ucalığı olduğu qədər də acılığı, əzabları mövcuddur və həyat belə ziddiyyətləri, keşməkeşləri ilə də maraqlıdır. Bu, Allahın, dünyanın əbədi düsturudur. Həyatda hər şey qoşa yaranmışdır. Sevinc varsa, göz yaşı da var. Ucalıq varsa, enmək də var. Məhəbbət varsa, xəyanət də, cinayət də mövcuddur. Yazıçının gəldiyi nəticə də elə budur: çıxış yolunu mücərrəd bir aləmdə və ya göylərdə axtarmaq əbəsdir. Ömür əmanət olduğundan, hünər bu ömrü ləyaqətlə yaşa-


Hüseynbala
Mirələmov
Gecə
bənövşələri

maqdadır. Bütün əzabların, çətinliklərin, həmçinin ucalığın, sevinc və səadətin yolu insanın özündən başlayır. İnsana, həyata inam yolu bu həqiqəti təsdiq etmək, dərk və idrak yoludur.

"Həyat eşqi" əsərinə də qanadlı bir romantika hakimdir. Yaşamaq-yaratmaq eşqi, ölüm, səadət, mənəvi ucalıq, bütövlük, kamillik, naqislik, fənalıq kimi xüsusiyyətlər əsərdə fəlsəfi, oxunaqlı bir dillə oxucuya çatdırılır.

Mövzuları müasir həyat hadisələrindən götürülmüş "Təmizlənmə" (2002), "Tənha lalə" (2002), "Əclaf" (2008), "Gecə sürünən ilanlar" (2009), "Qumru yumurtaları" (2009), "Taledən qaçmaq olmur" (2010) povestlərində əxlaq və mənəviyyat məsələlərinə geniş yer ayıran, Göyüş müəllim, Xatirə, Əsmər Sultanlı, Xəzər, Zahir, Səkinə xala, Polad, Ruslan, Fəridə, Əkrəm, Züleyxa, Yusif, Natəvan, Fidan, Usta Mehman kimi yaddaqalan obrazlar yaradan müəllif insanı həyat, düşdüyü mühit onu nə qədər sıxsa da, onu ruhdan düşməməyə, pisliklərə qarşı mübariz və mətin olmağa çağırır. Bu əsərlərin ruhundan belə bir nəticə hasil olur ki, həyat onu sevənlərin, xoşbəxtliyi uğrunda axıra qədər döyüşməyi bacaranlarındır.

H.Mirələmovun "Xəcalət" (2002) povesti təkcə müəllifin deyil, ümumiyyətlə, son dövr ədəbiyyatımızın ən sanballı uğurlarından biri hesab edilmiş

və bu əsər Qarabağ mövzusunda yazılan ən qətiyyətli və yaşarı sənət abidələrindən biri kimi dəyərləndirilmişdir.

"Xəcalət" povestində, təbii ki, bir nəfərin, fərdin, ailənin yox, bir millətin və eyni zamanda cəsarətlə demək olar ki, dünyamızın faciəsi, üzqaralığı böyük ürək ağrısı ilə qələmə alınmışdır.

Maraqlı, orijinal süjetə, bitkin kompozisiyaya malik olan, yarı xatirə, yarı olmuş və başa gəlmişlərin təsviri yolu ilə yazılmış bu əsəri yazıçı təxəyyülü ilə gerçəyin, bədiiliklə sənədliliyin harmoniyasından yaranmış əsər də adlandırmaq olar. Povestdəki hadisə və olaylar elə ölçülü-biçili, yazıçı ustalığı və səmimiliyi ilə təqdim olunur ki, ürəyi, mənəviyyatı yerində olan hər bir oxucu bunlardan yalnız mütəəssir olmaqla kifayətlənmir, həm də gələcək mücadilələr üçün daxilən səfərbər olur.

Bir ailənin başına gələnlərin təsviri ilə başlanan əsərdə hadisələr şəxsi mənafe müstəvisindən uzaqlaşdırılaraq ümümxalq mənafeyi müstəvisinə keçirilir və oxucu belə bir sualla baş-başa buraxılır: "Kimdir günahkar, özümüz ya özgələri?"

"Xəcalət" povestindəki başlıca hadisələr uzaq keçmişdə yox, 25-30 il bundan əvvəl gözümüzün önündə baş verdiyindən biz əsəri oxuya-oxuya ya həmin hadisələrin bir növ iştirakçısına çevrilir, ya da əsərin qəhrəmanları ilə birlikdə onların yaşantı-

larını bir daha yaşamış oluruq. Hadisələrin mərkəzində ümumiləşdirilmiş obraz olan Vətən dayanır. O, əsər boyu müxtəlif vəziyyətlərdə təsvir olunur, hadisələrin bir çoxu onun dilindən nağıl edilir və bu obraz bir növ əsərdə bələdçi rolunu oynayır.

H.Mirələmovun əsəri sovet rejimində Azərbaycan xalqının zaman-zaman haqlı ikən haqsız sayılması, sındırılmasına cəhd edilməsi, xalqda unutqanlıq kimi qorxulu bir xəstəliyin yaradılmasını göstərmək baxımından da çox əhəmiyyətlidir. Moskva Azərbaycana münasibətdə nə qədər özünü humanist göstərməyə çalışsa da, Azərbaycanın maraqlarına, onun suverenliyinə hörmətlə yanaşmasını qeyd etsə də, bu yanaşmanın dərinliklərində bir ögeylik və məmləkəti asılı şəkildə saxlamaq meylinin olduğunu inkar etmək mümkün deyil.

"Xəcalət" povestində ən uğurlu məqamlardan biri, bəlkə də birincisi hadisələrin siyasiləşdirilməklə təsviri yox, bədiiliklə təsviri və həlli, bu bədiilikdən doğan emosiyaların oxucu ruhuna hakim kəsilməsi və onu düşündürə bilmək bacarığı ilə şərtlənir.

Povestdə ürək ağrısı ilə təsvir olunan hadisələr oxucunu "Biganəliyimizin səbəbi nədir?" sualı barədə dərindən düşünməyə də vadar edir. Torpaqları işğal altına düşdükdən, yurd-yuvalarından didərgin salınandan sonra biri digərinə daha çox həyan olmağa borclu olan insanlar (fərq eləməz, qohum ya

da yad olsun) biri-birilərinin taleyinə, acı və ağrılarına seyirçi nəzərlərlə baxırlarsa, bunda nə ermənini, nə də bir qeyrisini günahkar saymaq olmaz.

Əsərdə diqqəti çəkən məqamlardan biri də millətə rəhbərlik edənlərlə millətin münasibəti məsələsidir. Dağlıq Qarabağın və digər rayonlarımızın düşmən tapdağı altına düşməsində, inkaredilməz həqiqətdir ki, XX əsrin səksəninci illərində Respublikaya rəhbərlik edənlərin günahı az olmamışdır ki, bu məqam da əsərdə ustalıqla bədii həllini tapmışdır.

H.Mirələmovun "Cəza" (2005) povesti ətraf mühit, ekologiya və mənəviyyat, təbiət və insan problemlərinə həsr edilmiş ən aktual əsərlərdən biridir.

Əsərdə qoyulan başlıca sual belədir: Necə etmək lazımdır ki, yurdumuz daha da çiçəklənsin, adamlarımız daha da müdrikləşsin, humanist, bəşəri ideyalarla yaşasın, doğma torpağımızı və böyük dünyamızı hər cür fəlakətdən qoruya bilsin, uçurub-dağıtmasın, qurub-yaratsın?

İnsanların törətdikləri cinayətə – təbiətə dağıdıcı, amansız, rəhmsiz münasibətə həsr olunan "Cəza" əsərində ana canavarın "intiqam himnini" aylı-ulduzlu göyə üz tutaraq səhərə qədər ulamasını eynilə təbiətin, Yaradanın cinayətkarlara qarşı "intiqam himni" kimi də düşünmək olar. Müəllifin fikrincə, insanlığın anası, ilk və son beşiyi olan torpağa,

təbiətə ögey münasibət heç vaxt bağışlanmaz və bu günahın sahibi gec-tez cəzasını alacaq.

Müəllifin qənaəti belədir ki, Tanrının qəzəbindən, qiyamət günündən qorxmaq lazımdır. Yaradana məhəbbət bəsləyən onun yaratdıqlarına da sevgi ilə yanaşmalıdır. Ulu Tanrının mizan-tərəzisinə biganə qalmaq, Yerin, Göyün ilahi tənziminə xələl gətirmək, ləkə vurmaq sonda böyük təhlükə, fəlakətlə nəticələnər. Bunu insan olan kəs heç vaxt yaddan çıxarmamalıdır.

Çağdaş dövrümüzün "olum ya ölüm" dilemması qarşısında qaldığı bu həyati problem "Cəza" povestində bədii həqiqətə çevrilir, ayrı-ayrı obrazların (insanların və heyvanların) simasında oxuculara çatdırılır.

Azərbaycan nəsrində dəyərli ədəbi hadisə kimi qarşılanan "Cəza" povestinin həyati və bədii əhəmiyyəti şəksizdir. Ekoloji tarazılığın pozulduğu indiki dövrdə belə bir əsərin meydana gəlməsi böyük aktual səciyyə daşıyır. Əsərdəki emosional və fəlsəfi mühakimələr, baş verən hadisələrə nüfuz etmək qabiliyyəti povestin əsas məziyyətlərindən sayılmalıdır.

Müəllif bu əsərində demək istəyir ki, ölkədə dərəbəylik yaradan məmurlar, yağışdan sonra artan göbələklər kimi restoran, şadlıq evi tikdirənlər, "parket sexi" açaraq təbiətə, insanlara bu qədər

ziyan vuranlar, vəhşi heyvanlardan, yırtıcılardan da tamahkar olan amansız məxluqatlar nəticə etibarilə yaşadıqları torpağa, nəfəs aldıqları havaya, içdikləri suya fəlakətlər gətirirlər. Müəllifin çox doğru qənaətinə görə, təbiətlə insan arasındakı nizam, harmoniya pozulanda faciənin baş verməsi qaçılmaz olur.

Bədii ümumiləşdirmələr, real lövhələrlə zəngin olan "Cəza" povestində təbiət qisasını qiyamətə saxlamayan ədələət simvolu kimi göstərilir və bunun məntiqi nəticəsi olaraq finalda Ağalələ, tülkü Qasım kimi adamlar, ailələri, yaxınları ilə birlikdə təbiətin ən ağır cəzasına məhkum olurlar.

* * *

**Romanları:** H.Mirələmovun geniş oxucu kütləsi və ziyalı auditoriyasının böyük marağına səbəb olan əsərlərindən biri də "Gəlinlik paltarı" (2004) romanıdır. Mətbuat səhifələrində romanla əlaqədar açılan geniş müzakirələr, ədəbiyyatşünas ailmələrin, müxtələif təbəqələrdən olan oxucuların rəy və mülahizələri bu romanın necə böyük rezonans yaratmasından xəbər verir.

Azad insan ruhunun qüdrəti və faciəsi haqqında əsər təsiri bağışlayan romanda qarışıq nigahdan – azərbaycanlı kişi Qadir və erməni qadın Zinayənin izdivacından doğulmuş 18-19 yaşlı Fənayənin faciəli taleyindən bəhs olunur.

“Fənayə bataqlıqda, çürük və antimilli kök üstə bitən günahsız bir çiçəkdir”[13]. Müəllif Fənayəni sevərək yaradıb və bu gənc tələbədən – jurnalistdən qadın gözəlliyinin heç bir cizgisini əsirgəməyib.

Romanda obrazların adları da dərin simvolik məna daşıyır: Fənayə – fənaya uğramış, Haris – həris, şəhvətli, Fədai – fədakar və s.

Yazıçı əsərin əsas qəhrəmanını, ümumiyyətlə, qadın qəhrəmanlarını gözəllik, səadət, ləyaqət rəmzi olan gəlinlik paltarı ilə sınağa çəkir. Burada gəlinlik paltarı milli mentalitet rəmzidir. Bu paltarı geyinmək hər qıza qismət olmur. Bu paltarın şərəfini qorumağı da hər qız, hər gəlin bacarmaz.

Fənayə yeganə qızdır ki, bu paltarı qəfəs adlandırır, ondan imtina edir. Bu ehtiraslı qadın üçün həyatın, insan ömrünün mənası mənəvi azadlığını qorumaqdır. Fənayənin gücü nədədir? Onun gücü həm zahiri gözəlliyində, həm də bu gözəlliyin çərçivələrinə sığmayan ehtiraslarındadır.

Romanın tez bir zamanda şöhrət qazanmasının səbəbi, şübhəsiz ki, istedadla yazılması, oxucunu cəzb edən bədii kompozisiyaya malik olması, real həyat həqiqətlərini olduğu kimi, şərhsiz, müdaxiləsiz əks etdirməsidir. Yazıçı yaşadığı zəmanəyə gənc bir qızın mənəviyyat prizmasından nəzər salır. Fənayə ilə ilgili insanları onun arzularının tərəzisi ilə ölçür.

[13] N.Şəmsizadə. Yazıçı ömrünə uvertüra. “Təhsil”, Bakı-2010, s.126

Romanın uğuru bir də bununla bağlıdır ki, ədib obrazları, hətta mühitləri səciyyələndirərkən ənənəvi müsbət-mənfi qarşıdurmasından imtina etməyə nail olur.

H.Mirələmov obrazları fərdiləşdirməyi bacaran yazıçıdır, demək olar ki, əsl xarakterlər ustasıdır. Fənayə, Zinayə, Qafur, Haris, Fədai, Rahibə, Sərraf, Yusifcan kimi obrazlarının hər birinin özünəməxsus daxili aləmi, nitq fərdiyyəti, estetik idealı var.

Romanla bağlı bir məqamı da qeyd etmək lazımdır. Həmin məqam Fənayənin ölümü ilə bağlı səhnə ilə bağlıdır. Burdakı hər bir detal ölümqabağı psixoloji gərginliklər yaşayan Fənayənin həyəcanının ifadəsinə tabe edilmişdir. Bilərəkdən və ya bilməyərəkdən yaşadığı həyat tərzinin murdarlığına dözə bilməyən Fənayə müqəddəs sandığı Günəşə doğru uçmağa can atır: riyakar, iyrənc Haris kimilərdən uzaq olmaq, məsum ömür yaşamaq üçün. Müəllif bu məqamda Fənayənin bütün faciələrini özündə ehtiva edən bir cümlə işlədir: "Ancaq uça bilmədi, axı qanadları üstündə deyildi, əbədi qırmışdılar…"

Romanın maraqlı obrazlarından biri Yusifcandır. Görkəmli rəssam olan Yusifcan arvadı Zərifənin laqeydlik mühitində yaşayır. Sevgisiz ailədə yaşamaq zindanda yaşamaqdan daha çətindir. H.Mirələmov Yusifcan obrazını böyük məhəbbətlə

yaradıb. Əslində yazıçı bu obraz vasitəsi ilə sənət və sənətkar haqqında düşüncələrini əks etdirib.

Fənayə Yusifcanı sevir və bu sevgi qarşılıqlıdır. Lakin boy atmamış bu sevgi də taleyin tufanına düşür. Bir səhər Fənayə yuxudan durub yanında Yusifcanın meyitini görür. Bu səhnəni yazıçı psixoloji dərinliklə yaradır və bu epizodda Fənayənin bir sualı var: "Axı o insanlara neyləmişdi ki, insanlar onun harayına gəlmək istəmirdilər?"

"Gəlinlik paltarı" Azərbaycan romanının poetik səviyyəsini əks etdirən xarakterlər romanıdır. Lirik–psixoloji üslubda yazılmış bu romanda H.Mirələmov hadisələrin zahiri təsviri ilə kifayətlənmir, əhvalatların mahiyyətinə varmaqla onları təhlil edir. Əslində bu cəhət xarakterlərin yaradılması üçün də səciyyəvidir: əsərdə hər bir xarakter özünü təhlillə təqdim edir.

Yazıçıya böyük oxucu məhəbbəti qazandıran əsərlərdən biri "Yanan qar" ("Dağlarda atılan güllə") (2002-2005) romanıdır. Hüseynbala Mirələmovun bu romanı iki hissədən ibarətdir.

"Yanan qar" romanı H.Mirələmov yaradıcılığında Qarabağ mövzusunda yazılan əsərlər silsiləsinin davamıdır. Burada müharibənin ağır şəraitində yaşayan insanların psixologiyası sənətkarlıqla qələmə alınmışdır. Ağır müharibə dövrünün yaşantılıarı Bəy Kamranın, onun oğlu Bəxtiyarın,

Ötkəmin, Mustafanın, Sədəf qarının, Zakir kişinin, Süleymanın, Xəlilin, Novruzun və s. qəhrəmanların simasında verilmişdir. Erməni xəyanəti və xisləti isə əsasən Vahan, Vazgen, Ernest, Vartanuş kimi obrazların vasitəsilə ifadə olunmuşdur.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ faciəsi, torpaq itkisi, vətəndaşlarımızın ev-eşiklərini itirərək köçkün kimi yaşamağa məcbur olmaları, doğma yurdun maddi və mənəvi ağrıları müsbət obrazların, o cümlədən Süleymanın taleyi fonunda göstərilmişdir.

Ədib “Yanan qar” romanında əsas qayə və mətləbi bədii surətlərin üzərində qurmağa üstünlük verir. Bu romandakı surətlər bitkinliyi, bədiiliyi ilə seçilirlər. “Yanan qar” əsərində elə bir bədii surət yoxdur ki, onun taleyi diqqətdən kənarda qalsın. Xüsusilə Bəy Kamran obrazı bu cəhətdən daha mükəmməl və maraqlıdır.

Bəy Kamranla yanaşı Süleyman, Zakir kişi, Bəxtiyar, Ötkəm, Mustafa, Sədəf xala, Möhnət, Xırda xala, Akif müəllim kimi obrazlar da Qarabağ uğrunda mübarizənin bədii salnaməsini yaratmağa xidmət edirlər.

Əsas ideyası “... Vətəni işğal olunmuş xalqı düşmənə qarşı qaldırmaq, xalq qəzəbini azadlıq mübarizəsinə yönəltməkdən ibarət olan”[14] romanda

[14]N.Şəmsizadə. Yazıçı ömrünə uvertüra. “Təhsil”, Bakı-2010, s.155

gənc qadın Bənövşənin söylədiklərindən məlum olur ki, onun gözü qarşısında erməni dığaları ağlasığmaz vəhşiliklərə əl atıblar. Həsən kişinin sorğu-sualından sonra Bənövşə el-oba adamlarının, məhsəti türklərindən olan ərinin başına gətirilən müsibətlərdən söz açır.

Əsərdə təbiətin möcüzəli məqamları, qeyri-adi gözəlliyi, bəzən isə şıltaqlığı, qəzəbi romantik bir pafosla, cazibədar bir dillə təqdim olunur. Bu, əlbəttə, yazıçının sənətkarlığından xəbər verən bir cəhətdir.

H.Mirələmovun "Qırxıncı otaq" (2010) romanı cəmiyyətdə hökm sürən əxlaqi-mənəvi aşınmalara qarşı protest kimi səslənən bir əsərdir.

Bu romanda əsas ideya daşıyıcısı kimi düşünülmüş Adil Hüseynli xalqı qarşısında vəzifə borcunu ləyaqət və şərəflə yerinə yetirən, saxtakarlıq, böhtan, hiylə qarşısında əyilməyən, Şahin Verdiyev kimi bir karyeristin, vəzifə düşkününün vədlərinə aldanmayan, hədə-qorxularına boyun əyməyən namuslu hüquqşünas, ədliyyə işçisidir. Haqqı tapdanılan Cahan Axundovanın bəraət alması üçün bütün çətinliklərə sinə gərən bu cəsarətli adam əsərdə ləyaqət, ədalət simvolu kimi təqdim olunmuşdur.

Əsərdəki Cahan Axundova öz ləyaqətini, namusunu həbsə girməyi bahasına olsa da, qorumağı bacaran fədakar qadındır. Müəllif onun başına gətirilənləri, "Könül dəftəri" adlandırdığı əlyazmala-

rını hansı ümidlərlə Adil Hüseynliyə çatdırdığını və ondan ümid gözləməsini, nəhayət, həqiqətin qələbə çalaraq onun bəraət almasını yüksək sənətkarlkıqla təsvir etmiş, canlı insan obrazı yaratmağa müvəffəq ola bilmişdir.

Elmi müəssisələrin birinə rəhbərlik edən şərəfsiz, şorgöz Aşur Qaraxanlı, elmi dərəcəli hakim Şahin Verdiyev, həbsxanadakı pırpızsaç qadın, müğənni Mənzər Qarasevda günümüzün reallıqlarını özlərində yaşadan mənəviyyatsızlar, cəmiyyətə üzqarası olan çibanlardır ki, müəllif sözün gücü ilə cəmiyyəti bu cür yaramazlardan təmizləmək istəmişdir.

"Xalq taleyinin yaxın-uzaq keçmişinə müraciət edib mühüm hadisələri, ötən əsrlərin görkəmli dövlət... xadimlərinin həyat və fəaliyyətini yaşadığımız çağın intibah işığında araşdırılıb qiymətləndirilməsi və bu mənəvi tələbatdan doğan qiymətli əsərlərdən biri"[15] kimi dəyərləndirilən "Sonuncu fateh" (2007-2011) tarixi romanı H.Mirələmovun nəsr yaradıcılığı sahəsində xüsusi bir mərhələdir. Digər əsərləri kimi, bu roman-trilogiya da çap olunduqdan sonra dərhal ədəbi-elmi ictimaiyyətin diqqətini cəlb etmiş, haqqında dəyərli fikirlər söylənilmişdir.

[15]Bəkir Nəbiyev. Tarixi romanın imkanları (H.Mirələmovun "Sonuncu fateh" romanına yazılmış ön söz), "Nurlar", Bakı-2012, s. 5

H.Mirələmov romanına baş qəhrəman kimi seçdiyi Nadirin yaşadığı qarmaqarışıq tarixi şəraiti, bir insan olaraq onun və digər qəhrəmanlarının ziddiyyətli xarakterini faktları tutuşdurub əsl həqiqəti ortaya çıxarmağı bacaran fəhmli siyasətçi və cəmiyyətşünas kimi dərindən öyrənmiş, öyrəndiklərini yazıçı idealına uyğun olaraq zərgər səliqəsi ilə ümumiləşdirərək bədiiləşdirə bilmişdir. Məhz bu iki cəhət əsərin müvəffəqiyyətini təmin etmiş, oxucu uydurma tarixin, taleyi rəvayətlərə bürünmüş qəhrəmanların yox, həqiqiətə daha yaxın tarixi olayların və bu tarixin övladları olan qəhrəmanların biri digərinə bənzəməyən xarakterləri, uğrunda mübarizə apardıqları amallarla tanışlıq imkanı əldə edə bilmişdir.

Tarixi olduğu kimi həm də müasir olan romanın adı "Sonuncu fateh" olsa da, əsəri sırf Nadir şah haqqında tarixi xronika, yaxud "Nadirnamə" kimi qəbul etmək doğru olmaz. Romanda təsvir olunan, bədii həllini tapan məsələlər qismən Nadirin ətrafında cərəyan etsə də, burada əsası Şah İsmayıl Xətayi tərəfindən qoyulmuş Qızılbaş Səfəvi dövlətinin çöküşü, tarix səhnəsindən silinməsi, yeni bir sülalənin – Əfşarların hakimiyyətə gəlişi, Nadirin on bir illik səltənəti bədii predmet kimi seçilmiş, çoxsaylı surətlər, biri digərini tamamlayan səhnələr və oxucu qəlbini ehtizaza gətirən hadisələr vasitəsi ilə yazıçı idealına uyğun olaraq bədiiləşdirilmişdir.

Əsasında gerçək hadisələrin durduğu əsərin ilk hissələrini oxuduqca adamın gözləri qarşısında əvvəlki şöhrətini itirmiş, parça-parça olmuş bir məmləkət canlanır. Sahibsiz bir məmləkət – rəhbəri Şah Sultan Hüseyn kimi fərsiz bir məmləkət. Bu məmləkət xilaskarına hamilədir və onun gəlişini səbirsizliklə gözləməkdədir. Son Səfəvi şahlarının fərasətsizliyi və onları əhatə edən əyan-əşrəflərin şərəfsizliyi ucbatından hər bucağında mərkəzi hakimiyyətə asi olub özünü hakimi-mütləq elan edibən ölkəni ata malı kimi bölüşdürən dargözlərin, vətəni kiçildə-kiçildə böyümək iddiasında olanların arzusunu gözündə qoymağa qadir olan bir gücə, xalqı arxasınca aparıb dağılmış məmləkəti yenidən qurmağa qadir olan bir qüvvəyə, H.Mirələmovun "Fateh" adlandırdığı bir xilaskara ehtiyacı var. Bu xilaskar isə müəllifin əsərinə baş qəhrəman seçdiyi Xorasan türkü, Əbivərdli Nadirdir.

Bərabərsizlik, hərki-hərkilik zəmanəsinin övladı olan, ayağı yer tutub özünü tanıyandan möhkəm xarakteri, dönməz iradəsi, hadisələrdən baş çıxarmaq, qılınc oynatmaq, at minmək bacarığı ilə tay-tuşlarından seçilən, xalqının qəhrəmanlıq tarixini öyrənməyə can atan Nadir bu daxili inam sayəsində ağlına və dözümünə arxalanaraq xəyalında yaratdığı gələcək arzularına çatmaq üçün yollar axtarır. Özbəklər tərəfindən yurd-yuvasının dağıdıl-

ması, el-obasının talan edilməsi, əsirlik və əsirə bəslənilən qeyri-insani münasibətlər gənc yaşlarından onda yadelliyə nifrət hissi formalaşdırıb.

Təbii ki, Nadir dərəbəylik qanunları ilə idarə olunan ölkəni düşdüyu səfalət və rəzalətdən qurtarmaq iqtidarında deyil. Amma Nadir başa düşür və qəti şəkildə əmin olur ki, ölkəni, ən əvvəl tez-tez özbəklərin və əfqanların hücumlarına məruz qalan Xorasanı, Əbivərdi başıpozuq bir zümrədən təmizləmək üçün gücə və bu gücün ətrafında formalaşan ittifaqa ehtiyac var. Hələlik real güc sahibi olmayan Nadir çıxış yolunu Baba Əli bəy Əfşarın müdafiə dəstəsinə qoşulmaqda görür. İyirmi iki yaşında bu dəstəyə qoşulan Nadir tezliklə Baba Əli bəyin rəğbətini qazanır. Ən çətin tapşırıqlar ona etibar edilir və Nadirin sərkərdəlik bacarığı üzə çıxır. Baba Əli bəyin təklifi ilə onun qızı Fatimə ilə ailə quran Nadir minbaşı olmaqla yanaşı, həm də yeni bir rütbə – bəy titulu qazanır. Beləliklə, tarix onun boynuna təkcə özünü, ailəsini yox, dar mənada ətrafını, elini, geniş mənada isə məmləkətini qorumaq haqqını qoyur.

Əsasən türkdilli tayfalardan ətrafına qüvvələr toplayıb bütün mübarizəsini Səfəvi hakimiyyətinin qorunmasına, parçalanmış Qızılbaş dövlətinin birləşdirilməsinə həsr etdiyini və ətrafına cəmləşənləri də buna inandırmağı bacaran Nadir bəy ələ düşmüş fürsətdən istifadə edərək saraya yol tapmağa çalışır.

Ölkəni bürümüş hərc-mərclik və xaosun mən-

tiqi nəticəsi olaraq siyasət səhnəsinə gəlmiş Nadir ağıllı adamdır və həyatın qazanında bişə-bişə çox şeylər öyrənib. O başa düşür ki, çox şeylərin gücün vasitəsi ilə həll olunduğu zamanlarda da zorun qarşısında aciz qaldığı məqamlar var. Deməli, Nadir nə qədər güclənsə də, ətrafına yeni qüvvələr toplasa da, haqqında bir xilaskar, məğlubedilməzlik simvolu kimi əfsanələr formalaşsa da, hələ ki, o, şahı taxt-tacdan devirmək qüdrətində deyil. Bəs nə etməli?

Şöhrəti artıq İranın hər yerinə yayılan Nadir bəy indilik vəziyyətdən çıxış yolunu vəliəhd Təhmasib Mirzə ilə yaxınlaşmaqda görür. Düşünür ki, şahzadənin rəğbətini qazanıb qəsb olunmuş hakimiyyəti ona qaytarandan, onu hakimi-mütləq edəndən sonra arzularına bir addım da yaxınlaşacaqdır. Şahzadənin və onun ətrafının yenidən taxt-taca sahib olmağa qüdrəti olmadığını bildiyindən, Nadir bəy qanuni vəliəhdin varlığından istifadə etməklə həm əfqanları hakimiyyətdən uzaqlaşdırmaq, həm də gələcək planlarını həyata keçirmək üçün Təhmasib Mirzəni bir növ öz ovuna çevirmək üçün fəaliyyətə başlayır.

Nadirin hakimiyyət, taxt-tac uğrunda mübarizəsinin üçüncü dövrü başlanır. Artıq onun Təhmasib Mirzəyə və onun yaxın ətrafına yox, Təhmasib Mirzənin ona ehtiyacı var. Təhmasib Mirzə

istəməsə belə, Nadirlə – öz fərmanı ilə cəmi Xorasana canişin təyin etdiyi və xan məqamına yüksəltdiyi Nadir xanla ittifaq bağlamağa məcburdur. Babaları Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas kimi qüdrət sahibi olmasa da, cavan vəliəhd atası Şah Sultan Hüseyndən ağıllı və cəsarətlidir. Yaxın ətrafından, zaman-zaman onunla birlikdə olmuşlardan ehtiyat eləsə də, Nadir xanın köməyindən istifadə etməyə məcburdur.

Nadir xan – bütün varlığı ilə vətəninə bağlı olan və onu bütövləşdirməyə çalışan bu türk oğlu şah sarayında yaşamasa da, saray intriqalarından və şahların sabitqədəm olmayan xarakterlərindən kifayət qədər məlumatlıdır. O, qəti şəkildə bilir ki, şahların və həm də iradəsiz şahların ipi üstə odun yığmaq olmaz. Əmindir ki, Təhmasib Mirzə onun yardımı ilə qəsb olunmuş səltənətinə sahib durandan sonra onu özünə rəqib hesab edərək aradan götürməyə çalışacaqdır.

İkinci Təhmasib şahın baş sərkərdəsi, günü-güzəranı dövlətin itirilmiş torpaqlarını qaytarmaq və əvvəlki şöhrətini bərpa etməklə keçən Nadir xanın xəbəri olmadan osmanlılarla və ruslarla imzaladığı, İranın xeyirinə olmayan müqavilələr bağlaması Nadiri qəti hərəkətə keçməyə vadar edir. İllər uzunu ətrafına topladığı, müxtəlif vilayətlərə və şah sarayına yüksək vəzifələrə təyin etdiyi sadiq adamların köməyinə və ordudakı nüfuzuna arxala-

naraq Təhmasibi taxtdan salmağa və onun səkkiz aylıq oğlu Abbas Mirzəni Üçüncü Şah Abbas adı ilə taxta çıxarmağa müvəffəq olur.

"Təhmasibqulu" ləqəbindən imtina edib "Vəkilüddövlə" və "Naibüssəltənə" vəzifələrini icra edən Nadir xanın şəxsi rəşadəti və ağıllı tədbirləri sayəsində ölkənin itirilmiş torpaqları və nüfuzu özünə qayıtmaqdadır. Artıq ölkə ərazisində və yaxın ətrafda Nadir xanla üz-üzə gəlməyə, onun qoyduğu qanunlara tabe olmamağa cəsarəti olan bir qüvvə yoxdur. İndi məscidlərdə xütbələr onun adına oxunur, zərbxanalarda sikkələr onun adına kəsilir. Nadir xan tacsız şahdır və tacın qanuni sahibi olmaq üçün elə bir addım atmaq istəyir ki, bu addım qansız-qadasız həyata keçsin, ölkədəki nisbi sakitlik pozulmasın. Nadir xan başa düşür ki, zor işlətməklə həyata keçirilən taca sahib olma nə ölkə daxilində, nə də ölkədən xaricdə səs-küysüz ötüşməyəcək.

Biz qeyd etdik ki, Nadir xan cəsarətli sərkərdə olmaqla yanaşı, həm də müdrik və ağıllı siyasətçidir. Məhz ağıl və uzaqgörən siyasəti sayəsində o, Muğanda məmləkətin hər yerindən nümayəndələr dəvət etməklə xalq qurultayı keçirir. Qurultay nümayəndələrinin təkidi ilə taxt-taca sahib olaraq şahlığını qanuniləşdirir və Əfşarlar sülaləsinin əsasını qoyur.

Səltənətin qanuni sahibinə çevrilən, illərdən bəri arzusunda olduğunu əldə edən Nadir şah de-

mokratik yolla hakimiyyətə gəlsə də, hakimiyyəti demokratik yolla idarə etməyin mümkünsüz olduğunu çox yaxşı başa düşür. Hələ ölkə üçün görüləsi çox işlər var və bu işlərin bir çoxunu zor işlətmədən yerinə yetirmək mümkün deyil. Sonuncu Səfəvi şahları dövründə özlərini müstəqil hakim, bəzən şah elan edənlər - dişi qana batmış canavarlar açıq şəkildə meydan sulaya bilməsələr də, məqam düşdümü məmləkətin müxtəlif yerlərində ixtişaşlar törətməkdədirlər və Nadir şah bu ixtişaşları silah gücünə yatırmaq məcburiyyətindədir.

Şahlığının ilk illərini ölkənin əmin-amanlığına sərf edən Nadir şah sonrakı illərdə cahangirlik iddiasına düşür, ölkələr fəth edib böyük, lakin idarə olunması mürəkkəb olan bir imperiya qurur. Bağdad, Herat, Dehli, Türküstanda Nadir şah Əfşarın qalib bayrağı dalğalanır.

Qansız əldə etdiyi taxt-tacı qan bahasına qorumağa məcbur olan Nadir şahı ölkənin bütövlüyü məsələsi ilə yanaşı, məzhəb ixtilaflarının aradan qaldırılması da çox düşündürür. Nadir şah İslam tarixində misli görünməmiş bir islahatı həyata keçirmək istəyir. Quran, Quranın göndərildiyi sonuncu peyğəmbər bir olduğu kimi, məzhəbin də bir olması ideyasını irəli sürən, şiə və sünni fəqihlərinə məktublar göndərib onları bir məzhəb ətrafında birləşməyə çağıran Nadir şah əsrlərdən bəri müsəlmanlar ara-

sında təfriqə yaradan məzhəb ayrıseçkiliyini aradan qaldıra bilmir və əslində, Nadir şahın qətlini tezləşdirən məsələlərdən biri də atdığı bu radikal addım olur.

Hər necə qiymətləndirilirsə qiymətləndirilsin, Nadir şahın hakimiyyət başına keçməsində onun Səfəvi xanədanına etdiyi xəyanətin də mühüm rolu olmuşdur. Təhmasib Mirzəni devirib onun südəmər körpəsini şah elan edəndə də, bu körpəninin taleyini ümumxalq qurultayı ilə həll edəndə də Nadir şahın hərəkətlərində xəyanət elementləri var. Ancaq bu xəyanətlər zamanın tələbi ilə meydana gələn, qaçılmaz xəyanətlərdir.

Nadir şah kimi güçlü bir şəxsiyyətin hakimiyyət başında olması ölkənin xarici bir yana, məmləkətin daxilində də bir çox əyanlara, hətta Nadir şahın yaxınlarına belə sərf etmir. İntriqa yuvası olan saraylarda hörülən torlar Nadir şahın oğul qatili olması ilə nəticələnir və Nadir Rzaqulunun gözlərinə dağ çəkib onu dünya işığından məhrum etməklə, əslində ozü öz hakimiyyətinin dağlımasını sürətləndirir. Rzaqulu kimi bir cəngavər oğuldan məhrum olan Nadir şaha qarşı müxalif qüvvələrin baş qaldıracağı şəksizdir. Rəqibi uzaqda axtarmağa lüzum qalmır. Taleyin ironiyasına bax ki, dost-doğma qardaşı oğlu Əliqulu Mirzə əmisinə - bu əlinin üstündə əl olmayan fatehə asi olur. Ona sui-qəsd

təşkil edir və haqlı olduğunu belə əsaslandırır ki, “Doğma oğluna qıyan, ona mərhəmət göstərməyən hökmdardan hər şey gözləmək olar”.

Nadir şah qurduğu hakimiyyətin dayanıqlı olmasına nə qədər əhdi-cəhd etsə də, zaman və Nadirin qurduğu dövlət quruluşu buna imkan vermir. Özünə, min cür məşəqqətlər bahasına bərpa etdiyi, qurduğu dövlətə qarşı yadlar bir tərəfə, doğmalarından gördüyü xəyanətlər Nadir şahı ölüm kürsüsünə tərəf sürükləyir. İnandıqları tərəfindən qətlə yetirilən Nadir şahın ölümü, əslində, bir vaxtlar etdiyi xəyanətlərin mükafatı kimi də düşünülə bilər.

* * *

**Dramaturgiyası:** On üç şəkildən ibarət olan iki hissəlik **“Gəncə qapıları” (1997)** tarixi dramında hadisələr XIX əsrin əvvəllərində, Azərbaycanın Rusiyanın tərkibinə ilhaq edilməsi ərəfəsində Gəncə və Tiflisdə cərəyan edir. Ekspozisiya, bədii müqəddimə rolunu oynayan birinci şəkildə müəllif bizi Cavad xanın qısa tərcümeyi-halı ilə tanış edir və Cavad xanın yuxusunu verməklə hadisələrin əsər boyu gələcəkdə necə inkişaf edəcəyinə bəri başdan güzgü tutur.

H.Mirələmovun təqdimatında Cavad xan ağıllı dövlət başçısı, uzaqgörən siyasətçi olmaqla bərabər, həm də mərd, qorxmaz, şərəflə yaşamağı bütün minnətli imtiyazlardan üstün tutan şəxsiyyətdir. Təkcə

ətrafı deyil, onu uzaqdan tanıyanlar, hətta düşmənləri belə ona dəyər verir, rəğbətini gizlətmirlər.

Gəncə xanılğının süqutu, Cavad xanın Ramazan bayramı ərəfəsində səngərdə, döyüş başında öldürülməsi, müəllifə görə, Cavad xanın yox, aralarında milli birlik, barışıq olmayan, necə olursa-olsun özlərini qorumağa çalışan, bir amal, əqidə, lider ətrafında birləşməyi bacarmayan Təbrizdən tutmuş Naxçıvana qədər bütün Azərbaycan xanlıqları və xanlarının faciəsidir.

Cavad xan əsrinin övladı, zəmanəsinin yetişdirməsi olan şəxsiyyətdir. Müəllif onu birtərəfli deyil, bir neçə planda tamaşaçıya və oxucuya təqdim edir.

Dramdakı qadın obrazları işərisində ikisi xüsusi qeyd olunmalıdir. Cavad xanın arvadı Şükufə xanım və gürcü çarı Georginin qızı Nona. Birincisi ərinə sədaqəti və qüruru, ikincisi isə Sisyanova alçalsa belə, ondan, onun hakimiyyətindən istifadə ertməklə vətəni Gürcüstana yararlı olması ilə seçilir.

Dramın finalı ruhların – Cavad xanla Sisyanovun ruhlarının mükaliməsi ilə tamamlanır. Bakıda – Qala divarlarının önündə Hüseynqulu xan tərəfindən qətlə yetirilmiş Sisyanovun başsız bədəni ilə Cavad xanın ruhunun dialoqu, əslində, xeyrin şər üzərində təntənəsi, Helati monastrından Gəncə qapılarını doğma vətəninə aparmağı qarşısına məqsəd qoyan Cavad xanın qələbəsidir.

**İ**ki pərdəli **"Pənah xan Cavanşir"** dramındakı əhvalatlar İran və Azərbaycan tarixinin çox keşməkəşli və ziddiyyətli bir dövründən bəhs edir. Dramın birinci pərdəsindəki əhvalatlar, əsasən İran ərazisində, Nadir şah Əfşarın hakimiyyəti illərində baş verir.

Nadir şahla Pənahəli bəyin ilk toqquşması "yaxşı xidmətinə görə sultan rütbəsi verdiyi" Qarabağ ermənisi Allahqulunun şahın hüzuruna gəlməsi və Pənahəli bəyin də ora çağırılmasından sonra başlanır. Şahın hüzurunda Cavanşir elatını min cür fitnə-fəsadla Qarabağdan İranın içərilərinə köçürməyə nail olan erməniləri, şahın fərmanı ilə Qarabağın bütün ixtiyarı əlində olan Sultan Allahqulunu xain adlandıran Pənahəli bəy nə qədər özünü saxlamağa çalışsa da, nəhayət, hisslərini büruzə verir və şahın istəyinin əksinə olaraq qardaşı Fəzləli bəyin günahkar olmasını etiraf etmək əvəzinə: "Şah sağ olsun, mən qardaşımı cismən müdafiə edə bilməsəm də, cinayətkar olduğunu etiraf edə bilmərəm", - deyir.

Nadir şahın onu bağışlamayacağı qənaətinə gələn Pənahəli bəy, əslində onun bütün hərəkətlərinə göz qoyub sarayı məlumatlandırmaq üçün ona təhkim olunmuş, lakin Pənahəli bəydəki kişilik, boy-buxun və alicənablığı görəndən sonra ona vurulan Süsənbərin yardımı ilə bacısı oğlu Lütfəli bəy və digər bəylərlə birgə qaçıb canını qurtara bilir.

Dramın ikinci pərdəsindəki olaylar Qarabağda baş verir. Ermənilər hakimiyyətdədirlər, necə deyərlər: "Dərə xəlvət, tülkü bəy". Yeqan, Hüsü, Usub Nadir şahın canına dua edə-edə məlik , Allahqulu isə sultan rütbəsinə yüksəliblər. İçərilərində Şahnəzər adlı birisi də var ki, onlardan fərqli düşüncəyə malikdir. O, Nadirin iltifatına sığınmaqdansa, Qarabağda müsəlman əhalisi ilə yola getməyin tərəfdarıdır.

Pənahəli bəyin Qarabağa gəlişi onların keyfinə soğan doğrayır. Dünənə qədər "mən, mən" deyənlər indi tülkü donuna girib artıq xan kimi tanınmağa başlayan Pənahəli xanın rəğbətini qazanmağa çalışırlar.

Dramın bu hissəsində Pənahəli xanın ailə-məişət məsələlərinə müəyyən yer ayrılsa da, əsas diqqət xanlığın qurulması və siyasi məsələlərə verilmişdir. Kərim xan Zəndlə müqavilə və birgə fəaliyyət, Fətəli xan Əfşarın acı məğlubiyyəti, Pənahəli xanın Şiraza aparılması və oğlu İbrahimxəlil xanın onun yerinə Qarabağ xanlığını idarə etməsi dramda tarixi faktlara mümkün qədər sadiq qalmaqla bədii əksini tapmışdır.

Dram haqqında qeydlərimizi yekunlaşdırsaq, belə bir qənaətə gələ bilərik ki, "Pənah xan Cavaşir" dramı Qarabağ xanlığının tarixi, təşəkkülü barədə yazılmış ilk sistemli dram əsəri olmaqla yanaşı, həm də psixoloji ovqatda olan xarakterlər dramıdır.

Hüseynbala Mirələmovun **"Xəcalət" (2003)** adlı iki hissəlik dramı "Xəcalət" povestinin motivləri əsasında yazılmış, yazıçının şərti olaraq "Qarabağnamə" adlandırılan silsiləsinə daxil olan əsərlərindəndir. Cəmi altı obrazın iştirak etdiyi dramdakı hadisələr Qarabağ müharibəsindən sonrakı hadisələrdən bəhs edir.

Pyesin birinci hissəsindəki hadisələr Bakıda, qaçqınların yaşadıqları yataqxanalardan birində cərəyan edir. Ailənin qızı, dərs əlaçısı olan Gülyaz istəmir ki, yoldaşları onların hansı vəziyyətdə və hansı şəraitdə yaşamaqlarının şahidi olsunlar. Anası Fərqanənin öyüd-nəsihəti ona təsir etmir və o, əsəbi şəkildə anasına deyir: "Bura adam gələr, ana? Bilirsən onların necə evləri var?"

Bu bir neçə cümlə bu məğrur qızın ailəsinin durumunu büsbütün aydınlaşdırır.

İkinci pərdədəki hadisələr yenə də eyni məkanda baş verir. Muradın çağırdığı həkim Vətənin qızını müainə edib dərman yazır və yenə də keçmişlər xatırlanır. Kərim həkimin kəlməbaşı Muradı tərifləməsi və Muradın da bundan açıq şəkildə zövq alması Vətənin nəzərindən qaçmır. Öz uşağını müalicə etdirə bilməyən və bu işdə başqasının yardımını qəbul etməyə məcbur olan valideynlərin vəziyyətini ümümi bəla kimi qiymətləndirən müəllif Muradın dostanə hərəkətlərinə haqq qazandırsa da, onun

yekəxanalığını da göstərməyi unutmur.

H.Mirələmovun 2003-cü ildə qələmə aldığı bu dram bir çox mətləbləri özündə ehtiva edən əsərdir. Burada "Əsl insan və vətəndaş kimdir?" sulaından başlayaraq müxtəlif problemlərlə bağlı sorğulara cavab verilmiş, Azərbaycanın sinəsində hələ ki, sağalmaz yara olan Qarabağ problemi, məcburi köçkünlərin taleyi, qaçqınlara göstərilən münasibət və onların həyat uğrunda apardıqları mübarizənin çox parlaq və real mənzərələri yaradılmışdır.

İki hissəlik **"Vicdanın hökmü"** dramındakı hadisələr 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində Qarabağ konfliktinin başlanmsı ərəfəsində və Qarabağ müharibəsinin ilk illərində Rusiya şəhərlərinin birində və Azərbayacan ərazisinin döyüş bölgələrində cərəyan edir.

Pyesdəki obrazlar XX əsrin 90-cı illərində yaşamış Azərbaycan və erməni vətəndaşlarıdır. Dramdakı hadisələrin əsasında bir tikə çörəkdən, rahat dolanışıqdan ötrü vətəndən avara olmağa məcbur olan Rəhim və onun kimilərinin məşəqqətli taleyi, keçirdikləri mənəvi sarsıntılar və nəhayət, Vətən – Azərbaycan darda olanda onların Vətən uğrunda şəhidlik məqamına yüksəlməsi durur.

Dramın baş və aparıcı qəhrəmanı Rəhim olsa da, buradakı obrazların hər birinin özünəxas xüsusiyyətləri var və bu xüsusiyyətləti açmaqla müəllif,

əslində gözlərimiz qarşısında bizdən çox da uzaq olmayan səksəkəli illəri – XX əsrin 90-cı illərini canlandırmağa müvəffəq olur.

Əsərdə Azərbaycanda imkanlı bir ailədə böyüsə də Rusiyaya üz tutan, qazandığını içkiyə, əyyaşlığa sərf edərək ailəsinə belə xor baxan, Firudin ikən dönüb Fedya olan bir obraz var. Milli satqınların ümumiləşdirilmiş obrazı kimi düşünülmüş bu tip üçün müqəddəs olan heç nə yoxdur.

Pyesdə şöhrətpərəstliyinin qurbanı olan, lakin hələ də insanlğa mərhəmət hissini itirməyən, həyatın özündən gələn Güllü adlı bir obraz da var. Güllü – bir qız anası olan bu qadın Firudinin arvadıdır. Vaxtilə Rəhimin kasıblığı ucbatından nişanlısı ola-ola onu atıb varlı bir adamla ailə quran bu meşşan təbiətli qadın etdiyi xəyanətin cəzasını çəkməkdədir. Firudin onunla bir ömür-gün yoldaşı kimi yox, alçaldılmış, küncə atılmış əşya kimi davranır. Gözünün qabağında min hoqqadan çıxır, hətta ad günündə onu məcbur edir ki, Aşotla rəqs eləsin. Təbii ki, Aşot üçün ar-namusun qiyməti bir qara qəpik olmadığı kimi, “maddax” deyə qarşısında quyruq buladığı Fedya üçün də arvad-uşaq, namus dəyərsiz bir şeydir.

Fedyanın ad gününə dəvət olunan Rəhim özü istəmədən cinayət törədir. Aşotun sırtıq hərəkətlərinə dözməyib onu vurmaq istərkən Aşota havadar-

lıq edən Firudin onun bıçaq zərbəsinə tuş olur və yerindəcə can verir. Firudinin bu cür ucuz ölümünü dramaturq Vətənə, millətə, ailəyə etdiyi xəyanətin cəzası kimi mənalandırır.

Dramın ikinci hissəsindəki hadisələr Qarabağda, hərbi hospitalda və döyüş yerlərində cərəyan edir. Hərbi hospitalın həyətində Kamranla Sabirin söhbətindən aydın olur ki, Rəhim Qarabağda, döyüşən əsgərlərin içərisindədir.

Kamranla Sabirin mükaliməsindən o da aydın olur ki, "Raqozin" bazarında Rəhimlə birgə alver edən, onunla bir otaqda kirayənişin olan Əhəd də Qarabağ döyüşçülərinin arasındadır və ağır döyüşdə ayaqlarını itirən bu igid Bakıya yola salınıb.

Müəllif bu məqamda bizi başqa bir obraz – Aslan həkimlə tanış edir. Aslan həkim Azərbaycanın qəhrəmanlıq tarixinə bələd olan işıqlı bir adamdır.

Dramda Aygün və Rəhim xətti xüsusi həssaslıqla işlənmişdir. Hisslərini heç kəsdən, hətta atası Aslan həkimdən belə gizlətməyən Aygünlə Rəhim arasında olan söhbətlər, Aygünün aman-zaman bircə qardaşının 1990-cı ilin 20 Yanvarında Rusiyanın şəhərlərinin birində öldürülməsini dilə gətirməsi və Rəhimin keçirtdiyi həyəcanlar dramın psixoloji ovqatını daha da gücləndirir.

Lirik-psixoloji üslubda yazılmış və yazıçının Qarabağ mövzusunda yazdığı əsərlər silsiləsinə

daxil olan bu dramı, heç şübhəsiz ki, müəllifin dramaturgiya sahəsindəki uğurlarından biri kimi qiymətləndirmək olar.

Faşist Almaniyası üzərində qələbənin 60 illiyinə həsr olunmuş iki pərdəli **"Ləyaqət"** pyesi H.Mirələmov dramaturgiyasının ən möhtəşəm nümunələrindən biridir. Hadisələr XX əsrin ortalarında, 1941-1948-ci illərdə baş verir. Müharibə və insan taleyinin baş mövzu kimi seçildiyi əsərin birinci pərdəsində müəllif bizi Nahidə, Mirkərim ağa, Səlbi arvad, Fatma, Ziyad obrazları vasitəsi ilə, əsasən, arxa cəbhənin problemləri, müharibə meydanlarından uzaqlarda yaşayanların da, əslində müharibənin içində olmaları, Ümidin nə üçün bronu ola-ola könüllü olaraq cəbhəyə, döyüşən ordu sıralarına can atmasının səbəbləri ilə tanış edir.

Sıravi əsgər kimi cəbhəyə yollanan, döyüşən ordu sıralarında "Doktor Axundov" kimi məşhurlaşıb mayor rütbəsinə qədər yüksələn Ümid müəllif ideyalarının daşıyıcısı olan obraz kimi düşünülmüşdür.

Fatma nənənin, Nahidənin düşüncələrini və həyəcanlarını, hərbin Səlbi arvadın həyatında əmələ gətirdiyi nisgili çox böyük ustalıq və bədiiliklə əsərdə verməyi bacaran müəllifin təqdimatında müharibə bəşəriyyəti fəlakətə sürükləyən qanlı oyundan başqa bir şey deyil.

Müharibə təkcə ölüm-itim səhnəsi deyil, həm də sınaq meydanıdır. Bu meydanda Ziyad kimi buqələmunların ortaya çıxıb meydan sulaması, murdar nəfsinə görə hər cür alçaqlığı özünə rəva görməsi təbii haldır. Ümidin cəbhəyə gedişini arzusuna – vaxtilə sevdiyi, ancaq rədd cavabı aldığı Nahidəyə qovuşmaq üçün bir vəsilə hesab edən Ziyad kimilər dünən də var idi, bu gün də var və sabah da olacaq. Bu təbiətin qanunudur. Pis olmayan yerdə yaxşının qədri bilinməz.

Ziyad fitnə-fəsad, şər-şəbədə yuvasıdır. Üzdə mələk, daxildə kələk olan bu şəxsdən də müəllif mərhəmətini əsirgəmir. Ölüm ayağnda ikən etdiyi pisliklərə görə tövbə edib Ümidə məktub yazan bu bədbəxtin aqibətini gözlərimiz qarşısında canlandıran müəllif, bizcə, belə demək istəyir: "Ey bəşər övladı, tövbə qapıları hər zaman açıqdır. Dünyaya nə üçün gəldiyini, axirət gününün əzabını düşün. Əlindən yaxşılıq gəlmirsə, heç olmasa pislik eləmə!".

"Ləyaqət" pyesini insan ləyaqəti, humanizm, məhəbbətin əbədiliyi və ölməzliyi haqqında dastan da adlandırmaq olar. Bu əsərdəki hər obrazın - Ümiddən tutmuş Səlbi arvada qədər öz aləmi var və bunlar küll halında əsərin monumentallığını təşkil edir.

Fəlsəfi-psixolji ovqatda yazılmış **"Cəza quyusu"** dramı H.Mirələmovun müasir mövzularda qələmə

aldığı pyesləri ilə yaxından səsləşir. Əsərin qəhrəmanları müasirlərimiz olan və az qala hər birinin prototipini tanıdığımız insanlardır.

Hadisələrin təqdimi üçün maraqlı ədəbi-bədii priyomlar seçən, hər bir obrazı öz dilində danışdırmağı bacarıb onların daxili aləmini, iç dünyasını məharətlə açan müəllif fikrini bütün əsər boyu dörd əsas tezisin– "Haqq incəlsə də üzülməz", "Bağışlamaq böyüklərə, qisas almaq cılızlara xasdır", "Tövbə qapıları həmişə açıqdır" və "Vətəni sevmək imandandır" – üzərində cəmləyib mövzunun və janrın verdiyi imkanlar çərçivəsində duyğu və düşüncələri ilə bizləri tanış edir.

Əsərdə nə təsadüfi obraz, nə də təsadüfi hadisə yoxdur. Respublikamızın son 30-35 illik tarixinin bu və ya digər problemlərinin bədii inikası olan dramdakı başlıca hadisələr daha çox Nurlan və Yavuz bəy obrazlarının təqdimi ilə oxucu və tamaşaçıya çatdırılır.

Nurlan XX əsrin 90-cı illərində əlində olan bütün imkanlardan istifadə edərək cəbhə bölgələrinə yardım aparan, lazım gələndə əlinə silah alıb düşmənlə döyüşən, Vətənə xidməti hər cür rəsmi vəzifədən üstün tutan qeyrətli Azərbaycan vətəndaşlarının ümumiləşdirilmiş obrazıdır.

Nurlan müəllimdən fərqli olaraq, Yavuz bəy meydan qəhrəmanıdır və 90-cı illərin məlum ha-

disələrindən, hakimiyyət dəyişikliyindən sonra yüksək vəzifəyə təyin olunmuş şəxsdir. Ürəyində xeyirlə şərin mübarizəsi gedən bu şəxsə nə Vətən, nə millət xaini demək olmaz. O, sadəcə tutduğu vəzifəyə layiq olmayan, idealına sonacan sadiq qalmağı bacarmayan adamdır.

Mənəviyyat cəhətcə nə qədər aşınmaya məruz qalıb kiçilsə də, müəllif ona mərhəmətini əsirgəmir. Bir sıra məqamlarda, xüsusilə arvadı Bircəxanım və bacısı oğlu Təhsinlə söhbətində onun iki hissin arasında çabaladığını görürük. Təbii ki, heç bir əməl cəzasız qalmadığı kimi, Yavuz bəyin də əməlləri cəzasız qalmır. Ürəyindəki şərin fitfası ilə törətdiyi qanunsuzluqlar zəli olaraq boğazından yapışır və nəhayət, o, qazdığı cinayət quyusuna düşür.

Pyesin finalında onun tutduğu əməllərindən peşman olduğu aydın şəkildə hiss olunur. Lakin müəllifin qənaətinə görə, tövbə qapıları hər zaman açıq olsa da, sonrakı peşmançılıq fayda verməz.

Dramdakı "Ləyaqət" pyesindəki Mirkərim ağanı xatırladan Mirheydər ağa, hardasa az-çox "Vicdanın hökmü"ndəki Rəhim müəllimə bənzəyişi olan Uğur və Rəsi, məhəbbət, vəfa və məğrurluq rəmzi olan Nilufər, qardaş dağı ilə yaşasa da, gələcəyə böyük ümidlərlə baxan Rəmzi, Uğur və Nilufərin ömürlərinin davamı kimi düşünülmüş Balaca Uğur və Balaca Nilufər Azərbaycan reallıqlarını əks etdirən parlaq bədii obrazlardır.

Əsərdəki meşşan təbiətli Bircəxanım da, milləti düşməndən qorumaq əvəzinə oğurluğa, çapovulçuluğa qurşanan, millətə üzqarası olan Təhsin və Tayfur da uydurulmuş obrazlar deyil. Beləlləri Qarabağ savaşında da var idi, indi də var və gələcəkdə də olacaq.

Erməni xisləti oxucu və tamaşaçıların diqqətinə epizodik obrazlar olan Qurgen və Raçikin timsalında təqdim olunmuş, ölçülü-biçili ədəbi detallarla onlara  oxucu və tamaşaçılarda nifrət hissi formalaşdırılmışdır.

"Cəza quyusu" dramında Qarabağ uğrunda savaşlarda itirdiklərimiz, buna bais olan başlıca səbəblər barədə yazıçının gəldiyi qənaətlərlə yanaşı, həm də dövləti necə yaşatmalı və millətə necə xidmət etmək haqqında düşüncələri ilə də tanış oluruq.

Nəhayət, bu dramdan çıxarılan nəticəni bir cümlə ilə belə ümumiləşdirə bilərik: "Uca Tanrı heç bir yaxşılığı mükafatsız, heç bir pisliyi də cəzasız qoymur" və məcazi məna daşiyan "Cəza quyusu" adı da məhz bu anlamda başa düşülməlidir.

H.Mirələmovun **"Miras"** adlı iki hissəlik dramatik komediyasındakı hadisələr XX əsrin 90-cı illərində Bakıda baş verir. Həmin hadisələrdən bizi ayıran zaman məsafəsi o qədər də  uzaq olmadığından və biz həmin illəri yaşamış insanlar olduğumuzdan, qəhrəmanların əksəriyyəti bizə tanış gəlir və

bu obrazların yaşam tərzi, dünyagörüşü, duyğu və düşüncələri bizə o qədər də yad deyil. Əsərdə müzakirə obyektinə çevrilən məsələ, əslində mənəviyyatla bağlı olan sosial problemlərdir və müəllif problemi bir ailə və bu ailəyə yaxın olan bir çevrədə oxucu və tamaşaçıların gözləri qarşısında canlandırmaq niyyəti güdmüşdür.

Dağılmış Sovet quruluşunu yeni bir ictimai quruluş əvəz etsə də, köhnə quruluşun atributları və tərəfdarları, həmin quruluşun təzədən bərqərar olmasına sidq ürəkdən inananlar hələ də var və bunlara elə gəlir ki, təzədən bir ideya ətrafında birləşməklə quruluşun bərpası mümkünür. Bu adamların heç birini – Nemətulla, onun əqidə dostları olan Həqiqət, Batelman, Svetik və Yazıçını qınamaq olmaz. Onlar Sovet quruluşunun yetirmələri və əqidələrinə sonacan sadiq olan əqidəli kommunistlərdir. Əslində Azərbaycan cəmiyyətinə yetişməmiş, elmi-nəzəri və iqtisadi cəhətdən tam əsaslandırılmamış bir hadisə kimi daxil olan müstəqillik və Azərbaycan xalqının həyatında kifayət qədər ziddiyyətli dövr olan XX əsrin 90-cı illərindəki hadisələri həzm etmək, doğurdan da, çətin məsələ idi. Həmin illərin Azərbaycan adamının əksəriyyəti SSRİ kimi nəhəng bir ölkənin necə süqutu barədə kifayət qədər məlumata malik olmadığı kimi, sovet qanunları ilə sosializm sistemində yaşamağa adət etdiklərindən, yeni qu-

ruluşun qanunları və yaşam tərzini də çətinliklə qəbul edirdilər. Onların bir çoxuna bu hadisələr yuxu kimi gəlir, bir çoxları yeni dövrün yeni qanun və ictimai münasibətlərinə uyğunlaşsalar da, əksəriyyəti "Olum, ya ölüm" sualı ilə baş-başa qalmışdı. Axar suyun bir daha geri qayıtmayacağına inananlar dolanışıq, həyatda özlərini təzədən təsdiq etmək üçün yollar axtarır, bəziləri ümidsizləyə qapılaraq həyatdan əlini üzür, digərləri – "Miras"ın qəhrəmanları kimi "Bəlkə də qaytardılar" (C.Məmmədquluzadə) ideyası ilə yaşayırdılar. Yenə də təkrar edirik: Bu adamların heç birini qınamaq olmaz və öz hərəkətlərində onların hər biri haqlıdır.

H.Mirələmovun dramını məhz dövrün bədii salnaməsi olmaq baxımından qiymətləndirir, düşünürük ki, həmin illərin ictimai-siyasi durumu, insanlar arasında olan münasibətlər, həyatın burulğanlarında çabalayan insanların psixoloji sarsıntılarını əks etdirmək baxımından, bu əsər daramaturgiyamızda tamamilə yeni bir hadisədir.

Əsərdəki hadisələrin ağırlıq mərkəzində İnqilab və onun ailəsi dayanır. Bir vaxtlar Mərkəzi Komitədə şöbə müdiri vəzifəsində işləyən, cəmiyyətdə, tay-tuşları arasında nüfuz sahibi olan bu partiya funksioneri indi sıxıntılar içərisindədir və öz ev-eşiyini sataraq atası Nemətullanın qoltuğuna sığınmağa məcbur olub. Bunun, bu vəziyyətin meydana

gəlməsi iki səbəblə bağlıdır. Birincisi, İnqilab yeni quruluşun yeni qaydaları ilə yaşamağı bacarmır, ikincisi, o, öz evində arvadı Nərgizin və oğlu Azikin yanında mütləq söz sahibi deyil. Onun evini, ailəsini, əslində özü yox, meşşan təbiətli arvadı idarə edir.

Ailənin yeganə övladı olan Azik Amerikada gün keçirir və Nərgiz ərini məcbur edir ki, İnqilab hansı yolla olursa-olsun atasının evini satıb pulunu Amerikaya – guya orda iş qurmuş oğluna göndərsin. Bundan sonra özləri də Amerikaya gedib orada yaşasınlar. Bu isə bədii mətndən göründüyü kimi, mümkün deyil. Əvvəla, ona görə mümkün deyil ki, ev Nemətullanın adınadır və onlar əvvəlki evlərini satıb pulunu oğlanlarına göndərdikdən sonra bu evə sadəcə sığınmışlar və evi satmağa, girov qoymağa onların hüququ yoxdur. İkinisi, İnqilab gedib yad ölkədə kiminsə qabağında hambal kimi işləmək, restoranlarda qab yumaq, müəyyən obyektlərdə keşikçi olmaq fikrində deyil. Çünki o başa düşür ki, onun kimilər Amerika kimi bir ölkədə fəhlə olmaqdan başqa bir işə yaramazlar. Digər bir cəhət də bundan ibarətdir ki, arvadından fərqli olaraq İnqilabın ürəyində vətən məhəbbəti var və o qərib ölkədə vətən həsrəti ilə yaşaya bilməyəcəyini yəqin bilir.

Nərgiz ürəyində baş qaldırmış qarmaqarışıq hisslərin əsirinə çevrilib. Bir tərəfdən uzaq Amerikanın dəbdəbəli, parıltılı həyatı ona "gəl-gəl" deyir

və o, əri vəzifəsini itirdikdən sonra özünü və ailəsini cəmiyyətdə təklənmiş, artıq adam hesab edir, başqa tərəfdən isə fərasətsiz oğlunun girovuna çevrilərək onu düşdüyü vəziyyətdən qurtarmaq üçün bütün iyrənc əməllərə – qayınatasının icazəsi olmadan onun evini satmağa, ərini zorla vətəndən didərgin salmağa, yad ölkədə qul kimi işlətməyə və özü də işləməyə razıdır. Təki oğlunun ürəyi, könlü xoş olsun. Oğlunu vətənə dəvət etməkdənsə, onu qürbət avarəsi etmək bu ana üçün daha sərfəli görünür. Əsərin finalında Azikin tutduğu əməllərdən peşman olub, yad məmləkətdə nökər kimi yaşamaqdansa, gəlib öz doğma torpağında insan kimi yaşamağa qərar verməsi onun onsuz da əvvəldən puç olmağa məhkum olan bütün planlarını alt-üst edir.

Dramda izlənən digər bir məqamı mütləq xatırlatmaq lazımdır. Əsərdə Batelman adlı bir yəhudi obrazı var. Bu yəhudi Bakıda döğulmuş, burada boya-başa çataraq ev-eşik sahibi olmuşdur. XX əsrin 80-ci illərində ailəsi ilə İsrailə köç edən bu yaşlı yəhudi Azərbaycana – Bakıya qayıtmağı İsraildə ona yaradılan imtiyazlardan tutmuş, "gedib vətənimdə ölmək istəyirəm" fikri ilə Bakıya dönmüşdür. Yəhudinin öz tarixi vətənindən – İsraildən Bakıya qayıdışı, əslində vətəni atıb yad məmləkətlərdə yaşamağa üstünlük verən azərbaycanlılara verilən bir dərsdir.

Bizcə, əsərə verilən “Miras” adı iki mənada düşünülə bilər. Birincisi, həqiqi mənada. Belə ki, atadan qalmış ev qanuni yolla oğula çatmalıdır və hələ ata həyatda ola-ola gəlin onun malına-mülkünə sahib durmağa çalışır. Məqsəd aydındır: qocanı qocalar evinə göndərsələr belə, təki oğul – yəni Azik arzusuna, Nərgiz isə Amerikada yaşamaq istəyinə çatsın.

Miras həm də məcazi mənada düşünülə bilər. Nemətulla və onun ətrafına yığışan köhnə partokratlar özlərini devrilmiş sovet hökumətinin varisi hesab edir, bu dövlətdən qalan bütün atributları miras kimi qorumağa çalışırlar. Biz bu mənada qocaların istəklərini Nərgizin istəklərindən daha insani hesab edirik.

“Miras” çoxplanlı əsərdir. Burada ailə-məişət məsələlərindən tutmuş bir çox ictimai-iqtisadi və sosial problemlərə toxunulmuş, XX əsr Azərbaycan insanının xaraktercə biri digərindən fərqlənən real obrazları yaradılmışdır.

Əxlaqi və insani dəyərlərin yerini yavaş-yavaş digər anti-insani və anti-əxlaqi dəyərlərə verməkdə olduğu cəmiyyətlərin əvvəl-axır tənəzzülə uğraması ictimai inkişafın qaçılmaz və dəyişməz əbədi qanunudur. Pulun, var-dövlətin əndazəsiz olaraq artması, külli-miqdarda kapitalın bir nəfərin, yaxud bir qrupun əlində cəmlənməsi və bu kapitala nəzarət

mexanizminin yoxluğu bir qrup insan üçün dırnaqarası səadət, kütlə üçün, əgər belə demək mümkünsə, fəlakətdən başqa bir şey deyil. İsbata ehtiyacı olmayan bir həqiqətdir ki, qədərindən artıq sərvət kimsəni ömrünün sonunacan xoşbəxt etməyə yetərli deyil. Artıq, mənbəyi gizli olan sərvət və dövlətin arxasında nə qədər pisliklərin, görünən və görünməyən əzabların olmasını da kimsə dana bilməz. **“Axirətdən gələn zəng”** tragi-komediyasını oxuyarkən, bizim yadımıza düşən, fikrimizi işğal edən düşüncələr ilk olaraq yuxarıdakılar oldu.

Rəqibi ən iyrənc vasitələrlə aradan götürmək, var-dövlətə əsir olmaq, ərinə xəyanət, vəzifədə olub külli miqdarda sərvət qazanan və bu sərvətdən qohum-əqrəbasına pay ayıranların qarşısında boyun burub hər sözünə ləbbeyk etmək, şöhrət pilləsindən kəlləmayallaq olandan sonra onu saya salmamaq bütün cəmiyyətlərin arzu olunmaz həyat normasıdır və bu mövzularda həm dünya, həm də Azərbaycan ədəbiyyatında xeyli əsərlər yazılıb. Xislətində əbədi olaraq xeyirlə şərin mübarizə apardığı insan, görünür, tarixin heç bir dönəmində, heç bir inkişaf mərhələsində fitrətindəki bu ikili xarakterdən qurtula bilməmiş və qurtula bilməyəcəkdir. Ən əsas vəzifələrindən birincisi insanı tərbiyə etmək, ikincisi ona zövq vermək olan ədəbiyyat, təbii ki, yuxarıda haqqında mülahizələr bildirdiyimiz bu əzəli və əbə-

di mövzuları daim gündəmə gətirməyə məcbur və məhkumdur və bəşəriyyətin labüdlüyü, əbədi yaşayışını təmin edən başlıca şərtlər də, heç şübhəsiz ki, xeyirlə şərin mübarizəsi və bu mübarizədən xeyirin qalib ayrılmasıdır.

Müəllifin dramatik-komediya adlandırdığı əsəri biz tərəddüd etmədən, məhz bu ümumbəşəri və əbədi-əzəli problemin işıqlandırılması və həllinə yönəlməsi səbəbindən faciəli komediya – tragi-komediya adlandırırıq. Bu qənaətdəyik ki, əsərdə bədii həllini tapan məsələlər bir qədər gülüş, həm də düşündürücü ironiya doğursa da, əslində faciə, həm də təkcə milli faciə yox, bəşəri faciədir.

Dövran – yeni zamanın bədbəxt milyonçusu sağlığında ətrafındakı bir qrup adam üçün büt, arvadı Röya və əmisi nəvəsi Samir üçün oyuncaq, qazanc mənbəyidir. Əri Fərhadın qəfildən "qeyb" olamasından sonra Dövranla ailə quran Röya H.Cavidin "Maral" facəsindəki Maralın xələfidir. Turxan bəyin gənc arvadı Maral Turxan bəyin qohumu Arslanla eşbazlıq edirdisə, Röya – bu maddi cəhətdən hər cür təmin olunmuş orta yaşlı ərli qadın Samirin məşuqəsidir. Samir – bu mənəviyyatsız qohum ona tapşırılmış, etibar edilmiş əmanəti - əmizadəsinin namusunu tapdalamaqdan çəkinmir, qadının altmış yaşlı ərinə olan sayğısızlığından istifadə edərək ondan həm cismani, həm də maddi cəhətdən istifa-

də edir. Ərini sevmədən onunla bir yastığa baş qoymaq nə bu qadının, nə də qadınlığın faciəsi deyil. Faciə odur ki, ər qadını, həm də sonu-züriyyəti olmayan qadını naz-nemət içində bəsləyə, bütün qohum-əqrabalarını ona hörmət etməyə məcbur edə, o isə ərinin namusunu ayaqlar altına ata, ən dəhşətlisi isə yatağına başqasını yox, ərinin dost-doğma qohumunu soxub murdar nəfsini onunla öldürə. Hələ bu azmış kimi, "ərim olmayandan sonra ərim sən olarsan", – deyə onunla əhd-peyman bağlaya. Bu isə, bizcə, uydurma bir süjet deyil, günümüzün reallığıdır və qadınlığa ləkə olan iblis xislətlilərin yaşam tərzi, həyat yoludur. Düşünürsən: bu gün Samiri yatağına soxan ərli qadın, sabah Samir qala-qala maddi imkanlarından istifadə edib başqalarını özünün əyləncəsinə çevirməyəcəkmi?

Kim necə düşünür düşünsün: Ərli qadının başqa kişi ilə əlaqəsi əxlaq normalarına tüpürməkdirsə, kişinin ərli qadınla əlaqəsi, ondan maddi və şəhvani nəfsini öldürmək üçün istifadə etməsi mənəvi şikəstlik və əxlaqi naqislikdir.

Əsərdə Dövranın qohumları və dostları kimi təqdim olunan obrazlardan ikisi – qaradşı Bayramın arvadı Zöhrə və Dövranın yaxın dostu Elman qibtəedilləsi obrazlardır. Zöhrə mümkün qədər iman və inancı, Elman isə dostluğa sədaqəti ilə seçilir.

Müəllif Dövranın yaxın ətrafının daxili aləmini çox böyük məharət və ustalıqla şərti olaraq "Vəsiyyətnamə" adlandırdığımız səhnədə açır. Özünün ad günündə qohumlarına vəsiyyətnamə yazdığını, vəsiyyətnaməsinin bir nüsxəsinin seyfində, digər nüsxəsinin natariusda olduğunu bildirən Dövran onların hər birinə sərvətindən müəyyən pay ayırdığını söyləyir. Qohumları maraq bürüyür, hamısı, xüsusilə, bacısı Ceyran ayrılmış məbləğin miqdarını öyrənməyə cəhd edir. Təkcə Zöhrə və Elman, demək olar ki, məbləğlə, bəlkə, vəsiyyətnamə ilə belə maraqlanana oxşamır. Həmin axşam Dövranın təsadüfi elektrik vurmasından dünyasını dəyişməsindən sonra vəsiyyətnamənin oxunuşu ilə məsələyə aydınlıq gəlir. Yüz altımış milyon manatlıq bir sərvətin vəsiyyətnamə əsasında bölgüsü qohumlar arasında böyük mübahisəyə səbəb olur. Qohumlar ölülərinə ağlamaqdansa, mirasın bölünməsi uğrunda didişirlər.

Hər kəs közü öz qabağına çəkməyə çalışır. Təbii ki, hər bir fərd qohumluq əlaqələrini və qazanılmış milyonların iştirakında rolunu nəzərə alaraq iddiasını dilə gətirir və Dövranın bölgüsü bəzilərini çıxmaqla, onların ürəyincə deyil. Ceyran inciyir ki, qardaşı doğma bacısını qoyub gəlinlərinə, qeyri qohum və dostlarına daha çox pay ayırıb. Samir ona ayrılan paydan narazı olsa da, Röyaya ayrılmış 50 milyon manata və mülkə görə özünü sakit aparır.

Düşünür ki, Röya ilə evlənəcək və bu qədər varidata, əslində o sahib olacaq. Əsl mərəkə Dövranın qardaşı Bayrama əlavə olaraq ayırdığı və ünvanı ona, Bayrama, bir də evində qulluqçu kimi saxladığı filippinli qadın Delisaya məlum olan beş milyonla əlaqəli olaraq meydana çıxır. Bayram bu məbləğin ona əlavə olaraq nə üçün ayrıldığının səbəbini qətiyyətlə inkar etsə də, bunun qardaşı ilə arasında bir sirr olduğunu bildirsə də, qohumlar ondan əl çəkmir. Nəhayət, Delisay meydana çıxıb bildirir ki, bu pul Bayrama yox, ona, onun Dövrandan olan altı yaşlı oğlu, hazırda Filippində Delisayın anasınının yanında yaşayan oğlu Dodiyə ayrlıb. Bu gözlənilməz və Bayramın da təsdiq etrdiyi xəbər qohumlar arasında çaşqınlıq yaratdığı bir məqamda gizli nömrədən edilən telefon zəngi onların əhvalını daha da qarışdırır.

Zəng edən Dövrandır və heç kəs buna inanmaq istəmir. Ölünün dirilib Röyaya, Bayrama, Elmana zəng çalması, Ceyran və Samirlə danışması onlara bir qarabasma, yaxud bir başqasının onlara sataşması kimi  görünür. Elman Dövranın qızıl korpuslu telefonunun təsadüfən Dövranın qəbrinə düşüb orada qaldığını bildirəndə vəziyyət bir qədər də mürəkkəbləşir.  Elman inanır ki, Dövran elektrik vurmasından ayılıb və torpağın altından – qəbrdən zəng edib onu xilas etmələrini xahiş edir. Elman ona ayrılan on milyon manatdan imtina edib dostunu xi-

las etməyə tələsir. Qohumlar isə buna imkan vermir. C.Məmmədquluzadənin "Ölülər" əsərindəki Şeyx Nəsurullahın ölüləri diriltmək istəməsi zamanı qəbiristanda yaranan səhnəyə bənzər bir səhnə burada da yaranır. Qohumlar, hər nə qədər "ölü dirilməz, xortlamış ölüyə nə deyərlər?" - deyib Elmanın qəbiristana getməsini əngəlləsələr də, əslində məqsəd Dövranın dirilməsinə mane olmaqdır. Çünki Dövran dirilib gəlsə, onlara vəsiyyət edilmiş milyonlar əllərindən çıxa bilər.

Bu qohumlar üçün sərvətin insandan irəli olduğu qənaətinə gələn müəllif kəfənə bürünmüş halda səhnəyə gətirdiyi Dövranın əli ilə yazdığı vəsiyyətnaməni onun öz əli ilə parça-parça etdirməklə bir daha cəmiyyətə, insanlığa belə bir mesaj göndərmiş olur: Düzlük, həqiqət, əxlaqi dəyər və milli ənənələrə sadiqlik, insanlıq və humanistlik bəşəriyyəti və cəmiyyəti xilas edəcək ən doğru yoldur. Yalan, tamah, xəyanət, insanlığa yaraşmayan qaydalarla yaşamaq bəşəriyyət üçün dəhşətli müharibələrdən də qorxuludur. Cəmiyyətin mənəvi cəhətdən saflaşması, insanlar arasında normal ünsiyyət maddiyyatla deyil, mədəniyyətlə mümkündür. Ürəyində Allah xofu və insan məhəbbəti olmayan Adəm övladı insan deyil, sadəcə varlıqdır. Elə varlıq ki, o varlığın əməllərindən bəşəriyyət yalnız və yalnız pislik meyvələri dərəcəkdir.

* * *

**Publisistikası:** H.Mirələmovun publisistikasının bədii-fəlsəfi mahiyyətini bir cümlə ilə bu şəkildə ifadə etmək olar: xalq və tarix qarşısında mənəvi məsuliyyət!

H.Mirələmovun publisistika ilə gənc yaşlarından, ilk hekayələri çap olunduğu vaxtlardan məşğul olmağa başlayıb və 2002-ci ilədək müxtəlif mətbuat orqanlarında əlliyə yaxın məqaləsi çap olunub. H.Mirələmov publisistikanın bütün janrlarında yazıb və qələmini daha çox ədəbi-bədii publisistika, məişət publisistikası və siyasi publisistika sahəsində sınayıb. Bütün sahələrdə də o, demək olar ki, vətəndaş amalı ilə həqiqiəti yazıb, cəmiyyəti ağrıdan problemləri bədii-publisistik sözün təhqiqat mərkəzinə gətirib.

Siyasi publisistika nümunələri yaratmaq çox çətindir və bunun üçün yazıçıdan xüsusi istedad tələb olunur. Dəyərli siyasi publisistika nümunəsi ərsəyə gətirmək üçün qələm əhlinə sözə yaxından bələd olmaq azdır və bu zaman yazıçıda tarixin gedişatını izləmək, siyasi prosesləri duymaq, cəmiyyətdə baş verən olaylara çevik münasibət bəsləmək səriştəsi və bacarığı da olmalıdır. Məhz bu cəhətlər bir qələm əhli olaraq H.Mirələmovda olduğundan, o, sanballı bədii əsərlər yaratmaqla yanaşı, real faktla yazıçı təxəyyülünun harmoniyasından yaranan gözəl pub-

lisistik əsərlərin də müəllifidir.

H.Mirələmovun siyasi publisistikasının baş qəhrəmanı XX əsrin böyük şəxsiyyəti, dünya şöhrətli siyasətçi, ümummilli lider Heydər Əliyevdir. H.Mirələmovun H.Əliyev şəxsiyyətinə məhəbbət və sədaqəti 1969-cu ildən, ulu öndərin hakimiyyətə gəldiyi dövrdən başlayıb, heç vaxt öləziməyib və bir zərrə də olsun dəyişməyib. H.Mirələmovun publisistik qələmindən H.Əliyev şəxsiyyətinə tükənməz məhəbbətin tarixi-fəlsəfi ifadəsi olan aşağıdakı kitablar ərsəyə gəlib:

"Amalın işığında" (2002), "Həqiqət" (2003), "Zəfər yolu" (2003), "Bir günəş var" (2004), "Millətin atası" (2004) və nəhayət, Moskvada, məşhur JZL – Görkəmli adamların həyatı seriyasından rus dilində çap olunmuş "Heydər Əliyev" (2005) kitabı. Bu kitablar möhtəşəm "Heydərnamə" epopeyası və"Əliyevçilik fəlsəfəsi"ni əks etdirən qiymətli bədii-tarixi sənədlər toplusudur. H.Əliyevə dönməz sədaqət, böyük vətəndaş və ziyalı sevgisi, bu böyük insanın tarixi rolunu dərk və əks etdirmək istəyi bu kitabların bədii-fəlsəfi qayəsini müəyyən edir.

H.Mirələmovun Heydər Əliyev haqqında kitablarını vahid bir konsepsiya birləşdirir: ulu öndəri yeni Azərbaycanın – müstəqil Azərbaycanın qurucusu kimi göstərmək! Bu çətin, fəqət ali niyyət yazıçıya güc və qüdrət verir, onun ilhamını birə-beş

artırır. Artıq qeyd etdiyimiz kimi, Heydər Əliyev ideyalarına hədsiz sədaqətli olan yazıçı bu böyük tarixi şəxsiyyətə tarixilik kontekstindən nəzər salır, onu nəinki yaşadığı zəmanənin fonunda təqdim edir, hətta Heydər Əliyev fenomeninin zəmanədən üstün olduğunu, onun zəkasının yaşadığı zəmanəni qabaqladığını göstərməyə nail olur.

Heydər Əliyevin yenidən hakimiyyətə gəlişinin – qayıdışının 10-cu ildönümündə H.Mirələmovun "Həqiqət" (2003) və "Zəfər yolu" (2003) kitabları çap olundu.

H.Mirələmov H.Əliyev haqqında yazmağa mənəvi səlahiyyəti olan yazıçıdır. Çünki o, böyük dönməzlik və tükənməz sədaqətlə həmişə H.Əliyev ideyalarına xidmət göstərmişdir. Təsadüfi deyil ki, o, H.Əliyevi nəzərdə tutaraq "Zəfər yolu" essesinin fəlsəfi qəhrəmanı olan Böyük İnsan haqqında deyir: "Böyük İnsan sədaqəti bəşər övladının ali keyfiyyətlərindən hesab edilir. O, siyasi Olimpin zirvəsinə yenidən qayıdandan sonra bir vaxt sadə insanların ona necə sədaqət göstərdiklərini dəfələrlə xatırlayacaq". Beləliklə, H.Mirələmov çox həssaslıqla H.Əliyevə məxsus ali keyfiyyətlərdən birini - onun sədaqəti insan mənəviyyatının, insanın ictimai dəyərinin ən dəqiq meyarı hesab etməsi fikrini ön plana çəkir.

"Zəfər yolu" əsərinin qəhrəmanı tarixə və zamana zirvədən boylanan, məskəni ZİRVƏ olan Böyük İnsandır.

H.Mirələmovun "Zəfər yolu" əsərinin mayası cəmiyyətə və dahi şəxsiyyətə məhəbbətdən yoğrulmuşdur. "Zəfər yolu" fəlsəfi essedir və onu nə bədii, nə elmi, nə də publisistik əsər kimi xarakterizə etmək doğru olmazdı. Bu əsəri fəlsəfi traktakt adlandırmaq daha doğru olardı.

H.Mirələmov öz qəhrəmanını bir an da olsun başı bəlalı, sinəsi çat-çat vətəndən – Azərbaycandan ayırmır. Bizcə, bu əsərin fəlsəfi-estetik siqləti, bədii gücü də məhz burda – Vətən və Şəxsiyyətin vəhdətindədir.

H.Mirələmova görə, H.Əliyev zəkasının ən böyük bəhrəsi "Dövlət qurmaq elmi"dir.

H.Mirələmov səy və təmkin, başlıcası isə qayğı və sayğı ilə H.Əliyevin qalibiyyət əzmini aşkara çıxarır və əslində bu "ƏZM"in fəlsəfi obrazını yaradır.

H.Mirələmovun "Həqiqət" kitabı müəllifin belə bir fikrini dəqiq ifadə edir: O, Tanrıdan aldığı ruhu insanlara həqiqət kimi təqdim edən şəxsiyyətdir! Bu isə məhz H.Əliyev həqiqətidir!

"Həqiqət" kitabında toplananlar müəllifin publisistik oçerklərindən ibarətdir. Maraqlı struktur və sisteminə görə bu kitabı H.Əliyevin 1993-2003-

cü illər dövründəki zəfər salnaməsi də adlandırmaq olar.

H.Mirələmov H.Əliyevə həsr etdiyi fəlsəfi-publisistik kitablarından birini "Bir günəş var" (2004) adlandırır. Yəni Heydər Əliyevi Günəşə bənzədir. Kitab bu cümlələrlə bitir: "Qəlbimizdə bir Günəş var. Zəkamıza işıq, ruhumuza hərarət bəxş edən Günəş… Onun adı hamımıza əzizdir…"

Bu kitabın çox maraqlı quruluşu var. Müəllif öz təhlil və mülahizələrinə inam, əminlik və zəmanət üçün həm H.Əliyevin fikirlərinə, həm də H.Əliyev haqqında dünya siyasətçilərinin aforizm misallı maraqlı qənaətlərinə istinad edir.

"Bir günəş var" H.Əliyevin vəfatından sonra yazılıb. Ona görə də əsərin əvvəlində publisistik üslubda müəyyən kədər çaları var. Lakin burada liderin cismani yoxluğu ilə əbədi varlığı yüksək fəlsəfi-publisistik vəhdətdə öz əksini tapır. Ümumən əsərin ideyasını H.Əliyev əbədiyyətinə əsl ziyalı və vətəndaş yazıçı inamı müəyyənləşdirir.

Müəliif oçerklərinin birində yazır: "Heydər Əliyevi Günəşə bənzədən təkcə mən deyiləm. Və onu Günəşə timsal tutanlar sadəcə bənzətmə aparmırlar. Günəş həyatın mənbəyidir. Günəş öz işığını kimsədən əsirgəmir, Günəş öz işığını, enerjisini, hərarətini qərəzsiz olaraq bütün dünyaya bağışlayır. Heydər Əliyevdə Günəş qüdrəti vardı.

Günəşi sevdiyimiz kimi onu sevirik…”.

H.Mirələmovun yaratdığı “Heydərnamə” epopeyasının dəyəri, elmi-fəlsəfi gücü, sözünün təsir və nüfuz imkanları bununla bağlıdır ki, o, H.Əliyevi sidq ürəklə, fanatik bir səmimiyyət və ehtirasla sevir və təsvir edir.

H.Əliyev fenomenini hərtərfli açmaq tarixin, gələcəyin işidir. Bu həqiqət bizi görülən işlərin obyektiv tarixi dəyərini vermək missiyasından uzaqlaşdırmır. Bir daha qeyd edirik ki, H.Mirələmovun H.Əliyevə həsr edilmiş kitabları onun bu dahi şəxsiyyəti dərk və tədqiq etməyə doğru yönəlmiş təkamül pillələri idi. Nəhayət, bu təkamül böyük bir əsərlə - 2005-ci ildə Moskvada JZL seriyasından çap olunmuş “Qeydar Aliev” kitabı ilə müəyyən bir mərhələ kimi tamamlandı.

Kitabdakı hadisələr 1923-2003-cü illər arasındakı böyük bir tarix hüdudunda cərəyan edir. Bununla belə müəllif 80 ilin olduqca zəngin, kifayət qədər canlı salnaməsini nə keçmişdən, nə də gələcəkdən ayırmır. Çünki H.Əliyevin ömrü, cahanşümul əməlləri, əslində Azərbaycan tarixinin üzərindən salınmış nəhəng bir ünsiyyət körpüsü idi. Xüsusilə kitabın “Tarixin dərsləri” bölməsində H.Əliyevin Azərbaycan Demokratik Cümhuriyyətinin ənənələrinə ehtiramının ön plana çəkilməsi oxucuda rəğbət doğurur. Kitabın müəllifi qeyd edir ki, “Topd

çubaşov əsl dövlətin yaradılmasında, ilk növbədə daxili sabitliyin olmasını vacib amil kimi qeyd edirdi. Heydər Əliyev öz fəaliyyəti zamanı məhz bu ideyanın reallaşmasına can atırdı. Heydər Əliyev həmin nəzəriyyənin təşəbbüskarı olaraq bütün xalqı, cəmiyyəti bir yerə toplaya bilir. Bu, azərbaycançılıq idi".

H.Əliyevin kitabda diqqətə çatdırılan ən böyük xidmətlərindən biri Azərbaycanı dünyaya tanıtması idi. O, Azərbaycanı qloballaşan dünyanın yeni tarixi sahmanına daxil etdi. Şübhəsiz ki, burada əsas yeri ümummilli liderin dünya siyasətindəki nüfuzu və bu nüfuza arxalanaraq apardığı fəal, düşünülmüş xarici siyasət tuturdu. O, ağıllı və uzaqgörən adam idi. Siyasətini elə qurdu ki, dünya ölkələrinin ayağına getmədi. Dünyanın ən qüdrətli dövlətlərini Bakıda bir araya gətirdi. 1994-cü il sentyabrın 20-də Bakıda – "Gülüstan" sarayında sonralar tarixə "Əsrin müqaviləsi" adı ilə daxil olmuş məşhur neft müqaviləsini imzalatdı. Beləliklə, Bakı nefti H.Əliyevin əlində dünya siyasətini və Azərbaycanın xarici siyasətini uğurla idarə etmək üçün qüdrətli vasitəyə çevrildi.

Məsələ burasındadır ki, möhkəm iqtisadi təməli olmayan ideologiya və diplomatiya heç bir təsir gücünə malik ola bilməz. Belə bir fikir tamamilə doğrudur ki, "H.Əliyev "Əsrin müqaviləsi" ilə

milli ideologiyamızın – azərbaycançılığın iqtisadi təməlini formalaşdırdı". Bu, yeni, müstəqil dövlət quruculuğu üçün başlıca şərt idi.

H.Mirələmovun kitabında H.Əliyevin Naxçıvanda ikən 24 okyabr 1992-ci ildə müstəqil Azrbaycan dövlətinin formalaşdırılması üçün verdiyi təklifləri bir proqram sənədi olaraq ön plana çəkilmişdir. H.Əliyevin bu təklif və mülahizələri Azərbaycanın siyasi hyatında böyük rol oynamış Yeni Azərbaycan Partiyasının proqramının, siyasi platformasının əsasında dayandı.

Kitabın ən maraqlı, kövrək fəsillərindən biri "Heydər və Zərifə" adlanan üçüncü fəslidir. Burada diqqət daha çox onların həyatında mərhələ yaratmış sevgi dastanına, ailə həyatına yönəldilmişdir. Bu həqiqətən çox kövrək, çox cazibədar və eyni zamanda taleyin və tarixin sınaqları ilə baş-başa qalan bir sevgi dastanıdır.

H.Mirələmov mahir bir yazıçı və publisist kimi H.Əliyevin varlığında əsl insanı axtarır və buna nail olur.

"Heydər Əliyev" kitabı təkcə müəllifin yox, ümumən çağdaş Azərbaycan siyasi publisistikasının bədii-fəlsəfi imkanlarını əks etdirən qiymətli əsərdir. Fakt dəqiqliyi, fikir aydınlığı, faktın təkcə özünü yox, tarixi mahiyyətini üzə çıxarıb mənalandırmaq, şəxsiyyətin, liderin xarakterini açmaq üçün vasitəyə

çevirmək imkanı bu əsərin əsas üslubi xüsusiyyətlərini müəyyən edir.

H.Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı" essesini tarixin etirafı kimi qəbul etmək olar.

Əsərdə İbrahim xanın etirafları olduqca ibrətamizdir: "Torpağıma köçürülən, qovulan ermənilərin acından, soyuqdan qırılıb tələf olmasına yol vermədim. Axırda mənə qənim kəsildilər. Xanlığı içindən kəsəyən kimi doğradılar, qanımıza susadılar. Girəvə düşən kimi öz silahlarımızı özümüzə çevirdilər. Üzdə sadiq nökərimə, arxada namərd düşmənimə döndülər. Gözlərimin qabağında hörümçək kimi tor qurdular. Sərvətim, nəfsim aldatdı məni. Qızlarını sarayıma dəvət edib qohumluq əlaqələri yaratdım. Bəd ayaqda qorudum onları. Vergilərdən azad elədim. Sonda bütün yaxşılıqlarımı xaincəsinə, nankorcasına unutdular. Ermənilik taunu işini gördü. Dövlətimi dağıtdılar. Gah farsın, gah da rusun şirin vədlərinə aldandılar". Bu, çox ibrətli bir etirafdır. Etiraf ruhun sakitliyidir. Bəs biz zaman-zaman belə etiraflardan niyə ibrət götürməmişik?!

H.Mirələmov həyatda da, yaradıcılıqda da öz "mən"inə, ideallarına sadiq bir yazıçıdır. Bunu o, hər şeydən əvvəl ulu öndər, Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin ideallarına, tutduğu yola, dövlətçlik ənənələrinə sədaqəti ilə sübut etdi.

Publisistik yaradıcılıq sahəsində yazıçının növ-

bəti böyük uğuru JZL seriyasından V.Andriyanovla birgə yazdıqları "İlxam Aliyev. Bioqrafiya prodoljaetsya" (2007) kitabı ilə bağlıdır. Bu kitabın konsepsiyasının əsasında məşhur "Ot kökü üstündə bitər" məsəli dayanır. Əslində əsrlərin sınağından çıxmış bu məsəlin fəlsəfəsini çıxış nöqtəsi olaraq qəbul etmiş müəlliflər Əliyevlərin bioqrafiyasını gen yaddaşı, qan yaddaşı istiqamətində uğurla izləməyə nail olurlar. Bu kitabda müəlliflərin publisistik üslubu daha da aydınlaşır, fəlsəfi-tarixi mülahizələrlə xeyli zənginləşir. Bunun bir səbəbi də onda idi ki, bu kitabdan əvvəl "Heydər Əliyev" kitabının mükəmməl yaradıcılıq təcrübəsi var idi. Bu, təkcə təcrübə yox, əzəmətli bir fundament idi.

"İlham Əliyev" kitabının uğurlarından biri də müəlliflərin tarixi və ictimai-siyasi mühiti dəqiq və əhatəli bilmələri idi. Onlar hələ "Heydər Əliyev" monoqrafiyasını yazanda bu mühiti tarixi və ideoloji cəhətdən səciyyələndirən külli-miqdarda faktları tədqiqatın mərkəzinə gətirmişdilər.

Fikrimizcə, kitabın uğurlu alınmasının səbəblərindən biri də bununla bağlıdır ki, müəlliflər tarixi-xronoloji prosesə sadiq qalmaqla bərabər, yeni tipli liderin formalaşmasını təmin edən siyasi-fəlsəfi amillərə xüsusi həssaslıqla diqqət yetirmişlər.

Bütün bunlarla bərabər, H.Mirələmovun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə

ziyalı və vətəndaş məhəbbəti, onun siyasi dövlətçilik ideallarına sədaqət hissi bu kitabın səmimiyyətini təmin etmişdir. "İlham Əliyev" monoqrafiyası elə doğma hisslə, elə şirin və cilalanmış dildə yazılıb ki, bu əsəri maraqlı tarixi roman kimi oxuyursan. Bu dəyərli əsərin qayəsini prezident və xalq birliyi, azərbaycançılıq və liderin Azərbaycanla vəhdəti ideyası müəyyənləşdirir.

H.Əliyev ideyalarının ən sədaqətli davamçısı, böyük varis İ.Əliyev hələ 2001-ci ildə ulu öndərin gördüyü tarixi işlərdən bəhs edərək yazırdı: "Azərbaycan rəhbərliyinin apardığı siyasət yeganə düzgün siyasətdir. Bunu həyat da sübut etmişdir. Azərbaycan çox böhranlardan şərəflə çıxmışdır. Vətəndaş müharibəsi və cəmiyyətin parçalanması təhlükəsindən qurtarmışdır. İndi Azərbaycanda sabitlikdir, güclü iqtisadiyyat vardır, demokratikləşmə yolunda çox işlər görülür. Buna görə də mən qəti əminəm ki, hazırda yeridilən xətt davam etdirilməlidir… İndiki siyasət bir çox onilliklər üçün nəzərdə tutulmuş siyasət olmalıdır. Əks halda, Azərbaycan yenə də hansısa hərc-mərcliyə məruz qala bilər".

"İlham Əliyev: bioqrafiya davam edir" kitabında da müəlliflər İ.Əliyevin bu xətt-hərəkəti necə davam etdirməsi üzərində dayanır və onun əzmkar fəaliyyətinin əsas konturlarını əks etdirməyə çalışırlar. Zəngin faktlara, analitik təhlillərə

dayaqlanan müəlliflər bir neçə cəhəti həssaslıqla ön plana çəkirlər. Onları təxminən aşağıdakı tərzdə ümumiləşdirmək mümkündür: İ.Əliyev dövlət idarəetmə təcrübələrini hələ uşaq yaşlarından H.Əliyevlə canlı təmasda mənimsəmiş, dövlətçilik mühitində formalaşmış bir şəxsiyyətdir. Hər gün H.Əliyevlə canlı ünsiyyətdə olmaq, onun qüdrətli əlinin sığalı ilə böyümək böyük səadətdir. H.Əliyev dünyada ən güclü canlı dövlətçilik akademiyası idi.

Kitabda bu ünsiyyət anlarına, ailə mühitinə xüsusi diqqət yetirilir.

Bütün bunlara Allahın İ. Əliyevə bəxş etdiyi uca boy, sərtlik və səmimiyyəti birləşdirən yaraşıqlı zahiri görkəm, şəxsiyyət bütövlüyü, sözlə əməlin vəhdəti, yüksək intellekt və natiqlik məharəti də əlavə olunur və Prezidentin portreti tamamlanır. Müəlliflər çox doğru olaraq zahiri görkəmi tamamlayan daxili əlamətlərə diqqət yetirirlər.

Təhlil və təqdimat belə yekunlaşa bilər: çevik təfəkkür, hadisələrin tarixi inkişafını proqnozlaşdırmaq bacarığı və dönməz siyasi iradə! Bu üç cəhət liderin xarakterini tam dolğunluğu ilə əks etdirir.

Kitabda diqqəti cəlb edən mühüm cəhətlərdən biri İ.Əliyevin xalqla ünsiyyət yaratmaq, özünü xalqa sevdirmək bacarığıdır. Onun idarəetmə konsepsiyasında xalqla dövlət arasında etimad mühiti yaratmaq əsas yer tutur. Bu baxımdan diqqəti

cəlb edən məsələ lider üçün çox vacib olan söz və əməlin vəhdətidir. İ.Əliyev 2003-cü ildə seçkiöncəsi demişdi: “Mən hər bir Azrəbaycan vətəndaşının prezidenti olacağam”. Bu, çox vacib şərt idi və Prezident fəaliyyəti boyu həmin şərtə əməl etdi. O, Azərbaycanın enerji resurslarını insan amilinə yönəltdi və insan kapitalına çevirməyə nail oldu. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, ölkədə ictimai-siyasi sabitliyin qorunması kitabda Prezidentin gördüyü işlər sırasında ön plana çəkilir.

İ.Əliyevin belə bir fikri var: “Yoxsul ölkədə demokratiya qurmaq olmaz!”

Azərbaycan Prezidentinin əzmkar fəaliyyəti sayəsində Respublika investisiya alan ölkədən investisiya qoyan ölkəyə çevrilib, Prezident və ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə güclənib.

İ.Əliyev H.Əliyevin böyük ənənələrini davam etdirməklə azərbaycançılıq fəlsəfəsini gücləndirməyə, onu dövlətçiliyə daha dinamik surətdə tətbiq etməyə nail oldu.

H.Mirələmov və V.Andriyanovun “İlham Əliyev: bioqrafiya davam edir” kitabı Prezident ömürnaməsini azərbaycançılıq ideologiyası konteksində yaradan və siyasi publisistikamızın bədii - fəlsəfi imkanlarını əks etdirən qiymətli monoqrafik araşdırmadır.

H.Mirələmovun on dörd fəsildən ibarət olan "Zərifə Əliyeva" (2013), on üç fəsildən ibarət olan "Missiya"(2014) kitabalarını da onun siyasi publisistikasının gözəl nümunələrindən hesab etmək olar. Birinci kitab Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, görkəmli alim, tanınmış ziyalı Zərifə Əliyevaya, ikincisi isə ölkənin birinci xanımı Mehriban Əliyevaya həsr olunmuşdur.

"Hüseynbala Mirələmovun "Zərifə Əliyeva" kitabı maraqlı bir girişlə - "Dastanın əvvəli" ilə başlanır ki, buna "Duvaqqapma" da deyirlər"[16]. Əsərin müqəddiməsi rolunu oynayan bu bölümündə gənc zabit Heydər Əliyevlə rastlaşanda iyirmi beş yaşı olan Zərifə xanımın həyat yolunun bəzi məqamları, bu iki gənci bir-birinə bağlayan dərin məhəbbət barədə səmimi məlumatlar verən müəllif "Hipokkrat və aftolmologiya" adlı birinci fəsildə Zərifə xanımla professor Umnisə Musabəyovanın tələbə-müəllim münasibətlərinə, Zərifə xanımın niyə məhz tibbin bu sahəsini seçməsinə aydınlıq gətirir.

Kitabın II,III və IV fəsilləri Zərifə xanımın doğulub boya-başa çatdığı ailə, atası, görkəmli dövlət və elm xadimi Əziz Əliyev haqqındadır. Ə.Əliyevi müxtəlif prizmalardan oxucusuna təqdim edən müəllif onu gözəl və mehriban ailə başçısı, sədaqətli və etibarlı dost, vətənpərvər ziyalı, əsl dövlət xadimi, təmiz, lə-

[16]Nizami Cəfərov. Göstərilən kitabı, s. 418


ЗАРИФА АЛИЕВА
Гусейнбала Мираламов
ЖИЗНЬ ЗАМЕЧАТЕЛЬНЫХ ЛЮДЕЙ

yaqətli və prinsipial bir şəxsiyyət kimi oxucusuna təqdim etməyi bacarır.

Kitabın V,VI, VII, VIII və IX fəsilləri iki dahi şəxsiyyətin – Heydər Əliyev və Zərifə Əliyevaların otuz bir illik birgə ömür yollarının bədii salnaməsidir.

Kitabın oxucu qəlbini ehtizaza gətirən onuncu – "Məhəbbət əfsanəsi" fəslini bir süjetli məhəbbət dastanı da adlandırmaq olar.

Əsərin "Vidalaşma", "İnsanlar üçün miras qoyulmuş nur", "Unudulmaz", "Vəzifə - Qismət – Həyat" fəsilləri Zərifə xanımın haqqa qovuşmasaından sonra onun parlaq xatirələri işığında Heydər Əliyevin və övladlarının Zərifə xanımdan sonrakı yaşam tərzinin bədii-publisistik şəkildə təqdimatı təsirini bağışlayır.

"Dastaının əvvəli" müqəddiməsi, proloqu ilə başlanan əsər "Əbədiyyət dastanı" sonluğu – epiloqu ilə tamamlanır. Nəticədə müəllif çox doğru olaraq belə bir qənaətə gəlir ki, "bu ailə böyük sevgi üzərində qurulmuşdu. Heydər Əliyev kimi iradəli bir şəxsiyyətin məhəbbətinə layiq olmaq təkcə xoşbəxtlik deyil, həm böyük bir məsuliyyətdir. Yalnız seçilmiş bir qadın belə bir şəxsin sevgisinə layiq ola bilərdi"[17]. Bu qadın isə mələk xislətli Zərifə Əziz qızı Əliyeva idi ki, Tanrı onu Heydər Əliyevə həm bir ömür-gün yoldaşı, həm vəfalı sirdaş, həm də arxa-dayaq kimi qismət eləmişdi.

Şeyxülislam Hacı Allahşükür Paşazadənin ön sözü

[17]Nizami Cəfərov. Göstərilən kitabı, s. 432

ilə açılan "Missiya" kitabı Azərbaycanın birinci xanımı, Heydər Əliyev fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətinə həsr olunmuşdur.

Kitabın "Şəcərə", "Ata və ana haqqı" fəsillərində Mehriban xanımın nəsil şəcərəsi haqqında danışan, onun həm ata, həm ana tərəfdən tanınmış ailələrə mənsub olduğunu bildirən müəllif sonrakı fəsillərdə Mehriban xanımın İlham Əliyevlə tanışlığından tutmuş indiki zamana qədər keçdiyi həyat yolu, ictimai-siyasi fəaliyyətinə sənədlərin dili ilə güzgü tutmuşdur.

Müəllifin təqdimatında Mehriban xanım, hər şeydən əvvəl, yaxşı övlad, Heydər Əliyevin ailəsinə layiq gəlin, nümunəvi həyat yoldaşı, qayğıkeş anadır.

"Sülhün səfiri", "Mənəviyyat məbədi", "Ümid qapısı", "Azərbaycan adına", "Duyğuların ritmi" fəsillərində Mehriban xanımın Azərbaycan dövləti və milləti qarşısındakı misilsiz xidmətləri barədə real faktlar əsasında bədii-publisistik dillə məlumat verib, onun bənzərsiz obrazını yaradan H.Mirələmov əsərinin on ikinci – "Millətin vəkili" fəslini Mehriban Əliyevanın Azərbaycan Respublikasının Milli Məclisindəki səmərəli fəaliyyətinə həsr etmişdir.

"Ana" adlı sonuncu fəsildə Mehriban xanımı Prezidentimizə üç övld, müstəqil dövlətimizə üç dəyərli vətəndaş bəxş edən ana kimi təqdim edən müəllif onu

"təkcə övladlarının deyil, həm də mərhəmətinə, sevgisinə ehtiyac duyan minlərin, on minlərin anasıdır", - deyə vəsf edir.

Oxucuya müraciətlə yekunlaşan "Son söz"də Mehriban xanımın şəxsiyyət və fəaliyyətinin xarakterik cəhətlərinin bir çoxu haqqında kifayət qədər məlumat verə bilmədiyini etiraf edən müəllif əsərini belə tamamlayır: "Deməli, mən Mehriban xanım haqqında son sözü deyil, hələ ilk sözü deyə bildim...

Missiya davam edir".

* * *

H.Mirələmovun publisistik əsərləri barədə fikirlərimizi yekunlaşdırarkən belə bir qənaətə gəlirik ki, bədii əsərlərində olduğu kimi, fəlsəfi-publisistik əsərlərində də o, bir qayda olaraq millətin və dövlətin maraqlarına xidmət etməyi qarşısına məqsəd qoymuş, faktları yazıçı təxəyyülünün süzgəcindən keçirərək zamanla səsləşən əsərlər yarada bilmişdir.

* * *

**Tərcümələri:** Burada bir neçə kəlmə H.Mirələmovun tərcüməçilik fəaliyyəti barədə də demək istəyirik. Bu mənada H.Mirələmov tərcümələrində bir növ özünü tapır, ruhuna, yaradıcılıq kredosuna uyğun gələn bədii əsərləri doğma dilimizə tərcümə edir. Ədibin Rusiya yazıçıları Varlam Şalamov

və Yuri Polyakovdan, Özbəkistan yazıçısı Teymur Zülfüqarovdan tərcümələri uğurlu olmaqla həm də H.Mirələmovun öz yaradıcılıq üslubuna çox yaxındır. O, Varlam Şalamovun "Su baldırğanı", "Giləmeyvə", "Apostol Pavel", "İudeya prokuroru", "Sehrkar", "Sentensiya", Yuri Polyakovun "Homo erektus və yaxud arvadların dəyişdirilməsi", Teymur Zülfüqarovun isə "Kəklikli qəfəs" əsərlərini dilimizə çevirmişdir. Bu tərcümə nümunələri ədibin "Bir gecənin sehri" kitabında toplanmışdır.

***Bakı, 2016-cı il***

*...Hüseynbalanın bu hekayələr kitabı (1986-cı ildə "Gənclik" nəşriyyatında çap olunan "Tənha durna uçuşu" kitabı nəzərdə tutulur – İ.Q.) "Tənha durna uçuşu" ilə başlayır, "Qayıtdı durnalar.." hekayəsi ilə sona yetir. Nə yaxşı ki, o durnalar, o azad quşlar yenə də doğma torpağa qayıdırlar və mən çox istəyirəm ki, hansı yanrda, hansı həcmdə yazmasından asılı olmayaraq Hüseynbalanın qələmi də zəhməti kimi doğma torpağa, doğma yurda beləcə bağlı olsun.*

***Xalq yazıçısı Elçin***

* * *

*...İndi biz Azərbaycanın tanınmış yazıçı-dramaturqu Hüseynbala Mirələmovla bir yerdəyik. Mən dostluqda dəqiqliyə, həssalığa və təmənnasız münasibətlərə xüsusi diqqət verən adamam. Bu mənada Hüseynbala Mirələmovla oxşarlığımız çoxdur. Həmfikir olduğumuza görə tale bizi qovuşdurub. Biz bir çox mövzuda fikir mübadiləsi aparanda eyni məxrəcə gələ bilirik. Hüseynbala ilə hər görüşəndə ondan müsbət enerji qəbul edirəm, mənən bəhrələnirəm.*

***Qırğızıstanın xalq yazıçısı Çingiz Aytmatov***

## YAZIÇI – MÜHƏNDİS

***Gözəl sözün gözəl xüsusiyyətləri vardır. Birincisi, onu söyləyənin könlü heç bir qızıl sərf etmədən, bir zərər görmədən fərəh və zövq duyar. İkincisi, yazanın adı söz vasitəsilə aləmdə əbədi olaraq qalır. Üçüncüsü budur ki, onun yazdıqları özgələrə də şadlıq və zövq verir.***

***Məhəmməd Füzuli***

Respublikamızda yetərincə tanınan Hüseynbala Mirələmov barədə qeydlərimi sahmana salarkən "nədən başlamalı?" sualı ilə üz-üzə durub onun bir insan kimi hansı xarakter, əlamət və keyfiyyətlərə malik olduğunu düşünəndə yadıma F.E.Djerzinskinin bacısı oğluna məktubundan aşağıdakı sətirlər düşdü: "Mən yarı nifrət bəsləmək, yaxud yarı sevməyi bacarmıram... Mən qəlbimi ya tamamilə verərəm, ya da heç bir şey verməram. Əqidəmə görə mənə acıqlanma, bu əqidədə insanlara nifrət etməyə yer yoxdur. Mən sərvətə nifrət etmişəm, çünki insanları sevmişəm... Unutma ki, mənim sayaq insanların qəlbində müqəddəs bir qığılcım vardır. Bu qığılcım, hətta tonqala da səadət gətirər".

Hüseynbalanı tanıyanlar, bu işıqlı, əqidəli ziyalı, bacarıqlı təşkilatçı, tükənməz enerji və ilham sahibi ilə oturub-duranlar yaxşı bilirlər ki, o, Azərbaycan adlı əzəli, əbədi, parçlanmaz məmləkəti bütün varlığı ilə sevən, onun vahidliyini və müstəqilliyini göz bəbəyi kimi qorumağa hazır olan bir vətəndaş, qəlbində insanlara sevgi və məhəbbətdən yoğrulmuş müqəddəs qığılcım yox, qığılcımlar gəzdirən parlaq bir şəxsiyyət, hünər və qələm əhlidir.

Hüseynbala Fazil oğlu Mirələmov 25 iyun 1947-ci ildə Lerik rayonunun Orand nahiyyəsinin qartal kimi qayalara sığınmış Nuravud kəndində anadan olub. Ayaqları bərkiyib ağlı təzə-təzə söz kəsməyə başlayanda – 1950-ci ildə ailələri Lənkərana köçüb. Göz açıb gördüyü dağ-dərə, yal-yamac şəhər mühiti ilə əvəzlənib, beləcə, uşaqlığının Lənkəran dövrü başlayıb.

1954-cü ildə Lənkəran şəhərindəki 3 N-li orta məktəbin birinci sinfinə qədəm qoyub. Dərslərindən bir qayda olaraq "əla" qiymət alıb. VII-VIII siniflərdə oxuyanda meyilini yazı-pozuya salıb, yeniyetməlik çağlarının kövrək və zərif duyğularını ağ kağızlara köçürməyə başlayıb. 9-cu sinifdə oxuyanda Lənkəran rayonlararası ədəbi birliyinə ayaq açıb, söz deyib, söz eşidib. Və günlərin birində yeddinci sinif şagirdinin ilk mətbu hekayəsi "Leninçi" qəzetində işıq üzü görüb. Beləcə, onun həyat yolu

müəyyənləşib, bir ildən sonra "Gəlin" povestindən parçalar "Leninçi"də çap olunaraq oxucuların marağına səbəb olub.

Orta məktəbin son siniflərini 2 N-li şəhər orta məktəbində oxuyan H.Mirələmov 1964-cü ildə təhsilini gümüş medalla başa vurur. Müəllimlərinin və qələm dostlarının gözlədiklərinin əksinə olaraq, sənədlərini humanitar təmayüllü ali məktəblərə deyil, Leninqrad Politexnik İnstitutuna (indiki Sankt-Peterburq – İ.Q.) təqdim edir. Dil məsələsi özünü büruzə verir. İmtahanlardan müvəffəq qiymətlər alsa da, müsabiqədən keçmir.

Bir il istehsalatda çalışan H.Mirələmov 1965-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə qəbul olunur. "Əla" qiymətlərlə oxuyur, çap etdirməyə tələsməsə də, yazıb-yaradır, qələmini korşalmağa qoymur. Yeni-yeni hekayələr qələmə alır, ədəbi prosesi izləyərək yaradıcılıq aləminin məziyyətlərini qavramağa çalışır.

1970-ci ildə ali məktəbi bitirib hərbi xidmətə çağırılan gənc yazıçı-mühəndis əsgəri borcunu yerinə yetirib Lənkarana qayıdır və buradakı 4 N-li Qaz Tikinti Quraşdırma İdarəsində iş ustası kimi əmək fəaliyyətinə başlayır. Lənkəran, Astara, Masallı, Cəlilabad, Biləsuvar rayonlarının qazlaşdırılmasında müstəsna xidmətləri olan H.Mirələmov sonrakı illərdə həmin idarədə baş mühəndis vəzifələrində


ҺҮСЕЈНБАЛА
МИРӘЛӘМОВ
Тәнһа
дурна
учушу

çalşır, irəli çəkilərək rəis təyin olunur. 1976-cı ildə, iyirmi doqquz yaşında ikən əməyi yüksək qiymətləndirilir və o, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunur.

Doğru deyirlər ki, hər yaşın, hər dövrün öz romantikası var. Bu yüksək dövlət sayğısı yazıçı Hüseynbalanı öz romantikası ilə çəkib real bir aləmə aparırdı. Ordenli rəis sübh tezdən gecə yarısınacan işçilərin arasında, o vaxtlar dəbdə olan istehsalat müşavirələrində, iclaslarda olmalı, gözündən yuxu tökülə-tökülə özünü evə yetirməli, obaşdan durub işə yüyürməlidir. İndi gəl iki daşın arasında yaz görüm, necə yazırsan!

1986-cı ildə "Gənclik" nəşriyyatı H.Mirələmovun hekayələrinin az bir qismi toplanan "Tənha durna uçuşu" kitabını kütləvi tirajla nəşr edir. Oxucuların və ədəbi ictimaiyyətin marağına səbəb olan kitaba yazdığı müqəddimədə yazışı, tənqidçi, dövlət xadimi Elçin qeyd edirdi ki, "Mən bu kiçik kitaba toplanmış hekayələri oxuduqdan sonra birdən-birə Lerik, Yardımlı dağlarını xatırladım. Lənkəranın, Astaranın, Masallının – doğma Azərbaycanımızın bu gözəl, ürəkaçan güşəsinin limonlu, narıncl ı, portağallı bağ-bağatını, qatarla sıralanan düzləri, təpələrin döşlərini bəzəyən çay plantasiyalarını xatırladım, Xəzərin heç yerdə yox, məhz Lənkəran, Astara sahillərində əsən mehini duydum... Yox, ona

görə yox ki, Hüseynbala başı qarlı o dağları, o gözəl Lənkəran bağ-bağatını təsvir etmişdir; ona görə ki, bu hekayələrdə səmimiyyət, doğma yurda məhrəmlik, hiss etdiklərini öz imkanları daxilində söyləmək, yaxşıya sevinmək ilə, xeyirxahlıq ilə o dağların, o bağ-bağatın, o dəniz mehinin arasında nəsə üzvi bir bağlılıq var".

1986-cı ildə H.Mirələmov istedadlı mühəndis, bacarıqlı təşkilatçı və təcrübəli rəhbər kimi Lənkərandan Bakıya dəvət edilərək Azərbaycan Qaz Təmir-Tikinti Trestinə rəis təyin olunur. Burada da etimadı doğruldur, əlinə imkan düşən kimi ən etibarlı və vəfalı dostları olan qələm və kağızla baş-başa verir, yazıb-yaradır.

İki il burada çalışan H.Mirələmov 1988-ci ildə irəli çəkilərək daha məsul bir vəzifəyə - Maye Qaz İstehsalat Birliyinə baş direktor təyin olunur. Bir ildən sonra isə ona Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifəsi etibar olunur. Bu yüksək vəzifədə çalışdığı zaman vəzifəsi ilə yox, insanlığı və ləyaqəti ilə hörmət qazanan, təpədən-dırnağacan iş, qurub-yaratmaq adamı olan H.Mirələmov üç il var qüvvəsini bütövlükdə dövlət və xalq yolunda sərf edir.

1992-ci ilin ortalarında heç bir ciddi səbəb olmadan tutduğu vəzifədən azad olunan H.Mirələmov İnşaat Mühəndisləri və Texniki Universitetlər-

də dərs deyir, "İnşaat fizikası" dərsliyinin müştərək müəllifi kimi müdafiəsiz-diplomsuz alim olduğunu sübut edir.

H.Mirələmov 1996-cı ildə yenidən Respublika Qaz Sənayesi sisteminə işə dəvət olunur.

A.Bakıxanovun belə bir qiymətli kəlamı var: "Təvazökar və şirin dilli adamın dostları çox olar". Ürəyi yaratmaq eşqi ilə çırpınan, ömrünü-gününü vətəni, xalqı üçün yanan çıraq edən Hüseynbalanın dostları həqiqətən çoxdur, heç şübhəsiz ki, ən yaxın dostları oxucularıdır ki, ondan yeni-yeni əsərlər, təzə-təzə kitablar gözləyirlər.

***1997-ci il***

***"Sönməyən ocaq".***

***Bakı, Mütərcim, 1997, səh. 272-275***

*...Keçirdiyim xəcalət hissindən kitabi (H. Mirələmovun 2002-ci ildə "Gənclik" nəşriyyatında çap olunmuş "Xəcalət" kitabı nəzərdə tutulur – İ.Q.) axıra qədər oxuya bilmədim. Göz yaşlarımla bacarmadım. Bu boyda dərdlə qol-qola, baş-başa yaşaya bildiyimə görə xəcalət çəkdim. Bəli, biz hamımız babalarımızın bizə əmanət verib getdiyi cənnətməkan Qarabağı düşmənə təslim edəndən sonra yenə də yaşaya bildiyimizə görə, o müqəddəs dahilərimizin ruhundan utanmalıyıq.*

***Xalq şairi Bəxtiyar Vahabzadə***

* * *

*"Xəcalət" povesti ilə Hüseynbala Mirələmov ədəbiyyatımızda yeni bir "Qarabağnamə"nin araya-ərsəyə gəlməsində ilk töhfəsini verdi.*

*...Povestdə ötən əsrlərdə Qarabağ diyarı ilə bağlı hadisələr də xatırlanır. Bunlar da əsərə tarixi bir fon verir. Həm də belə bir fikir aşılanır ki, Azərbaycan tarixində illər keçəndən sonra eyni hadisələr təzədən təkrar olunur. Tarixi yaddaşa gərək biganə və laqeyd qalmayasan.*

***Filologiya üzrə elmlər doktoru Vaqif Yusifli***

## H.MİRƏLƏMOVUN “XƏCALƏT” POVESTİ BARƏDƏ BƏZİ MÜLAHİZƏLƏRİM

Ürəyində yurd, torpaq, vətən, millət təəssübü olan hər bir Azərbaycan vətəndaşını düşündürən ən vacib məsələ, heç şübhəsiz ki, Qarabağ məsələsi və bu düyün düşmüş kələfin açılması üçün bir yolun tapılmasıdır. Məsələnin həlli barədə baxışların müxtəlifliyi, bəzən biri digərini inkar etməsi də bu istəkdən irəli gəlir və təbii ki, səbir kasası dolmaqda olan xalq hər şeydən əvvəl öz dövlətindən, dövlətə rəhbərlik edənlərdən qətiyyət tələb edir. Bu təbii istək siyasət mövzusu olmaqdan savayı, bədii ədəbiyyatın da başlıca probleminə, “nədən bu hala düşdük?” sualı isə siyasilərimizlə yanaşı, qələm sahiblərini də düşündürən bir nömrəli suala çevrilir. Yazıçı Hüseynbala Mirələmovun “Xəcalət” povestini mən məhz bu suala verilən cavab kimi qəbul edir və əsəri heç bir tərəddüd etmədən Qarabağ mövzusunda yazılan ən qətiyyətli və yaşarı sənət abidələrindən biri kimi qiymətləndirirəm.

Maraqlı, orijinal süjetə, bitkin kompozisiyaya malik olan, yarı xatirə, yarı olmuş və başa gəlmişlə-


Hüseynbala
MİRƏLƏMOV
Xəcalət

rin təsviri yolu ilə yazılmış bu əsəri yazıçı təxəyyülü ilə gerçəyin, bədiiliklə sənədliliyin harmoniyasından yaranmış əsər də adlandırmaq olar. Povestdəki hadisə və olaylar elə ölçülü-biçili, yazıçı ustalığı və səmimiliyi ilə təqdim olıunur ki, ürəyi, mənəviyyatı yerində olan hər bir oxucu bunlardan yalnız mütəəssir olmaqla kifayətlənmir, həm də gələcək mücadilələr üçün daxilən səfərbər olur.

Bir ailənin başına gələnlərin təsviri ilə başlanan əsərdə hadisələr şəxsi mənafe müstəvisindən uzaqlaşdırılaraq ümümxalq mənafeyi müstəvisinə keçirilir və oxucu belə bir sualla baş-başa buraxılır: “Kimdir günahkar, özümüz ya özgələri?”

Məntiqə görə zora məruz qalmış, doğma yurd-yuvasından perik salınmış, didərgin taleyi yaşamağa məcbur olmuş kimsə günahkar sayıla bilməz. Ancaq dərindən düşünəndə məhrumiyyətlərə düçar olmuşların, yəni bizlərin də günahı az deyil. Xəyanətkarı tanıya-tanıya ona ocağımızın yuxarı başına da yer verən də biz olmuşuq, ona kirvə deyib çörəyimizi yedirdən də.

Qədim əsrlər bir tərəfə, Babəki al dil ilə aldadıb tora salan Səhl ibn Sumbatdan üzü bəri neçə-neçə xəyanətlərini bildiyimiz, gördüyümüz halda, erməni ilə qardaş olmaq, qız verib, qız almaq kimi bəd əməldən belə çəkinməmişik. Bilə-bilə özümüzü oda atmış, su boğazımıza çıxandan sonra hay-həşirə

başlamış, gözümüzdə tiri görməyə-görməyə başqasının gözündə qıl axtarmışıq. Erməni əsrlər boyu türkü özünün düşməni elan edib körpələrini qövmümüzə düşmən kimi böyütdüyü halda, biz bir erməni "axçi"sinə, bir "malades"ə, nə bilim daha hansı milli qeyrətdən uzaq, şərəfsiz əməllərə görə unutqanlıq azarına tutulmamışıqmı? "Qurdun quyruğun kəssən qoyun olmaz", - deyən də biz olmuşuq, quyruğu, qulağı kəsik qurdu sürümüzə buraxan da!

"Xəcalət" povestindəki başlıca hadisələr uzaq keçmişdə yox, 15-20 il bundan əvvəl gözümüzün önündə baş verdiyindən biz əsəri oxuya-oxuya ya həmin hadisələrin bir növ iştirakçısına çevrilir, ya da əsərin qəhrəmanları ilə birlikdə onların yaşantılarını bir daha yaşamış oluruq. Hadisələrin mərkəzində ümumiləşdirilmiş obraz olan Vətən dayanır. O, əsər boyu müxtəlif vəziyyətlərdə təsvir olunur, hadisələrin bir çoxu onun dilindən nağıl edilir və bu obraz bir növ əsərdə bələdçi rolunu oynayır.

Taleyi əvvəldən nəhs gətirmiş Vətən mənfur Stalin rejimi – represiya dövrünün qurbanlarının Azərbaycandan uzaqlarda dünyaya gəlmiş nümayəndələrindən biridir. 1937-ci ilin yaramaz siyasəti nəticəsində, ermənіyə dayı deyən sapıözümüzdən olan baltaların fitvası sayəsində Azərbaycan adlı məmləkətin minlərlə ailəsi kimi əvvəl onun babası İsgəndərin var-dövləti əlindən alınmış, sonra isə nəsillikcə

Özbəkistana sürgün edilmişlər. Sürgündə vətənsizlik dərdi çəkən Ötərxanın dünyaya gəlmiş oğluna Vətən adını qoyması və Vətəndən bir-iki ay sonra dünyaya gələn Fəraqanənin Vətənə ad edilməsi, qürbət sıxıntıları, yad məmləktdə qəribin niskilli həyatının təsviri geniş epik lövhələrlə əks olunmasa da, müəllif az sözlə qəriblik psixologiyasının açı həqiqətlərini oxucunun gözləri qarşısında canlandıra bilir və hadisələrin məntiqindən doğan nəticə “Qəribin ən böyük dərdi vətən dərdidir” şəklində ruhumuza hakim kəsilir. Bu yerdə düşünməli olursan: deyəsən, 1937-1956-cı illər arasındakı olaylar da bizi qəflət yuxusundan oyada bilməyib. Oyatsaydı, təbii ki, 1980-1990-cı illərdəki millətimizə üzqarası olan hadisələr başımıza gəlməzdi.

1956-cı ildən sonra günahsız olduğu elan edilərək bəraət qazanan, vətənə qayıdan şəxslərdə hələ də bir xof, qorxu hissinin olduğunu, bu qəbildən olan adamlara onilliklər boyu şübhəli nəzərlərlə baxılmasını kimsə inkar edə bilməz. Bu şübhənin əsasında, təbii ki, kommunust beynəlmiləlçiliyi ideyası, fəhlə-kəndli-ateist məfkurəsinin beyinlərdə yuva qurması, bir də sovet DTK-nın qorxusu dayanırdı. Məhz bu amillər azərbaycançılıq davası ilə yaşayanların illər boyu – XX əsrin yetmişinci illərinə qədər zindanlara atılmasına, gözümçıxdıya salınmasına səbəb olmuş, Moskvanın siyasətinə xid-

mət etməyən şəxslərin nəinki ölkə, heç rayon rəhbərliyinə irəli çəkilməsinə imkan verilməmişdir.

H.Mirələmovun əsəri sovet rejimində Azərbaycan xalqının zaman-zaman haqlı ikən haqsız sayılması, sındırılmasına cəhd edilməsi, xalqda unutqanlıq kimi qorxulu bir xəstəliyin yaradılmasını göstərmək baxımından da çox əhəmiyyətlidir. Moskva Azərbaycana münasibətdə nə qədər özünü humanist göstərməyə çalışsa da, Azərbaycanın maraqlarına, onun suverenliyinə hörmətlə yanaşmasını qeyd etsə də, bu yanaşmanın dərinliklərində bir ögeylik və məmləkəti asılı şəkildə saxlamaq meyilinin olduğunu inkar etmək mümkün deyil.

Həqiqi müstəqilliyini əldə etmək, əməldə suverenliyini qazanmaq istəyən xalqı bu istəkdən çəkindirmək üçün "Qarabağ məsələsi" nin ortaya atılması, Sumqayıt, Bakı qırğınlarının törənmə səbəbləri povestdə yığcam, lakonik, inandırıcı şəkildə verilmiş, Qarabağa gələn bəlanın Moskvadan qaynaqlanması tutarlı dəlillər və ustalıqla bədii həllini tapmışdır.

"Daşnaksütyun" partiyasının XX əsrin 60-cı illərindən başlayaraq Ermənistan və Dağlıq Qarabağ ərazisində fəallaşması, Azərbaycanda yaşayan ermənilərin onlara madii və mənəvi dəstək verməsi və s. bu kimi məsələlər, gözlənilən bəlalar barəsində vaxtında tədbirin görülməməsi, təbii ki, gələcək

faciələrin törənməsinin başlıca səbəbləri olmuşdur. Müəllif bu və ya bu kimi məqamları povestdə müxtəlif vəziyyətlərin təsviri ilə oxucunun yaddaşına köçürə bilmişdir.

Povesti yaddaşımızın təzələnməsi cəhətdən də uğurlu hesab etməyimiz keçmişin məhz ən önəmli məqamlarını bizə yaşatması ilə bağlıdır. II Vazgen, Melkumyan, Muradyan, Kirokosyan, Mkrtçyan, Zori Balayan və onlara havadarlıq edənlərin psixologiyası, 1991-ci il 22 sentyabrda Rusiyanın o vaxtkı prezidenti Yeltsinin, Qazaxıstanın prezidenti Nazarbayev və Azərbaycan prezidenti A.Mütəllibovun Xankəndində olması, orada baş verən hadisələrin təsviri oxucuda belə bir qənaəti qüvvətləndirir ki, millətimizə utanc gətirən Xocalı faciəsi Azərbaycan xalqının iradəsindən asılı olmayaraq baş verməli idi və bu baş vermə əsl vətandaş yanğısı və yazıçı səriştəsi ilə oxucu diqqətinə təqdim edilmişdir. H. Mirələmov oxucusunu inandıra bilir ki, ermənini "Miatsum, miatsum" deyə bağırdan onun özü yox, ona buyruq verənlər və buyruq verənlərin əlində qulbeçəyə dönən özümüzkilər – dayıları, xalaları erməni olanlardır.

Millətin kökündən ayrı düşməsi, yaddaşının kütləşdirilməsi manqurtlaşdırılmağa doğru aparan bir yoldur ki, bu yolun yolçularını uzaqda axtarmaq əbəsdir. Onlar bizim yanımızda, gözümüzün önün-

də, H.Mirələmovun povestinin qəhrəmanları içərisindədir. Epizodik də olsa mənfur əməlləri ilə yadda qalan bir surət olan Savalan (Slavik) manqurtlaşmış azərbaycanlıların ümumiləşdirilmiş obrazı təsiri bağışlayır. İdili kişinin oğlu, anası erməni olan Savalan mayor Papazyanın əmri ilə gözünü qırpmadan doğma atasını, azərbaycan türkünü güllələyirsə, müəllifin təfsirində bu, ermənininin günahı deyil. Atanın dilindən "oğul, sənin güllən mənim cəzamdır" sözlərini oxuyan hər bir oxucu yazıçının nəyə işarə vurduğunu və bu yadda qalan, adamın hisslərini təlatümə gətirən səhnələri nə üçün yaratdığını, zənn edirəm ki, çox yaxşı anlayacaq.

Vətənin Xocalı faciəsi törədilən ərəfədə anasını, arvadı və iki körpəsini qudurmuş bir qövmün əlindən qutarmaq üçün qaçmağa cəhd etməsi, yolda mərmi qəlpəsindən həlak olmuş anasını öz əllərilə torpağa tapşırması, bu zaman hansı vəziyyətlərə düşməsi, keçirtdiyi sarsıntılar o qədər ustalıqla təsvir olunmuşdur ki, bunları həyəcansız oxumaq mümkün deyil.

"Xəcalət" povestində, bizcə, ən uğurlu məqamlardan biri, bəlkə də, birincisi hadisələrin siyasiləşdirilməklə təsviri yox, bədiiliklə təsviri və həlli, bu bədiilikdən doğan emosiyaların oxucu ruhuna hakim kəsilməsi və onu düşündürə bilmək bacarığı ilə şərtlənir. Ac, boğaz canavarla Vətən arasında həyat

uğrunda savaş, vəhşicəsinə öldürülmüş şəxslər arasında doğmaların axtarışı, "heç olmasa ölüsünü görsün" ümidilə sürünə-sürünə qətlə yetirilmişləri bir-bir çevirib sifətlərinə baxması və bu məqamlarda keçirdiyi hisslər, Vətənin daxili sarsıntıları, Xocalıdan Ağdama ölüləri daşıyan vertolyotun qarşılanması, Fərqanənin ölülər işərisində Vətəni axtarması əsərin elə səhnələrindəndir ki, bunları oxumaq da çətindir, oxuyub mütəəssir olmamaq da.

Ölülərin içərisində yaralı vəziyyətdə ölüm həddinə gəlib çıxan Vətənin müalicədən sonrakı taleyi, əslində çadır şəhərciklərində, köhnə sınıq-salxaq vaqonlarda, yarımçıq bina və yataqxanalarda yaşamağa məhkum olmuşların ümumiləşdirilmiş taleyidir. Ən ağrılısı odur ki, qaçqınlara məskunlaşdıqları yerlərdə də münasibət yaxşı deyil. Onlara bəzən yad, yabançı, qorxaq, torpağını qoyub qaçan adamlar kimi baxan buqələmunlar da var. Mənlik və şərəf hissindən uzaq olan bu cür adamların iç üzünü açmaq üçün müəllif Vətənin xəstə uşağının halını, dərman almaq üçün pul tapa bilməməsini, məktəb uşaqlarının yoldaşlarına baş çəkməyə gələrkən Dildarın keçirdiyi hissləri o qədər inandırıcı şəkildə təsvir etmişdir ki, bunları oxuyanda bir azərbaycanlı olaraq adamın xəcalət çəkməkdən başqa çarəsi qalmır.

Povestdə ürək ağrısı ilə təsvir olunan hadisələr oxucunu "Biganəliyimizin səbəbi nədir?" sualı barə-

də dərindən düşünməyə də vadar edir. Torpaqları işğal altına düşdükdən, yurd-yuvalarından didərgin salınandan sonra biri digərinə daha çox həyan olmağa borclu olan insanlar (fərq eləməz, qohum ya da yad osun) biri-birilərinin taleyinə, acı və ağrılarına seyirci nəzərlərlə baxırlarsa, bunda nə ermənini, nə də bir qeyrisini günahkar saymaq olmaz. Xəstə qızı Dildara dərman almağa imkanı olmayan Vətən "20 Yanvar" bazarında alver edən əmisi oğlu Salqarın yanına gedib ondan kömək istəmək fikrinə düşür. Lakin Salqarın Vətənin bir müddət əvvəl həmin bazara ayaqqabı almağa getmiş uşaqlarını –Dildarla Qəmxarı görməməzliyə vurub aradan "sivişib çıxmasını" yadına salaraq bu fikirdən vaz keçir. Düşünürsən: Yad yaddır, bəs doğma əmioğlu?

Vətən Qarabağda, öz doğma el-obasında hörmət sahibi olan kişilərdən, yüksək mənəviyyata, ali təhsilə, pak əxlaqa malik vətənpərvər ziyalılardan olmuşdur. Bakıdan gedən bir çox adamlar onun qonağı olmuş, çörəyini yemiş, Vətən və ailəsi – anası Yaxşı, həyat yoldaşı Fərqanə qonaqlara minnətsiz xidməti özlərinə şərəf bilmişlər. Harada qaldı həmin adamlar ki, vaxtilə can deyib can eşitdikləri, dost, qardaş adlandırdıqları bir şəxsin ailəsinin öldüsü-qaldısı, əgər qırğınlardan yaxa qurtara bilibsə, harada, nə vəziyyətdə olduqları ilə maraqlanmırlar?

Nə olub, nə baş verib? Bəlkə, heç yer üzündə Vətən adlı bir şəxs yox imiş?

Muradla (bu şəxs 1988-1990-cı illərdə dəfələrlə Qarabağda, Vətənin evində olmuş, onunla duz-çörək kəsmişdir) təsadüfən küçədə qarşılaşması, Muradın mənəvi və madii köməkliyi ilə fitrətən məğrur olan Vətənin ailəsində nisbi bir rahatlığın əmələ gəlməsi oxucunun diqqətindən yayınmır və yenə uca Tanrıya şükür etməli olursan ki, nə yaxşı məmləkət yaxşı adamlardan xali deyil, nə yaxşı duz-çörəyə, düz çörəyə qiymət verənlər, kimsəsizlərin halına acıyan, onların əzablarını öz əzabları kimi qəbul edənlər var.

Əsərdə diqqəti çəkən məqamlardan biri də millətə rəhbərlik edənlərlə millətin münasibəti məsələsidir. Dağlıq Qarabağın və digər rayonlarımızın düşmən tapdağı altına düşməsində, inkaredilməz həqiqətdir ki, XX əsrin səksəninci illərində Respublikaya rəhbərlik edənlərin günahı az olmamışdır. Povestdəki hadisələrin ruhundan və müəllifin təqdimatından doğan nəticəni məşhur bir el bayatısının son iki misrası ilə də elan etmək olar:

**Sərkərdə yaxşı olsa,**
**Heç verməz ordu bada.**

Biz əsərdən aldığımız təəssüratın bəzi məqamları barədə oxucularla fikirlərimizi bölüşmək istədik. Təbii ki, qeydlərimiz çoxplanlı, bitkin bir povestin

tam təhlili sayıla bilməz. Belə hesab edirik ki, H. Mirələmovun "Xəcalət" povestini (ad çox uğurlu seçilib) oxuyan hər bir oxucu özünə bir vətəndaş olaraq hesabat verəcək, "nədən bu hala düşmüşük?" sualı ətrafında düşünəcək, mənəvi sarsıntı, əzab və xəcalətlərdən qurtulmaq, zəbt olunmuş torpaqları əsarətdən qurtarmaq üçün ruhən səfərbər olacaqdır.

***7 fevral 2006-cı il***
***"Kredo" qəzeti, 25 fevral 2006-cı il;***
***"Sözün sehri", "Elm və təhsil",***
***Bakı – 2014, səh. 181-187***

*...“Sonuncu fateh” tarixi romandır, roman xronikadır. Bu əsərdə böyük sərkərdənin həyatının əsas məqamları, doğulub boya-başa çatdığı mühit, ailəsi, yeniyetməlik və gənclik zamanları, Buxaradakı əsirlik illəri, hərbi qulluq çağları, hakimiyyətə yetişməsi, ölkəsini yadelli işğalçılardan təmizlənməsi uğrunda qətiyyətli mübarizəsi, mühüm hərbi yürüşləri, ölkənin ərazisini genişləndirmək, dövlətin təhlükəsizliyini və qüvvətini təmin etmək məqsədilə apardığı irimiqyaslı müharibələr özünün ardıcıl bədii təsvirini tapmışdır.*

***Akademik Bəkir Nəbiyev***

* * *

*...Mən Hüseynbala Mirələmovu bu gün MDB məkanında öz zəhməti və yaradıcılığı ilə sayılıb-seçilən bir şəxsiyyət kimi tanıyıram. Sevinirəm ki, o, hər yrdə Azərbaycanı ləyaqətlə təmsil edir. H.Mirələmovun tanınmış qırğız yazıçısı Çingiz Aytmatovla yaxınlığına iki xalqın dostluq simvolu kimi baxıram.*

***Xalq yazıçısı Maqsud İbrahimbəyov***

## "SONUNCU FATEH" – TARİXİ GERÇƏKLİK VƏ BƏDİİ HƏQİQƏT

Tanınmış yazıçı-dramaturq Hüseynbala Mirələmovun imzası Azərbaycan oxucusuna yaxşı tanışdır və mən əsərləri qonşu ölkələrdə də rəğbətlə qarşılanan, həvəslə oxunan ədibin yaradıcılıq uğurlarından, bir sənətkar olaraq özünəməxsus fərdi xüsusiyyətlərindən danışmaq niyyətindən büsbütün uzağam. İndilik yazıçının konkret bir əsəri – "Sonuncu fateh" romanı ilə bağlı mülahizələrimi əsərin təqdimat mərasiminə – Hüseynbala Mirələmov işığına toplaşanlarla bölüşmək qərarındayam.

Bəri başdan bildirirəm ki, Azərbaycan tarixinə böyük saygı, ədəbi dilin və bədii üslubun normalarına tam riayət edilməklə qələmə alınan, çoxplanlı, hər bölümü tarixşünaslıq, ədəbiyyatşünaslıq, siyasətşünaslıq baxımından xüsusi tədqiqata layiq olan, tarixi gerçəkliklə bədii həqiqətin harmoniyasından yaranmış belə bir nəhəng və gərəkli əsərin bütöv mənzərəsini əks etdirən məruzə, yaxud məqalə ilə çıxış etmək imkan xaricindədir.

Tarixi mövzuda, tarixi şəxsiyyət barədə bədii

əsər yazmağın nə qədər çətin və məsuliyyətli olduğunu əsaslandırmaq üçün uzun-uzadı fikirlər yürütməyə lüzum görmürəm. İkisini qeyd etməklə kifayətlənəcəyəm. Birincisi, haqqında yazdığın tarixi şəraiti və həmin şəraitin yetirməsi olan şəxsiyyəti mükəmməl şəkildə öyrənib tanımalı, ikincisi, tarixi faktı ədəbi fakt kimi dəyərləndirib ümumiləşdirməyi bacarmalısan.

H.Mirələmov romanına baş qəhrəman kimi seçdiyi Nadirin yaşadığı qarmaqarışıq tarixi şəraiti, bir insan olaraq onun və digər qəhrəmanlarının ziddiyyətli xarakterini faktları tutuşdurub əsl həqiqəti ortaya çıxarmağı bacaran fəhmli siyasətçi və cəmiyyətşünas kimi dərindən öyrənmiş, öyrəndiklərini yazıçı idealına uyğun olaraq zərgər səliqəsi ilə ümumiləşdirərək bədiiləşdirə bilmişdir. Məhz bu iki cəhət əsərin müvəffəqiyyətini təmin etmiş, oxucu uydurma tarixin, taleyi rəvayətlərə bürünmüş qəhrəmanların yox, həqiqətə daha yaxın tarixi olayların və bu tarixin övladları olan qəhrəmanların biri digərinə bənzəməyən xarakterləri, uğrunda mübarizə apardıqları amallarla tanışlıq imkanı əldə edə bilmişdir.

Parçalanmış Azərbaycan torpaqlarının müəyyən qisminin düşmən tapdağı altında olduğu nəzərə alınarsa, çox aktual, günümüzlə səsləşən bir mövzuya həsr olunan, proloq, üç kitab, altı hissə və


HÜSEYNBALA MİRƏLƏMOV
SONUNCU
FATEH

epiloqdan ibarət olan roman əvvəldən axıra qədər oxucunu arxası ilə aparmaq gücünə malik olan tarixi həqiqətlər, biri digərindən doğan ehtiras dolu əhvalatlar üzərində qurulmuş, əsərin baş qəhrəmanı Nadir bir obraz kimi dinamik inkişafda, digər qəhrəmanlar isə janrın tələbinə uyğun olaraq müxtəlif vəziyyətlərdə oxunaqlı dil və mükəmməl bədii boyalarla oxuculara təqdim olunmuşdur. Azərbaycan da daxil olmaqla İranın 1700-1747-ci illər arası ictimai, siyasi həyatı, son Səfəvi şahları və onların aqibəti, Nadir və onunla əlaqəli məsələlər tarixi faktlar əsasında ilk dəfə olaraq əhatəli şəkildə bədii ədəbiyyata gətirilmiş, gərgin əmək sayəsində böyük ustalıq və vətəndaş yanğısı ilə monumental bir sənət abidəsi yaradılmışdır.

Tarixi olduğu kimi, həm də müasir olan romanın adı "Sonuncu fateh" olsa da, əsəri sırf Nadir şah haqqında tarixi xronika, yaxud "Nadirnamə" kimi qəbul etmək, bizcə, doğru olmaz. Romanda təsvir olunan, bədii həllini tapan məsələlər qismən Nadirin ətrafında cərəyan etsə də, burada əsası Şah İsmayıl Xətayi tərəfindən qoyulmuş Qızılbaş Səfəvi dövlətinin çöküşü, tarix səhnəsindən silinməsi, yeni bir sülalənin – Əfşarların hakimiyyətə gəlişi, on bir illik səltənəti bədii predmet kimi seçilmiş, çoxsaylı surətlər, biri digərini tamamlayan səhnələr və oxucu qəlbini ehtizaza gətirən hadisələr vasitəsi ilə yazıçı idealına uyğun olaraq bədiiləşdirilmişdir.

Müasir oxucunu tarixi həqiqətlərdən ibrət götürmək niyyəti ilə qələmə alınmış, mükəmməl struktura, bitkin süjet və kompozisiyaya malik romanın proloqunun ilk abzasının son – “Ətəyində seyrək ağaclar görünən təpənin başında bayquş aram-aram ulamağa başladı” cümləsi ayıq oxucunu bəri başdan “Ölüm, ya olum?” sualı üzərində qurulmuş bir əsərə şahidlik edəcəyindən xəbər verir. Oxucu fövrən düşünür ki, o, nə adi məişət səhnələrinin, nə sentimental hisslərin, nə də xəyal və əfsanələrlə süslənmiş cəzbedici hadisələrin şahidi olmayacaq.

Əsasında gerçək hadisələrin durduğu əsərin ilk hissələrini oxuduqca adamın gözləri qarşısında əvvəlki şöhrətini itirmiş, parça-parça olmuş bir məmləkət canlanır. Sahibsiz bir məmləkət – rəhbəri Şah Sultan Hüseyn kimki fərsiz bir məmləkət. Bu məmləkət xilaskarına hamilədir və onun gəlişini səbirsizliklə gözləməkdədir. Son Səfəvi şahlarının fərasətsizliyi və onları əhatə edən əyan-əşrəflərin şərəfsizliyi ucbatından hər bucağında mərkəzi hakimiyyətə asi olub özünü hakimi-mütləq elan edibən ölkəni ata malı kimi bölüşdürən dargözlərin, vətəni kiçildə-kiçildə böyümək iddiasında olanların arzusunu gözündə qoymağa qadir olan bir gücə, xalqı arxasınca aparıb dağılmış məmləkəti yenidən qurmağa qadir olan bir qüvvəyə, H.Mirələmovun “Fateh” adlandırdığı bir xilaskara ehtiyacı var. Bu

xilaskar isə müəllifin əsərinə baş qəhrəman seçdiyi Xorasan türkü, Əbivərdli Nadirdir.

Tarixi mənbələrdən və bir çox bədii əsərlərdən bizə tanış olan Nadir H.Mirələmovun təqdimatında uşaqlığından taleyin sərt sınaqları ilə üz-üzə gəlməli olub. Əvvəl kürktikən, qocalandan sonra isə ilxıçılıq edən İmamqulunun oğlu on iki yaşına qədər mədrəsə təhsili almasa da, müəllifin təbirincə desək, "heç əlifbeyi bilməsə" də, həyat məktəbi ona çox şey öyrədib. Təbiətin qoynunda azad yaşadığından ilk gənclik illərindən onda müstəqillik eşqi formalaşıb. Allah-taalanın seçilmiş bəndəsi kimi ona verdiyi fitri istedad, dərin zəka sayəsində daim ucalığa, liderliyə can atıb. On iki yaşında ikən qəfil leysandan, aramsız göy gurultusundan vahimələnərək uçuruma yuvarlanmaqda olan ilxını xilas edəndə də, az sonra cavanları başına yığıb oymağın mal-qarasını talan edən türkmənlərlə savaşıb apardıqlarını geri alanda da, sehrbaz kor Həsənəlinin xeyir-duasını, anasının öyüd-nəsihətini dinləyəndə də, əsirlikdə Buxaralı Qəmbərin nökəri olanda da onu yalnız bir şey düşündürüb: Allahın nəzəri üstümdədir və mən Rəbbimin köməyi ilə uca məqamlar sahibi olacağam.

Bərabərsizlik, hərki-hərkilik zəmanəsinin övladı olan, ayağı yer tutub özünü tanıyandan möhkəm xarakteri, dönməz iradəsi, hadisələrdən baş çıxarmaq, qılınc oynatmaq, at minmək bacarığı ilə tay-tuşla-

rından seçilən, xalqının qəhrəmanlıq tarixini öyrənməyə can atan Nadir bu daxili inam sayəsində ağlına və dözümünə arxalanaraq xəyalında yaratdığı gələcək arzularına çatmaq üçün yollar axtarır. Özbəklər tərəfindən yurd-yuvasının dağıdılması, el-obasının talan edilməsi, əsirlik və əsirə bəslənilən qeyri-insani münasibətlər gənc yaşlarından onda yadelliyə nifrət hissi formalaşdırıb. Anası Gövhərbəyimin dar gün üçün saxlamağı bacardığı və doğma Xorasandan uzaqlarda, Buxarada "Vətən" deyə-deyə axirət dünyasına köç edərkən oğluna təqdim etdiyi qızıllar Nadirin əsirlikdən qaçmaq, doğma el-obasına qovuşmaq arzusuna yardımçı olur. Buxaralı Qəmbərin gözəl qızı, Nadirə könül vermiş və sevgisinə axıra qədər sadiq qalmış Zəhranın həyatını təhlükəyə salıb ona, qardaşı İbrahimə və Əmirquluya köməyi sayəsində dörd illik məşəqqətli əsirlik həyatından qurtulub Xorasana, doğma ata-baba yurduna qayıtmağa müvəffəq olan Nadiri düşündürən ilk məsələ ağır günlərini yaşayan, fərsiz şahın – Sultan Hüseynin acizliyi, qorxaqlığı ucbatından sanki Allahın qəzəbinə gəlmiş Səfəvi – Qızılbaş dövlətinin bu günkü durumu və gələcək aqibəti olur.

Təbii ki, Nadir dərəbəylik qanunları ilə idarə olunan ölkəni düşdüyu səfalət və rəzalətdən qurtarmaq iqtidarında deyil. Amma Nadir başa düşür və qəti şəkildə əmin olur ki, ölkəni, ən əvvəl tez-tez

özbəklərin və əfqanların hücumlarına məruz qalan Xorasanı, Əbivərdi başıpozuq bir zümrədən təmizləmək üçün gücə və bu gücün ətrafında formalaşan ittifaqa ehtiyac var. Hələlik real güc sahibi olmayan Nadir çıxış yolunu Baba Əli bəy Əfşarın müdafiə dəstəsinə qoşulmaqda görür. İyirmi iki yaşında bu dəstəyə qoşulan Nadir tezliklə Baba Əli bəyin rəğbətini qazanır. Ən çətin tapşırıqlar ona etibar edilir və Nadirin sərkərdəlik bacarığı üzə çıxır. Baba Əli bəyin təklifi ilə onun qızı Fatimə ilə ailə quran Nadir minbaşı olmaqla yanaşı, həm də yeni bir rütbə – bəy titulu qazanır. Beləliklə, tarix onun boynuna təkcə özünü, ailəsini yox, dar mənada ətrafını, elini, geniş mənada isə məmləkətini qorumaq haqqını qoyur.

Nadirin həyatının ikinci – bəylik mərhələsi başlanır. Günü-güzəranı at belində, yerli araqarışdıranlara və qonşu işğalçılara qarşı mübarizədə keçən Nadir bəylik məqamına çatandan sonra bir müddət öz mövqeyini möhkəmlətmək, döyüşçülərin sayını artırmaq üçün könüllülər yığır, siyasi, iqtisadi, hərbi gücünü cəmləşdirib bir araya gətirmək üçün etibarlı bir qərargaha sahib olmaq qərarına gəlir və qayınatası Baba Əli bəyin tövsiyəsi ilə Əbivərddən bir qədər uzaq olsa da, alınmaz, möhtəşəm bir istehkam kimi tanınan Kəlat qalasını tutmaq qərarına gəlir. Qalanın hakimi, Nadirə qohumluğu çatan Aşur bəyin

taktiki səhvindən bacarıqla istifadə edən Nadir qansız-qadasız istəyinə çatır və gələcək planlarını həyata keçirmək üçün quldurluq, talançılıq və ümumiyyətlə, hansı yolla olursa-olsun əldə etdiyi var-dövləti qalada yerləşdirir. Ordu saxlamaq gücünə malik sərvət sahibinə çevrilən Nadir gələcək – uşaqlıqdan beynində formalaşan "mən şah olacağam" arzusundan kimsənin xəbərdar olmaması üçün özünü Qızılbaş-Səfəvi hakimiyyətinə sadiq olan bir şəxs kimi göstərir. Nadir başa düşür ki, onun bu məqamda qəndəharlı Mir Mahmud, Məşhəd hakimi Məlik Mahmud və qeyriləri kimi birbaşa mütləq hakimiyyət arzusunda olması və döyüşlərini, yürüşlərini məhz bu məqsədlə həyata keçirməsini açıq şəkildə bəyan etməsi onun şəksiz fəlakətinə və tarix səhnəsindən silinməsinə səbəb olacaq.

Əsasən, türkdilli tayfalardan ətrafına qüvvələr toplayıb bütün mübarizəsini Səfəvi hakimiyyətinin qorunmasına, parçalanmış Qızılbaş dövlətinin birləşdirilməsinə həsr etdiyini və ətrafına cəmləşənləri də buna inandırmağı bacaran Nadir bəy ələ düşmüş fürsətdən istifadə edərək saraya yol tapmağa çalışır. Hakimiyyəti idarə etmək iqtidarında olmayan Şah Sultan Hüseyni taxtdan uzaqlaşdırmaq üçün yollar axtarır. Təbii ki, Şah Sultan Hüseyni taxt-tacdan əl çəkməyə vadar etmək o qədər də asan məsələ deyil. Ölkəni nə qədər idarəolunmaz hala gətirsə belə,

o, sülalə hakimiyyətinə adət etmiş İran xalqlarının qanuni şahıdır. Onu ya cismən məhv etmək, ya da çevriliş yolu ilə hakimiyyətdən uzaqlaşdırmaq olar. Tərəfdarlarının belə "Şah" yox, "Molla" adlandırdığı Şah Sultan Hüseynin İran taxtında oturması İran üçün itirilmiş və itiriləcək torpaqlar, bir yandan Rusiya, digər yandan Osmanlı əsarəti, ən əsası isə məmləkətin dağılmaq təhlükəsi deməkdir. Lakin o, şərəfsiz və aciz bir məxluq olsa da, qanuni şahdır və İranda yaşayan əhali özünü onun təbəəsi, onu Yer üzünün Allahı hesab edir.

Ölkəni bürümüş hərc-mərclik və xaosun məntiqi nəticəsi olaraq siyasət səhnəsinə gəlmiş Nadir ağıllı adamdır və həyatın qazanında bişə-bişə çox şeylər öyrənib. O başa düşür ki, çox şeylərin gücün vasitəsi ilə həll olunduğu zamanlarda da zorun qarşısında aciz qaldığı məqamlar var. Deməli, Nadir nə qədər güclənsə də, ətrafına yeni qüvvələr toplasa da, haqqında bir xilaskar, məğlubedilməzlik simvolu kimi əfsanələr formalaşsa da, hələ ki, o, şahı taxt-tacdan devirmək qüdrətində deyil. Bəs nə etməli?

Nadirin üstündə baş sındırdığı sualı Mir Mahmud xan 1722-ci ilin 24 oktyabrında min nəfərlik əfqan ordusunu Əmənullah xanın başçılığı ilə paytaxt İsfahana yeridib Şah Sultan Hüseyni həbs, xəzinəni qəsb etməklə cavablandırır. Əxlaq sahibi olan Nadirin həyata keçirməsinə cəsarət etmədiyini

iddiası bacarığına uyğun olmayan, dövləti qurmaq yox, dağıtmaq fərasətində olan Mir Mahmud həyata keçirir. Əfqanlar arasında o qədər də hörmət sahibi olmayan iyirmi səkkiz yaşlı bu dövlətçilik və siyasət sahəsində təcrübəsi olmayan gənc az sonra xəyanətinin qurbanı olur və elə həmin il də öz əqrabalarından olan Əşrəf xan tərəfindən başı kəsilir.

Şöhrəti artıq İranın hər yerinə yayılan Nadir bəy indilik vəziyyətdən çıxış yolunu vəliəhd Təhmasib Mirzə ilə yaxınlaşmaqda görür. Düşünür ki, şahzadənin rəğbətini qazanıb qəsb olunmuş hakimiyyəti ona qaytarandan, onu hakimi-mütləq edəndən sonra arzularına bir addım da yaxınlaşacaqdır. Şahzadənin və onun ətrafının yenidən taxt-taca sahib olmağa qüdrəti olmadığını bildiyindən, Nadir bəy qanuni vəliəhdin varlığından istifadə etməklə həm əfqanları hakimiyyətdən uzaqlaşdırmaq, həm də gələcək planlarını həyata keçirmək üçün Təhmasib Mirzəni bir növ öz ovuna çevirmək üçün fəaliyyətə başlayır.

Nadirin hakimiyyət, taxt-tac uğrunda mübarizəsinin üçüncü dövrü başlanır. Artıq onun Təhmasib Mirzəyə və onun yaxın ətrafına yox, Təhmasib Mirzənin ona ehtiyacı var. Təhmasib Mirzə istəməsə belə, Nadirlə – öz fərmanı ilə cəmi Xorasana canişin təyin etdiyi və xan məqamına yüksəltdiyi Nadir xanla ittifaq bağlamağa məcburdur. Babaları

Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas kimi qüdrət sahibi olmasa da, cavan vəliəhd atası Şah Sultan Hüseyndən ağıllı və cəsarətlidir. Yaxın ətrafından, zaman-zaman onunla birlikdə olmuşlardan ehtiyat eləsə də, Nadir xanın köməyindən istifadə etməyə məcburdur.

Nadir xan – bütün varlığı ilə vətəninə bağlı olan və onu bütövləşdirməyə çalışan bu türk oğlu şah sarayında yaşamasa da, saray intriqalarından və şahların sabitqədəm olmayan xarakterlərindən kifayət qədər məlumatlıdır. O, qəti şəkildə bilir ki, şahların və həm də iradəsiz şahların ipi üstə odun yığmaq olmaz. Əmindir ki, Təhmasib Mirzə onun yardımı ilə qəsb olunmuş səltənətinə sahib durandan sonra onu özünə rəqib hesab edərək aradan götürməyə çalışacaqdır. Bəri başdan həyatını sığortalamaq, məhrumiyyətlər bahasına qazandığı məqamı qorumaq və hələlik yalnız özünə bəlli olan arzusuna çatmaq üçün o, şahı onunla saziş bağlamağa, şahı özündən asılı vəziyyətə salmağa çalışır. Ağlı və cəsarəti sayəsində rəqiblərini neytrallaşdırmağa, şahdan "Təhmasibqulu" ləqəbini almaqla İran ərazisində şahdan sonra ikinci şəxs olmağa müvəffəq olur. Bu zamandan etibarən ölkəni faktiki olaraq Təhmasib Mirzə yox, Nadir xan idarə etməyə başlayır.

İkinci Təhmasib şahın baş sərkərdəsi, günü-güzəranı dövlətin itirilmiş torpaqlarını qaytar-

maq və əvvəlki şöhrətini bərpa etməklə keçən Nadir xanın xəbəri olmadan osmanlılarla və ruslarla imzaladığı, İranın xeyirinə olmayan müqavilələr bağlaması Nadiri qəti hərəkətə keçməyə vadar edir. İllər uzunu ətrafına topladığı, müxtəlif vilayətlərdə və şah sarayında yüksək vəzifələrə təyin etdiyi sadiq adamların köməyinə və ordudakı nüfuzuna arxalanaraq Təhmasibi taxtdan salmağa və onun səkkiz aylıq oğlu Abbas Mirzəni Üçüncü Şah Abbas adı ilə taxta çıxarmağa müvəffəq olur.

Ağıl və zəhmət öz bəhrəsini verir. Özünü yeni şahın qəyyumu elan edən Nadir xan mütləq hakimə çevrilir. Gələcək arzusunun astanasında olan Nadir xan ağıllı strateq kimi məmləkətin hər yerini Səfəvi şahları dövründən qalan hakimlərdən təmizləmək qərarına gəlir. Qardaşını, oğlanlarını, qardaşı oğlanlarını, yaxın əqrəbalarını və illər uzunu ona sədaqətlə xidmət etmiş silahdaşlarını ən ali vəzifələrə yerləşdirir. Rusiya və Osmanlı dövlətləri ilə münasibətləri tənzimləməyə çalışır. Ölkədə əmin-amanlıq yaradıb atacağı son addımın gərəkli olmasına zəmin yaratmağa səy göstərir.

"Təhmasibqulu" ləqəbindən imtina edib "Vəkilüddövlə" və "Naibüssəltənə" vəzifələrini icra edən Nadir xanın şəxsi rəşadəti və ağıllı tədbirləri sayəsində ölkənin itirilmiş torpaqları və nüfuzu özünə qayıtmaqdadır. Artıq ölkə ərazisində və yaxın ət-

rafda Nadir xanla üz-üzə gəlməyə, onun qoyduğu qanunlara tabe olmamağa cəsarəti olan bir qüvvə yoxdur. İndi məscidlərdə xütbələr onun adına oxunur, zərbxanalarda sikkələr onun adına kəsilir. Nadir xan tacsız şahdır və tacın qanuni sahibi olmaq üçün elə bir addım atmaq istəyir ki, bu addım qansız-qadasız həyata keçsin, ölkədəki nisbi sakitlik pozulmasın. Nadir xan başa düşür ki, zor işlətməklə həyata keçirilən taca sahib olma nə ölkə daxilində, nə də ölkədən xaricdə səs-küysüz ötüşməyəcək.

Biz qeyd etdik ki, Nadir xan cəsarətli sərkərdə olmaqla yanaşı, həm də müdrik və ağıllı siyasətçidir. Məhz ağıl və uzaqgörən siyasəti sayəsində o, Muğanda İranın hər yerindən nümayəndələr dəvət etməklə xalq qurultayı keçirir. Qurultay nümayəndələrinin təkidi ilə taxt-taca sahib olaraq şahlığını qanuniləşdirir və Əfşarlar sülaləsinin əsasını qoyur.

Səltənətin qanuni sahibinə çevrilən, illərdən bəri arzusunda olduğunu əldə edən Nadir şah demokratik yolla hakimiyyətə gəlsə də, hakimiyyəti demokratik yolla idarə etməyin mümkünsüz olduğunu çox yaxşı başa düşür. Hələ ölkə üçün görüləsi çox işlər var və bu işlərin bir çoxunu zor işlətmədən yerinə yetirmək mümkün deyil. Sonuncu Səfəvi şahları dövründə özlərini müstəqil hakim, bəzən şah elan edənlər - dişi qana batmış canavarlar açıq şəkildə meydan sulaya bilməsələr də, məqam düşdü-

mü məmləkətin müxtəlif yerlərində ixtişaşlar törətməkdədirlər və Nadir şah bu ixtişaşları silah gücünə yatırmaq məcburiyyətindədir.

Şahlığının ilk illərini ölkənin əmin-amanlığına sərf edən Nadir şah sonrakı illərdə cahangirlik iddiasına düşür, ölkələr fəth edib böyük, lakin idarə olunması mürəkkəb olan bir imperiya qurur. Bağdad, Herat, Dehli, Türküstanda Nadir şah Əfşarın qalib bayrağı dalğalanır.

Qansız əldə etdiyi taxt-tacı qan bahasına qorumağa məcbur olan Nadir şahı ölkənin bütövlüyü məsələsi ilə yanaşı, məzhəb ixtilaflarının aradan qaldırılması da çox düşündürür. Nadir şah İslam tarixində misli görünməmiş bir islahatı həyata keçirmək istəyir. Quran, Quranın göndərildiyi sonuncu peyğəmbər bir olduğu kimi, məzhəbin də bir olması ideyasını irəli sürən, şiə və sünni fəqihlərinə məktublar göndərib onları bir məzhəb ətrafında birləşməyə çağıran Nadir şah əsrlərdən bəri müsəlmanlar arasında təfriqə yaradan məzhəb ayrıseçkiliyini aradan qaldıra bilmir və əslində, Nadir şahın qətlini tezləşdirən məsələlərdən biri də atdığı bu radikal addım olur.

Hər necə qiymətləndirilirsə, qiymətləndirilsin, Nadir şahın hakimiyyət başına keçməsində onun Səfəvi xanədanına etdiyi xəyanətin də mühüm rolu olmuşdur. Təhmasib Mirzəni devirib onun südəmər

körpəsini şah elan edəndə də, bu körpənin taleyini ümumxalq qurultayı ilə həll edəndə də Nadir şahın hərəkətlərində xəyanət elementləri var. Ancaq bu xəyanətlər zamanın tələbi ilə meydana gələn, qaçılmaz xəyanətlərdir.

Nadir şah kimi güçlü bir şəxsiyyətin hakimiyyət başında olması ölkənin xarici bir yana, məmləkətin daxilində də bir çox əyanlara, hətta Nadir şahın yaxınlarına belə sərf etmir. İntriqa yuvası olan saraylarda hörülən torlar Nadir şahın oğul qatili olması ilə nəticələnir və Nadir Rzaqulunun gözlərinə dağ çəkib onu dünya işığından məhrum etməklə, əslində ozü öz hakimiyyətinin dağlımasını sürətləndirir. Rzaqulu kimi bir cəngavər oğuldan məhrum olan Nadir şaha qarşı müxalif qüvvələrin baş qaldıracağı şəksizdir. Rəqibi uzaqda axtarmağa lüzum qalmır. Taleyin ironiyasına bax ki, dost-doğma qardaşı oğlu Əliqulu Mirzə əmisinə – bu əlinin üstündə əl olmayan fatehə asi olur. Ona sui-qəsd təşkil edir və haqlı olduğunu belə əsaslandırır ki, "Doğma oğluna qıyan, ona mərhəmət göstərməyən hökmdardan hər şey gözləmək olar".

Nadir şah qurduğu hakimiyyətin dayanıqlı olmasına nə qədər əhdi-cəhd etsə də, zaman və Nadirin qurduğu dövlət quruluşu buna imkan vermir. Özünə, min cür məşəqqətlər bahasına bərpa etdiyi, qurduğu dövlətə qarşı yadlar bir tərəfə, doğmaların-

dan gördüyü xəyanətlər Nadir şahı ölüm kürsüsünə tərəf sürükləyir. İnandıqları tərəfindən qətlə yetirilən Nadir şahın ölümü, əslində bir vaxtlar etdiyi xəyanətlərin mükafatı kimi də düşünülə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, təbii ki, belə bir irihəcmli, əhatəli, tarixi hadisələrə münasibətdə dəqiqliyi ilə çeçilən əsər barədə dediklərimiz olsa-olsa tezis xarakterli mülahizələrimizdir. Gələcəkdə əsər barədə düşündüklərimizi geniş şəkildə bəyan etmək niyyətində olduğumuzdan, indilik əsərdən aldığımız təəssüratı aşağıdakı kimi ümumiləşdiririk:

– Tarixi faktlara mümkün qədər sadiqlik prinsipi ilə yazılmış, mövzusu bütün zamanlar üçün aktual olan "Sonuncu fateh" romanı tarixi roman janrının tələblərinə cavab verən monumental tarixi-xronika, epopeyadır;

– Əsər "dövlətin bütövləşməsi, dağılmış məmləkəti necə bərpa etmək?" sualı barədə yazıçının düşüncələri, gerçək tarixi həqiqətləri özündə əks etdirən, şövq və həvəslə ərsəyə gətirilmiş sənət nümunəsidir;

– Hökmdarı, başçısı zəif olan dövlətlərin dağılması və özgürlüyünü itirib qonşu dövlətlərin köləsinə çevrilməyi tarixi zərurətdir;

– Milli birlik olmayan yerdə dirilikdən danışmaq əbəsdir;

– İdeologiyası zəif olan, zora arxalanan dövlət başçısının tarix səhnəsində uzun müddət qalıb yaratdığı səltənəti yaşatmağı mümkün deyil;

– Hakimiyyət şübhə ilə yox, qarşılıqlı inam əsasında idarə olunmalıdır;

– Başçısı Şah İsmayıl Xətayi, Mustafa Kamal Atatürk, Heydər Əliyev kimi dahi şəxsiyyətlər olan məmləkətlərdə Nadir, Mir Mahmud, Məlik Mahmud, Əliqulu Mirzə kimilər meydana gələ bilməz;

– Nadir şah nə qədər qüdrətli hökmdar olsa da, qüdrətin arxasında zülm, zor dayandığından, ölkə ədalətli qanunlarla idarə olunmadığından qurduğu hakimiyyət məhvə məhkumdur;

– Özündən sonra ləyaqətli varisi olmayan dövlət başçılarının qurduqları dövlətin ömrü onların öz ömrü qədərdir;

– Heç bir xəyanət əvəzsiz, heç bir cinayət cəzasız qalmır;

– Əbədi olan dövlət və millətdir, şəxsiyyətlər tarix səhnəsində dəyişikliklər etməyi bacarsalar belə, müvəqqətidirlər;

– Tarixi əsər olsa da, roman müharibə şəraitində olub milli birliyə ehtiyacı olan Azərbaycan cəmiyyətinə, daha çox müasir gəncliyə ünvanlanıb;

– Nəhayət, epik təsvirin mükəmməlliyi və dramatizmi ilə seçilən bu roman bir yazıçı kimi H.

Mirələmovun parlaq uğuru, Azərbaycan ədəbiyyatında hadisədir.

Bunlar "Sonuncu fateh" romanı barədə bizim düşüncələrimiz idi. Bəs siz nə düşünürsünüz?

***24 dekabr 2012-ci il***
***28 dekabr 2012-ci ildə AMEA-nın Ədəbiyyat İnstitutunda "Sonuncu fateh" romanı ilə bağlı kçirilən tədbirdə oxunmuş məruzənin mətni***
****"525-ci qəzet", 26 dekabr 2012-ci il, N 236***
****"Sözün sehri", "Elm və təhsil", Bakı -2014, s. 295-306***

**Pyeslərdən:**

*“Yalnız azad ruha malik insanların vətəni və dövləti olur!”*

***“Cavad xan”***

*“Lütfəli bəy, torpaqlarımıza yiyə çıxacağıq..... Qarabağda çaqqal kimi gödən sökən erməni məliklərini yurdumuzdan qovacağıq”.*

***“Pənah xan Cavanşir”***

*“...Allahın bizə bol-bol verdiyi bərəkətli torpaqların da, nemətlərin də qədrini bilmədik...”.*

***“Xəcalət”***

*“Belimi sındıran, oğul. Gərək sən də bunların cərgəsində olaydın. Öləndə də biləydim ki, nədən ötrü ölmüsən”.*

***“Vicdanın hökmü”***

*“...Vətənə sevgi imandandır.... Fatma, siz gərək fəxr eləyəsiniz ki, evinizin kişisi elini-obasını qorumağa gedir”.*

***“Ləyaqət”***

*“Tövbə qapıları həmişə açıqdır. Şərdən çəkinib xeyirə qulluq eləmək lazımdır.”.*

***“Cəza quyusu”***

*“Biz nə istədiyimizi yaxşı bilirik, biz kommunistik! Biz partiyamızı, SSRİ adlı böyük vətənimizi bərpa etməliyik”*

***“Miras”***

*“Hər şey Cənabi Haqqın əlindədir, ona pənah aparın”*

***“Axirətdən gələn zəng”***

## XARAKTERLƏR DRAMATURGİYASI

Tanınmış ictimai-siyasi xadim, görkəmli alim və elm təşkilatçısı, texnika elmləri doktoru, professor, ən əsası çağdaş ədəbiyyatımızı təkcə Respublikamızda deyil, ölkə hüdudlarından kənarda da ləyaqətlə təmsil edən Hüseynbala Mirələmov gözəl nasir və səriştəli publisist olmaqla yanaşı, həm də əsərləri səhnəmizdə müvəffəqiyyətlə tamaşaya qoyulan, tamaşaçı rəğbəti qazanan dramaturqdur. Hekayə, povest, roman və publisistik əsərlərində olduğu kimi, dram əsərlərində də H.Mirələmovu düşündürən bir nömrəli problem Azərbaycan xalqının varlığı, birliyi, müstəqilliyi və özgürlüyü məsələsidir. İstər tarixi, istərsə də müasir mövzularda yazdığı dram əsərlərində biz yazıçını daima xalqın, millətin istək və arzularının, adət-ənənələrinin, duyğu və düşüncələrinin tərcümanı kimi görürük.

* * *

**O**n üç şəkildən ibarət olan iki hissəlik “Gəncə qapıları” adlı tarixi dramında hadisələr XIX əsrin əvvəllərində, Azərbaycanın Rusiyanın tərkibinə ilhaq edilməsi ərəfəsində Gəncə və Tiflisdə cərəyan

edir. Ekspozisiya, bədii müqəddimə rolunu oynayan birinci şəkildə müəllif bizi Cavad xanın qısa tərcümeyi-halı ilə tanış edir və Cavad xanın yuxusunu verməklə hadisələrin əsər boyu gələcəkdə necə inkişaf edəcəyinə bəri başdan güzgü tutur. Cavad xan 1139-cu ildə qəsb edilmiş, bir tayı Helati monastrının dam örtüyünə istifadə olunmuş, digər tayı gürcü çarı Georginin dördüncü babası Davudun qəbrini qorumaq üçün monastrın Cənub hasarına bərkidilmiş *(kursiv bizimdir – İ.Q.)* Gəncə qapılarını yenidən Gəncəyə qaytarmağı qarşısına məqsəd qoyduğundan, bu fikir yuxusunda da onu rahat buraxmır. O, bu məsələyə şərəf və qeyrət məsələsi kimi baxdığından qarşılaşacağı heç bir maneə onu yolundan sapdıra bilmir. Nə Azərbaycan xanlarının ikibaşlı oyunları (Cavad xana söz verib əməldə onunla əlbir olmamaları – İ.Q.), nə ermənilərin məkrli planları, nə gürcü çarı Georginin şərtləri, nə də Qafqaza yeni ordu komandanı təyin olunmuş, qələbə qazananda "rus generalı", məğlub olanda "fərasətsiz gürcü" adlandırılan Sisyanovun – Sisişvilinin hədələri onu haqq bildiyi iş uğrunda mübarizədən çəkindirmir.

H.Mirələmovun təqdimatında Cavad xan ağıllı dövlət başçısı, uzaqgörən siyasətçi olmaqla bərabər, həm də mərd, qorxmaz, şərəflə yaşamağı bütün minnətli imtiyazlardan üstün tutan şəxsiyyətdir. Təkcə ətrafı deyil, onu uzaqdan tanıyanlar, hət-


Hüseynbala
Mirələmov
Pyeslər

ta düşmənləri belə ona dəyər verir, rəğbətini gizlətmirlər. Əsərin on birinci şəklində Sərdarın gətirdiyi xəbərə, yəni rus qoşunlarının Gəncəni işğal etməsi və Cavad xanın öldürülməsi xəbərinə Cavad xanla düşmən olan Hacı Məlikin reaksiyası dediklərimizi əyani şəkildə təsdiq edir: "Cavad xan mənim şəxsi düşmənim idi, ay bala. O bilərdi, mən bilərdim.... Adam var evdən gedir, adam var eldən... Cavad xan eldən getdi... Hamımızı yetim qoydu... Rədd ol gözümün qabağından, qaraxəbər... Gəncə xaraba qaldı... Axırımız necə olacaq, İlahi?!".

Gəncə xanlığının süqutu, Cavad xanın Ramazan bayramı ərəfəsində səngərdə, döyüş başında öldürülməsi, müəllifə görə, Cavad xanın yox, aralarında milli birlik, barışıq olmyan, necə olursa-olsun özlərini qorumağa çalışan, bir amal, əqidə, lider ətrafında birləşməyi bacarmayan Təbrizdən tutmuş Naxçıvana qədər bütün Azərbaycan xanlıqları və xanlarının faciəsidir.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərindəki Azərbaycan xanlıqlarına rəhbərlik edənlərin ümumiləşdirilmiş obrazları kimi verilən Məhəmməd xan, Vəli xan rus çarizminin "Parçala, hökm sür" siyasətini dərindən qavramağa qadir olmayan, vaxtilə general Zubovla əlaqə yaradıb birtəhər başlarını girlədikləri kimi, indi də Sisyanovla aranı sazlayıb Azərbaycanın maraqlarını qorumaq əvəzinə, özlərini qoru-

mağı düşünən buqələmun "xancığazlardır". Onlara baxmış, dramdakı gürcü knyazları daha qeyrətli və vətənpərvərdirlər. Cavad xanın Gəncə qapılarını istəməsinə onların reaksiyası birmənalıdır: Ya Gəncə qapıları verilməməli, ya da müqabilində Cavad xandan böyük güzəştlər, ən azından əsirlikdə saxlanılan gürcü əsilzadələri geri alınmalıdır. Azərbaycan xanları isə Cavad xana qohum ola-ola onu Sisyanov kimi qorxulu bir rəqiblə baş-başa buraxıb aradan çıxmağı daha münasib hesab edirlər. Təki onların canlarına və xanimanlarına sədəmə toxunmasın.

Cavad xan əsrinin övladı, zəmanəsinin yetişdirməsi olan şəxsiyyətdir. Müəllif onu birtərəfli deyil, bir neçə planda tamaşaçıya və oxucuya təqdim edir. Maraqlı məqamlardan üçünü qeyd edəcəyik. Birincisi, ermənilərin xəyanətkar və ikiüzlü olduqlarını bilə-bilə onların qohumluq əlaqələrini nəzərə alıb, Gəncə xanlığı ərazisində ixtişaş salmayacaqlarını düşünüb Astagüllə - erməni qızı Astağınla bir növ siyasət xatirinə evlənməyə qərar verən Cavad xan, Lorisin dili ilə desək, onun bacısından bir uşaq əmələ gətirmir ki, gələcəkdə ermənilər Gəncə sarayında vəzifə, var-dövlət, miras iştahına düşməsinlər.

İkincisi, onun mərdliyi, vətənpərvərliyi, ölümün gözünə kişi kimi baxa bilməsidir. Sisyanovun erməni Lorisin rəhbərliyi ilə göndərdiyi nümayəndə heyətini qapısından qovandan sonra söylədiyi mo-

noloqdan bir parçanı sitat gətirməklə tezisimizin şərhinə ehtiyac görmürük: “Ruzigar pis əsdi. Mənim iki yolum var. Ya təslim olmalıyam, ya döyüşməliyəm. Təslim olsam, ola bilər ki, arvad-uşağıma dəyməsinlər, özümə də sür-sümükdən versinlər, şərəf, namus, qeyrət getsin işinə, camaat yanında hörmətdən düşüm, xəcil olum. Döyüşsəm, əsir düşsəm, yaralansam, ya ölsəm, arvad-uşağıma aman verməzlər, nəvələrimi qılıncdan keçirəcəklər. Yox, mən döyüşməliyəm. Çünki birinci yolun əzabı ikinci yolun əzabından çoxdur. Yox, mən döyüşməliyəm! Qürurum, azadlığım üçün döyüşməliyəm! Vətənim, xalqım üçün döyüşməliyəm!”.

Üçüncüsü, Cavad xan qorxmaz bir dövlət xadimi, sərkərdə olmaqla yanaşı, həm də zəka və fəhm sahibi olan uzaqgörən siyasətçidir. Onun Sisyanova ünvanladığı “Sizi Qafqaza əcəl gətirib!” bir cümləlik məktubu və Sisyanovun aqibətinin məhz bu cür olması dediklərimizə sübutdur. Sisyanov əmrləri yerinə yetirən icraçıdır. Onun üçün millət sevgisi yox, vəzifə sevgisi önəmlidir. Onu Gürcüstanın taleyi deyil, verilmiş əmrlərin necə yerinə yetirilməyi daha çox düşündürür. İllər boyu döyüş meydanlarında gördükləri onun ürəyində mərhəmət hissini öldürüb. Portnyakin, Georgi, Loris və Nona ilə danışıqlarından, tez-tez üşüməsini dilə gətirməsindən bəlli olur ki, taleyindən o qədər də razı deyil və deyəsən, Ca-

vad xanın məktubundakı "Sizi Qafqaza əcəl gətirib" sözləri onu bərk əndişələndirib. On üçüncü şəkildə Sisyanovun Cavad xan barədə "Mən onu cismən, o isə məni ruhən öldürüb" etirafı da əsərdəki düşündürücü məqamlardandır.

Dramdakı qadın obrazları içərisində ikisi xüsusi qeyd olunmalıdır. Cavad xanın arvadı Şükufə xanım və gürcü çarı Georginin qızı Nona. Birincisi ərinə sədaqəti və qüruru, ikincisi isə Sisyanova alçalsa belə, ondan, onun hakimiyyətindən istifadə ertməklə vətəni Gürcüstana yararlı olması ilə seçilir. Bir fərd olaraq Nona ilə Sisyanova Cavad xanı nəzərdə tutaraq: "Deyəsən, siz onu cismən, o isə sizi ruhən öldürüb" deyən Şükufə xanımı yanaşı tutmaq olmaz. Lakin orası da var ki, Nonanın dilindən Sisyanova deyilən aşağıdakı sözlərin də dərin mənası var və onun Sisyanovun, bu qoca generalın başına fırfıra kimi fırlanmasının əsl səbəbi məhz bu sözlərin vasitəsi ilə üzə çıxır: "Məni ancaq Gürcüstanın taleyi, itirilmiş torpaqlarımızın aqibəti düşündürür..".

Dramın finalı ruhların – Cavad xanla Sisyanovun ruhlarının mükaliməsi ilə tamamlanır. Bakıda – Qala divarlarının önündə Hüseynqulu xan tərəfindən qətlə yetirilmiş Sisyanovun başsız bədəni ilə Cavad xanın puhunun dialoqu, əslində, xeyrin şər üzərində təntənəsi, Helati monastrından Gəncə qapılarını doğma vətəninə aparmağı qarşısına məqsəd qoyan Cavad xanın qələbəsidir.

* * *

İki pərdəli "Pənah xan Cavanşir" dramındakı əhvalatlar İran və Azərbaycan tarixinin çox keşməkəşli və ziddiyyətli  bir dövründən bəhs edir. Dramın birinci pərdəsindəki əhvalatlar, əsasən, İran ərazisində, Nadir şah Əfşarın hakimiyyəti illərində baş verir.  Ilk səhnələrdən görünür ki, "Mirzə, qanunları yaradan da mənəm, pozan da mənəm", – deyən Nadir şah doğma qardaşı Fəzləli bəyi qətlə yetirsə də, özünə qarşı düşmənçilik hissləri görməyən, Hindistan və Əfqanıstan döyşlərində qəhrəmanlıqlar göstərən qarabağlı Pənahəli bəyə sücaət və igidliyinə görə rəğbət bəsləyir və onu saray əyanları sırasında görmək istəyir. Lakin  dolayısı ilə olsa da, onun bu istəyinə qarşı durub narazılığını bildirən tapılır. Vəzir Mirzə Mehdi: "Şahım, mərd kişi çox şeyi unuda bilər, şəxsi hisslərini unudub vətəni üçün qılınc da çalar, amma Pənahəli bəyin vətəni İran deyil, Azərbaycandı, Qarabağdı", –  sözləri ilə sanki onu duyuq salmaq istəyir. Mirzə Mehdiyə özünün də türk olduğunu xatırladan Nadir şah şəxsən Pənahəli bəylə görüşmək istədiyini dilə gətirir və əgər onun şahın xidmətindən qaçmaq niyyəti olarsa, haqqında ciddi tədbir görəcəyini bəyan edir. Hiss olunur ki, saray əyanlarının, xüsusilə Məhəmməd xan, Rza xan, Cəfər xanın Pənahəli bəyə, zorla vətənindən ayrı düşmüş bu məğrur şəxsə o qədər də inamları yoxdur.

Nadir şahla Pənahəli bəyin ilk toqquşması "yaxşı xidmətinə görə sultan rütbəsi verdiyi" Qarabağ ermənisi Allahqulunun şahın hüzuruna gəlməsi və Pənahəli bəyin də ora çağırılmasından sonra başlanır. Şahın hüzurunda Cavanşir elatını min cür fitnə-fəsadla Qarabağdan İranın içərilərinə köçürməyə nail olan erməniləri, şahın fərmanı ilə Qarabağın bütün ixtiyarı əlində olan Sultan Allahqulunu xain adlandıran Pənahəli bəy nə qədər özünü saxlamağa çalışsa da, nəhayət, hisslərini büruzə verir və şahın istəyinin əksinə olaraq qardaşı Fəzləli bəyin günakar olmasını etiraf etmək əvəzinə: "Şah sağ olsun, mən qardaşımı cismən müdafiə edə bilməsəm də, cinayətkar olduğunu etiraf edə bilmərəm", – deyir. Pənahəli bəyin qanunun sərt və aliliyindən dəm vuran Mirzə Mehdiyə söylədiyi aşağıdakı sözlər isə Nadir şahın hövsələsini daraldır: "Qanun nə qədər sərt və ali olsa da, Mirzə Mehdi xan, insanın canavar olmağa haqqı yoxdur".

Bu sözlərdən sonra: "Üsyankarlıqda Pənahəli bəy qardaşından geri qalmırmış", – fikrinə gələn Nadir şah onu: "İran dövləti Pənahəlisiz də keçinər. O, mənə Rzaquludan artıq olmayacaq ki..", – deyərək aradan götürmək qərarına gəlir.

Nadir şahın onu bağışlamayacağı qənaətinə gələn Pənahəli bəy, əslində onun bütün hərəkətlərinə göz qoyub sarayı məlumatlandırmaq üçün ona

təhkim olunmuş, lakin Pənahəli bəydəki kişilik, boy-buxun və alicənablığı görəndən sonra ona vurulan Süsənbərin yardımı ilə bacısı oğlu Lütfəli bəy və digər bəylərlə birgə qaçıb canını qurtara bilir. Qaçış ərəfəsində bacısı oğluna dediyi sözlər onun amal və məqsədi, gələcək planları barədə dolğun təsəvvür yaradır: "..Bacıoğlu, vaxt itirməyək, elə bu gecə çıxaq, yol alaq Qarabağa. Vətən bizi ələ verməz, işdi, qismətimiz ölümdürsə, eyb etməz, ölək orada – Qarabağda, Cavanşir elində. Amma biz ora ölməyə getmirik. Lütfəli bəy, torpaqlarımıza yiyə çıxacağıq, düşmənlərimizi xar edəcəyik, inşallah! Nadir şahın istisinə sığınıb Qarabağda çaqqal kimi gödən sökən erməni məliklərini yurdumuzdan qovacağıq".

Dramın ikinci pərdəsindəki olaylar Qarabağda baş verir. Ermənilər hakimiyyətdədirlər, necə deyərlər: "Dərə xəlvət, tülkü bəy". Yeqan, Hüsü, Usub Nadir şahın canına dua edə-edə məlik , Allahqulu isə sultan rütbəsinə yüksəliblər. İçərilərində Şahnəzər adlı birisi də var ki, onlardan fərqli düşüncəyə malikdir. O, Nadirin iltifatına sığınmaqdansa, Qarabağda müsəlman əhalisi ilə yola getməyin tərəfdarıdır.

Pənahəli bəyin Qarabağa gəlişi onların keyfinə soğan doğrayır. Dünənə qədər "mən, mən" deyənlər indi tülkü donuna girib artıq xan kimi tanınmağa

başlayan Pənahəli xanın rəğbətini qazanmağa çalışırlar.

Dramın bu hissəsində Pənahəli xanın ailə-məişət məsələlərinə müəyyən yer ayrılsa da, əsas diqqət xanlığın qurulması və siyasi məsələlərə verilmişdir. Kərim xan Zəndlə müqavilə və birgə fəaliyyət, Fətəli xan Əfşarın acı məğlubiyyəti, Pənahəli xanın Şiraza aparılması və oğlu İbrahimxəlil xanın onun yerinə Qarabağ xanlığını idarə etməsi dramda tarixi faktlara mümkün qədər sadiq qalmaqla bədii əksini tapmışdır.

Dram haqqında qeydlərimizi yekunlaşdırsaq, belə bir qənaətə gələ bilərik ki, "Pənah xan Cavaşir" dramı Qarabağ xanlığının tarixi, təşəkkülü barədə yazılmış ilk sistemli dram əsəri olmaqla yanaşı, həm də psixoloji ovqatda olan xarakterlər dramıdır.

* * *

**H**üseynbala Mirələmovun "Xəcalət" adlı iki hissəlik dramı "Xəcalət" povestinin motivləri əsasında yazılmış, yazıçının şərti olaraq "Qarabağnamə" adlandırılan silsiləsinə daxil olan əsərlərindəndir. Cəmi altı obrazın iştirak etdiyi dramdakı hadisələr Qarabağ müharibəsindən sonrakı əhvalatlardan bəhs edir.

Pyesin birinci hissəindəki hadisələr Bakıda, qaçqınların yaşadıqları yataqxanalardan birində

cərəyan edir. Ailənin qızı, dərs əlaçısı olan Gülyaz istəmir ki, yoldaşları onların hansı vəziyyətdə və hansı şəraitdə yaşamaqlarının şahidi olsunlar. Anası Fərqanənin öyüd-nəsihəti ona təsir etmir və o, əsəbi şəkildə anasına deyir: "Bura adam gələr, ana? Bilirsən onların necə evləri var?". Bu bir neçə cümlə məğrur qızın ailəsinin durumunu büsbütün aydınlaşdırır.

Müəllifin çılpaq şəkildə obrazların dili ilə canlandırdığı bir çox məqamlar az sonra şəxsi müstəvidən ictimai müstəviyə keçirilir və bir ailənin faciəsi milli faciə kimi təqdim olunur. H.Mirələmov qaçqın taleyi yaşamağa məcbur olmuşları da, çox haqlı olaraq, iki yerə bölür: qaçqın statusundan istifadə etməklə qaz vurub qazan dolduranlar və Vətənə qayıtmaqdan başqa arzusu olmayan, aza qane olan, "Təki torpaqlarımız azad olsun",- ideyası ilə yaşayanlar.

Fərqanənin həyatın girdabında çabalıyıb düşdüyü burulğanlardan çıxmağa gücü çatmayan ərinə dediyi sözlər çox düşündürücüdür: "Çox şey olub, çox şey dəyişib, Vətən. Zülmə insan bir il dözər, beş il dözər, ta ömürlük yox ki? Bayaq qızın sinif yoldaşları gəlmişdilər. Güləş onlar gedəndən sonra zülüm-zülüm ağladı. Bilirsən niyə, Vətən? Deyir, ana, mən öldüm, yerə girdim uşaqları görəndə, axı mən istəmirdim ki, onlar bizim evimizi belə görsünlər".

Bu cümlələri oxuyandan sonra istər-istəməz düşünürsən: Kimdir günahkar? Vətən, yoxsa mühit?

Təbii ki, dramaturq kimin günahkar, kimin haqlı olduğunu birbaşa, açıq şəkildə bəyan etmir və sualın cavabını oxucu və tamaşaçının öhdəsinə buraxır.

Vətən – bu xəstə qızına dərman, ayağı yalın, əyin-başından özü utanan, uşaqalarına əyin-baş, ayaqqabı almağa imkanı olmayan kişi vüqarlı adamdır və o, onu axtarmayan, qayğısına qalmayan imkanlı dostunun, tanışının yanına xahişə gedə bilməz. Onun xəmiri şərəf acxamrası ilə yoğrulub. O, şərəfsizlərin qarşısında baş əyməyi özünə sığışdıran adamlardan deyil.

Murad da Vətən kimi qaçqındır və o, qaçqınlara verilən imtiyazlardan istifadə etməklə özünə əməlli-başlı gün-güzəran, biznes qura bilib. Onun kimliyini müəllif Vətənin sözləri ilə belə nəzərə çatdırır: "Neyləyir məni Murad? Lazım olsaydı tapardı məni, bir maraqlanardı. İndi o yuxarılarda, Allah bilir, kimlərlə durub-oturur. Həyatın dibinə düşmüş Vətən onun nəyinə gərəkdir?".

İkinci pərdədəki hadisələr yenə də eyni məkanda baş verir. Muradın çağırdığı həkim Vətənin qızını müainə edib dərman yazır və yenə də keçmişlər xatırlanır. Kərim həkimin kəlməbaşı Muradı tərifləməsi və Muradın da bundan açıq şəkildə zövq al-

ması Vətənin nəzərindən qaçmır. Öz uşağını müalicə etdirə bilməyən və bu işdə başqasının yardımını qəbul etməyə məcbur olan valideynlərin vəziyyətini ümümi bəla kimi qiymətləndirən müəllif Muradın dostanə hərəkətlərinə haqq qazandırsa da, onun yekəxanalığını da göstərməyi unutmur.

Muradın gəlişinə sevinən, lakin onun buraya öz istəyi ilə yox, Fərqanənin xahişi ilə gəldiyini biləndən sonra, elə bil, göylər Vətənin üstünə uçur və o, yenidən sarsılır. Nə Fərqanənin, nə də Muradın dedikləri, heç ailəsinin acınacaqlı vəziyyəti də onu inadından döndərə bilmir. Fərqanəyə acığı tutsa da, daxilən ona haqq da qazandırır, lakin minnətli çörək yemək istəmədiyindən Muradın onun yanında işə düzəlmək təklifini də, onun göstərdiyi maddi yardımı da qətiyyətlə rədd edir.

Fərqanə Muradı bir dost kimi evlərinə dəvət edəndə, təbii ki, məsələnin bu qədər böyüyəcəyinin fərqinə varmamışdı. O, uşaqlarını, ərini, ailəsini bu durumdan çıxarmaq üçün çarə axtarmaqda haqlı idi və Muradın da onlara yardım etmək istəməsi tamamilə ağlabatandır. Ancaq Fərqanə bir şeyi axıra qədər götür-qoy etməmiş, ərinin xarakterindəki əyilməzliyi, minnət götürməməyi nəzərə almamışdı.

H.Mirələmovun 2003-cü ildə qələmə aldığı bu dram bir çox mətləbləri özündə ehtiva edən əsərdir. Burada "Əsl insan və vətəndaş kimdir?" sulaından

başlayaraq müxtəlif problemlərlə bağlı sorğulara cavab verilmiş, Azərbaycanın sinəsində hələ ki, sağalmaz yara olan Qarabağ problemi, məcburi köçkünlərin taleyi, qaçqınlara göstərilən münasibət və onların həyat uğrunda apardıqları mübarizənin çox parlaq və real mənzərələri yaradılmışdır.

* * *

İki hissəlik "Vicdanın hökmü" dramındakı hadisələr 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində Qarabağ konfliktinin başlanmsı ərəfəsində və Qarabağ müharibəsinin ilk illərində Rusiya şəhərlərinin birində və Azərbaycan ərazisinin döyüş bölgələrində cərəyan edir.

Pyesdəki obrazlar XX əsrin 90-cı illərində yaşamış Azərbaycan və erməni vətəndaşlarıdır. Dramdakı hadisələrin əsasında bir tikə çörəkdən, rahat dolanışıqdan ötrü vətəndən avara olmağa məcbur olan Rəhim və onun kimilərinin məşəqqətli taleyi, keçirdikləri mənəvi sarsıntılar və nəyahət, Vətən – Azərbaycan darda olanda onların Vətən uğrunda şəhidlik məqamına yüksəlməsi durur.

Anasının Rəhimə yazdığı: "...Rəhim, başına dönüm, özündən muğayat ol. Urusiyətdən gələn qara xəbərləri eşidəndə ürəyimə min cür fikir gəlir. Deyirəm, bəlkə qayıdıb gələsən?! Acından ölməyəcəyik ki? Biz də hamı kimi birtəhər dolanarıq" sözlərin-

dən aydın olur ki, qürbətdə Rəhim kimi yüzlərlə vətən həsrətlisi olun azərbaycanlı var və onların nə vaxtsa, sağ-salamat Azərbaycana dönəcəyi cavabı müşkül olan bir sualdır. Cünki Rusiyadan Azərbaycana gələn cənazələrin sayı günbəgün artmaqdadır.

Bu acı həqiqəti cəsarətlə dilə gətirən müəllifin təfsirində ananın sonrakı sözlərindən aydın olur ki, Azərbaycanda yaman qarışıqlıqdır və gözlərini qan örtmüş ermənilər havadarlarının dəstəyinə arxayın olaraq torpaq iddiasına düşmüşlər. Ananın düşüncəsinə görə, Vətəninə sahib çıxmayıb onun düşmənləri olan ermənilərlə oturub-durmaq, əslində "düşmənə sahib çıxmaq", millətə arxa çevirməkdir.

Dramın baş və aparıcı qəhrəmanı Rəhim olsa da, buradakı obrazların hər birinin özünəxas xüsusiyyətləri var və bu xüsusiyyətləri açmaqla müəllif, əslində gözlərimiz qarşısında bizdən çox da uzaq olmayan səksəkəli illəri – XX əsrin 90-cı illərini canlandırmağa müvəffəq olur.

Əsərdə Azərbaycanda imkanlı bir ailədə böyüsə də, Rusiyaya üz tutan, qazandığını içkiyə, əyyaşlığa sərf edərək ailəsinə belə xor baxan, Firudin ikən dönüb Fedya olan bir obraz var. Milli satqınların ümumiləşdirilmiş obrazı kimi düşünülmüş bu tip üçün müqəddəs olan heç nə yoxdur. Aşot adlı erməni ilə dostluq edib bütün bəd əməllərini onun əli ilə həyata keçirən, onu "yağ-bal içində" bəsləyən

Fedya halalla haramın, pisliklə yaxşılığın, şərəflə şərəfsizliyin, vətənlə vətənsizliyin fərqində deyil. Bu tip milli mənliyini o qədr unudub ki, Rəhimin nəfs haqqında dedikləri, Nəsirəddin Tusidən gətirdiyi: "Nəfs elə şeydir ki, onu özbaşına buraxsan, insanı çamura batırar, yox əgər cilovlayıb istiqamət versən, fəzilət yüksəklilklərini fəth edib kamala çatarsan", – kəlamları onun tükünü belə tərpətmir.

Pyesdə şöhrətpərəstliyin qurbanı olan, lakin hələ də insanlığa mərhəmət hissini itirməyən, həyatın özündən gələn Güllü adlı bir obraz da var. Güllü – bir qız anası olan bu qadın Firudinin arvadıdır. Vaxtilə Rəhimin kasıblığı ucbatından nişanlısı ola-ola onu atıb varlı bir adamla ailə quran bu meşşan təbiətli qadın etdiyi xəyanətin cəzasını çəkməkdədir. Firudin onunla bir ömür-gün yoldaşı kimi yox, alçaldılmış, küncə atılmış əşya kimi davranır. Gözünün qabağında min hoqqadan çıxır, hətta ad günündə onu məcbur edir ki, Aşotla rəqs eləsin. Təbii ki, Aşot üçün ar-namusun qiyməti bir qara qəpik olmadığı kimi, "maddax" deyə qarşısında quyruq buladığı Fedya üçün də arvad-uşaq, namus dəyərsiz bir şeydir.

Fedyanın ad gününə dəvət olunan Rəhim özü istəmədən cinayət törədir. Aşotun sırtıq hərəkətlərinə dözməyib onu vurmaq istərkən Aşota havadarlıq edən Firudin onun bıçaq zərbəsinə tuş olur və

yerindəcə can verir. Firudinin bu cür ucuz ölümünü dramaturq Vətənə, millətə, ailəyə etdiyi xəyanətin cəzası kimi mənalandırır.

Əli insan qanına batan Rəhimi sarsıntılardan rusların ermənilərin fitvası ilə Bakıya qoşun yeritməsi xəbəri qurtarır. İndi o, törətdiyi əməl barədə yox, ölkəsində baş vermiş gözlənilməz faciə barədə düşünür və ananın aşağıdakı sözləri onun Vətənə qayıdışını sürətləndirir: “Oğlum, yağı düşmən başımıza müsibətlər gətirdi. Vətən dardadır. Düşmənin gəlişi də, gülüşü də tələdir. Qayıdın, gəlin evinizə, ürəyinizin səsinə qulaq asın, vicdanın hökmünü dinləyin. Vətən dardadır, oğul..”.

Dramın ikinci hissəsindəki hadisələr Qarabağda, hərbi hospitalda və döyüş yerlərində cərəyan edir. Hərbi hospitalın həyətində Kamranla Sabirin söhbətindən aydın olur ki, Rəhim Qarabağda, döyüşən əsgərlərin içərisindədir.

Kamranla Sabirin mükaliməsindən o da aydın olur ki, “Raqozin” bazarında Rəhimlə birgə alver edən, onunla bir otaqda kirayənişin olan Əhəd də Qarabağ döyüşçülərinin arasındadır və ağır döyüşdə ayaqlarını itirən bu igid Bakıya yola salınıb.

Müəllif bu məqamda bizi başqa bir obraz – Aslan həkimlə tanış edir. Aslan həkim Azərbaycanın qəhrəmanlıq tarixinə bələd olan işıqlı bir adamdır. Ölümü gözünün altına alaraq döyüş bölgəsindən ay-

rılmağı xəyalına belə gətirmir. Ən böyük arzusu oğlunu Vətənin müdafiəçiləri sırasında görmək olan, lakin bu arzusu ürəyində qalan atanın sağalmaz yarası oğul itkisindən yaranan yaradır ki, dramaturq bunu onun dilindən aşağıdakı şəkildə bildirir: "Belimi sındırdın, oğul. Gərək sən də bunların cərgəsində olaydın. Öləndə də biləydim ki, vətən yolunda ölmüsən".

Dramda Aygün və Rəhim xətti xüsusi həssaslıqla işlənmişdir. Hisslərini heç kəsdən, hətta atası Aslan həkimdən belə gizlətməyən Aygünlə Rəhim arasında olan söhbətlər, Aygünün aman-zaman bircə qardaşının 1990-cı ilin 20 yanvarında Rusiyanın şəhərlərinin birində öldürülməsini dilə gətirməsi və Rəhimin keçirtdiyi həyəcanlar dramın psixoloji ovqatını daha da gücləndirir.

Müəllif Rəhimin ömrünün son anlarını yenə də döyüş meydanında təsvir edir. Azərbaycan kəndlərini xaraba qoyan, südəmər körpələrə belə qıyan Akop və Karo meşədə bir ağacın altında yeyib-içir, üst-başı cırıq bir azərbaycanlı qız onlara qulluq edir.

Bu səhnədə birinci hissədən tanıdığımız, Firudinin özünə dost, qardaş hesab etdiyi İrəvan erməsi Aşot erməni silahlı quldurlarının komandiri kimi təqdim olunur. Onun iyrənc, insanlığa üzqarası hərəkətlərini sənətkarlıqla açan müəllif vaxtilə Firudinin sayəsində Rəhimin əlindən qurtarmağı

bacaran bu əclafı yenidən Rəhimlə üz-üzə gətirir. İllərdən bəri qisas alovu ilə alışıb-yanan Rəhim qıza təcavüz etmək istəyən bu qansız erməni quldurunu da, onun yoldaşlarını da məhv edir.

Qeyri-bərabər döyüşdə igidcəsinə şəhid olan Rəhim əsl qəhrəman kimi gözlərimiz önündə canlanır. Oxcu və tamaşaçı inanır ki, Rəhim kimi oğulların qanı yerdə qalmaz və Azərbaycan xalqı məhz Rəhim, Kamran, Aslan, Aygün, Sabir, Əhəd kimi Vətən fədailərinin sayəsində qəsbkar ermənilərin izini bu torpaqdan siləcək, onlara gorlarını öz əlləri ilə qazdıracaqlar.

Lirik-psixoloji üslubda yazılmış və yazıçının Qarabağ mövzusunda yazdığı əsərlər silsiləsinə daxil olan bu dramı, heç şübhəsiz ki, müəllifin dramaturgiya sahəsindəki uğurlarından biri kimi qiymətləndirmək olar.

* * *

**F**aşist Almaniyası üzərində qələbənin 60 illiyinə həsr olunmuş iki pərdəli “Ləyaqət” pyesi H.Mirələmov dramaturgiyasının ən möhtəşəm nümunələrindən biridir. Hadisələr XX əsrin ortalarında, 1941-1948-ci illərdə baş verir. Müharibə və insan taleyinin baş mövzu kimi seçildiyi əsərin birinci pərdəsində müəllif bizi Nahidə, Mirkərim ağa, Səlbi arvad, Fatma, Ziyad obrazları vasitəsi ilə, əsasən,

arxa cəbhənin problemləri, müharibə meydanlarından uzaqlarda yaşayanların da, əslində müharibənin içində olmaları, Ümidin nə üçün bronu ola-ola könüllü olaraq cəbhəyə, döyüşən ordu sıralarına can atmasının səbəbləri ilə tanış edir.

Əsərin baş qəhrəmanı Ümid körpə vaxtlarnda ata-anasını itirmiş, nənəsi Fatma arvadın himayəsi ilə böyüyüb ali təhsil almış gənc həkimdir. Əsərin əsas ideya daşıyıcılarından biri kimi düşünülmüş müdrük Mirkərim ağanın tərbiyəsi ilə böyüyən yetim qız Nahidə ilə ailə quran, xoşbəxtliyin ləzzətini təzə-təzə dadmağa başlayan Ümid iki hissin arasında seçim etmək məcburiyyəti qarşısındadır. Həkim olduğu üçün ona qanuni möhlət – bron verilib. O, müharibəyə getməyib qalıb arxa cəbhədə xalqa xidmət edə bilər, lakin ölkənin darda olması onu qətiyyən rahat buraxmır, ərizə verib cəbhəyə yollanmaq qərarına gəlir. Onun bu hərəkəti ailəsində narazılıqla qarşılansa da, Mirkərim ağa: "Yaxşı yol, Umud, Allah köməyin olsun. Vətənə sevgi imandandır.... Fatma, siz gərək fəxr eləyəsiniz ki, evinizin kişisi eli-ni-obasını qorumağa gedir", – sözləri ilə ona haqq qazandırır.

Sıravi əsgər kimi cəbhəyə yollanan, döyüşən ordu sıralarında "Doktor Axundov" kimi məşhurlaşıb mayor rütbəsinə qədər yüksələn Ümid müəllif ideyalarının daşıyıcısı olan obraz kimi düşünülmüş-

dür. Nahidə və Mirkərim ağadan gələn məktubların arası kəsiləndə, Ziyadın Nahidə ilə bağlı müəmmalı məktubunu alanda haldan-hala düşsə də, dərdini Azərbaycan xalq mahnılarını oxumaqla azaltmağa çalışır və pessimizmə qapılmır. Bütün bu gözlənilməz hadisələrə müharibənin fəsadları kimi baxan Ümidin həm cəbhə həyatı, həm də müharibə qurtarandan sonra Vətənə qayıdışı, oğlu Nahidlə, Mirkərim ağa ilə, nəhayət Ümidin şərəf və layəqətini, ciyərparası Nahidin həyatını qorumaq üçün adını dəyişib Hicran qoyaraq "qeybə çəkilən" Hahidə ilə görüşü və hər şeyi olduğu kimi başa düşməsi, sözün həqiqi mənasında "Ləyaqət" dramında ləyaqətlə yaradılmış bənzərsiz və təkrarolunmaz səhnələrdir.

Fatma nənənin, Nahidənin düşüncələrini və həyəcanlarını, hərbin Səlbi arvadın həyatında əmələ gətirdiyi nisgili çox böyük ustalıq və bədiiliklə əsərdə verməyi bacaran müəllifin təqdimatında müharibə bəşəriyyəti fəlakətə sürükləyən qanlı oyundan başqa bir şey deyil. Fatma nənənin ölümü, Səlbi arvadın havalanması, Nahidənin məcburən öz isti ocağından, Ümidin yadigarı Nahiddən əl çəkib bir növ "qeyb olması", əslində fərdlərin deyil, bəşəriyyətin faciəsi kimi düşünülmüşdür. Bütün qohum-əqrabası faşist taununa tuş gələn, doğulduğu kəndi yer üzündən silinən Kolyanın ağrılarını da dediklərimizə əlavə etsək, mənzərə tam aydınlaşar.

Müharibə təkcə ölüm-itim səhnəsi deyil, həm də sınaq meydanıdır. Bu meydanda Ziyad kimi buqələmunların ortaya çıxıb meydan sulaması, murdar nəfsinə görə hər cür alçaqlığı özünə rəva görməsi təbii haldır. Ümidin cəbhəyə gedişini arzusuna – vaxtilə sevdiyi, ancaq rədd cavabı aldığı Nahidəyə qovuşmaq üçün bir vəsilə hesab edən Ziyad kimilər dünən də var idi, bu gün də var və sabah da olacaq. Bu təbiətin qanunudur. Pis olmayan yerdə yaxşının qədri bilinməz.

Ziyad fitnə-fəsad, şər-şəbədə yuvasıdır. Üzdə mələk, daxildə kələk olan bu şəxsdən də müəllif mərhəmətini əsirgəmir. Ölüm ayağında ikən etdiyi pisliklərə görə tövbə edib Ümidə məktub yazan bu bədbəxtin aqibətini gözlərimiz qarşısında canlandıran müəllif, bizcə, belə demək istəyir: "Ey bəşər övladı, tövbə qapıları hər zaman açıqdır. Dünyaya nə üçün gəldiyini, axirət gününün əzabını düşün. Əlindən yaxşılıq gəlmirsə, heç olmasa pislik eləmə!".

"Ləyaqət" pyesini insan ləyaqəti, humanizm, məhəbbətin əbədiliyi və ölməzliyi haqqında dastan da adlandırmaq olar. Bu əsərdəki hər obrazın - Ümiddən tutmuş Səlbi arvada qədər öz aləmi var və bunlar küll halında əsərin monumentallığını təşkil edir.

* * *

Fəlsəfi-psixolji ovqatda yazılmış "Cəza quyusu" dramı H.Mirələmovun müasir mövzularda qələmə aldığı əsərləri ilə yaxından səsləşir. Əsərin qəhrəmanları müasirlərimiz olan və az qala hər birinin prototipini tanıdığımız insanlardır.

Əsəri oxuyarkən XX əsrin 80-90-cı illəri, meydan hərəkatı, öz torpaqlarını işğal edən bir ordunun (Sovet ordusunun Bakını işğal etməsinə bundan artıq ad verməк olmaz – İ.Q.) Bakıda və Respublikamızın digər bölgələrində törətdiyi qanlı cinayətlər, Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 20 Yanvar hadisələri, kütləvi narazılıqlar dalğası üzərində hakimiyyətə gəlmiş adamların aqibəti, Qarabağ uğrunda döyüşlər və s. bu kimi hadisələr birər-birər gözümüzün önündə canlanır.

Hadisələrin təqdimi üçün maraqlı ədəbi-bədii priyomlar seçən, hər bir obrazı öz dilində danışdırmağı bacarıb onların daxili aləmini, iç dünyasını məharətlə açan müəllif fikrini bütün əsər boyu dörd əsas tezisin – "Haqq incəlsə də üzülməz", "Bağışlamaq böyüklərə, qisas almaq cılızlara xasdır", "Tövbə qapıları həmişə açıqdır" və "Vətəni sevmək imandandır" – üzərində cəmləyib mövzunun və janrın verdiyi imkanlar çərçivəsində duyğu və düşüncələri ilə bizləri tanış edir.

Əsərdə nə təsadüfi obraz, nə də təsadüfi hadisə yoxdur. Respublikamızın son 30-35 illik tarixinin bu və ya digər problemlərinin bədii inikası olan dramdakı başlıca hadisələr daha çox Nurlan və Yavuz bəy obrazlarının təqdimi ilə oxucu və tamaşaçıya çatdırılır.

Nurlan XX əsrin 90-cı illərində əlində olan bütün imkanlardan istifadə edərək cəbhə bölgələrinə yardım aparan, lazım gələndə əlinə silah alıb düşmənlə döyüşən, Vətənə xidməti hər cür rəsmi vəzifədən üstün tutan qeyrətli Azərbaycan vətəndaşlarının ümumiləşdirilmiş obrazıdır. O, ağıllı, mərd, düşmənə qarşı nə qədər amansız olsa da, öz vətəndaşlarımıza qarşı ürəyində kin-küdurət və həsəd olmayan bir ziyalıdır. Ona pislik edəni belə bağışlamağı bacaran bu xeyirxah insan üçün millətə, vətənə olan sevgidən böyük sevgi yoxdur. Etdiyi yaxşı əməllərdən ötrü heç bir ödül, mükafat, "çox sağ ol" gözləməyən bu imanlı və inamlı vətənpərvər insan müəllif ideyalarının birbaşa ədəbi məhsulu olsa da, hardasa həm də avtobioqrafik obraz xarakteri də daşıyır və H.Mirələmovun tərcümeyi-halına az-çox bələd olanlar, yəqin ki, bizimlə razılaşacaqlar.

Xırda, cılız hisslərə, yarımçıq işlərə Nurlanın həyat idealında yer yoxdur və müəllif bu obrazın şəxsində insanlığa və vətəndaşlığa lazım olan bir sıra cəhətləri ümumiləşdirmişdir ki, onların bəzilərini qeyd edirik.

Birincisi, vəzifə, mandat Nurlan müəllim üçün qazanc mənbəyi, şəxsi istəklərini həyata keçirmək üçün vasitə deyil, cəmiyyətə və dövlətə xidmət missiyasını şərəflə yerinə yetirməyə yol açan imkandır.

İkincisi, o, dostlarına, keçmiş iş yoldaşlarına, kəsdiyi çörəyə, uğrunda mübarizə apardığı ideala axıracan sədaqətli qalmağı bacaran, milli qeyrətə və mənəviyyata malik olan ziyalıdır.

Üçüncüsü, iqtidarda, yaxud müxalifətdə olmasından asılı olmayaraq o, haqqın, ədalətin tərəfdarıdır.

Dördüncüsü, hadisələrin gedişindən baş çıxarmağı bacaran, hissin yox, ağılın, məntiqi təfəkkürün gücünə inanan, düşünərək qərar verməyə üstünlük verən uzaqgörən şəxsdir.

Beşincisi, insanları sevən, özündən sonra rəhmətlə xatırlanacaq işlər görməyə çalışan iman əhli və Allah adamıdır.

Altıncısı, o, söz qəhrəmanı yox, gördüyü yaxşı işlərdən zövq alan əməl qəhrəmanıdır.

Nurlan müəllimdən fərqli olaraq, Yavuz bəy meydan qəhrəmanıdır və 90-cı illərin məlum hadisələrindən, hakimiyyət dəyişikliyindən sonra yüksək vəzifəyə təyin olunmuş şəxsdir. Ürəyində xeyirlə şərin mübarizəsi gedən bu şəxsə nə Vətən, nə millət xaini demək olmaz. O, sadəcə, tutduğu vəzifəyə layiq olmayan, idealına sonacan sadiq qalmağı bacar-

mayan adamdır. Uğura, Nurlana, Niluferə, Mirheydər ağaya, hətta arvadı Bircəxanıma və bacısı oğlu Təhsinə olan münasibətində də ikilik var. Ürəyində Vətən sevgisi olsa da, qəlbindəki şeytanın vəsvəsəsi ucundan canını Vətən yolunda fəda etmək istəyində olan insandan səriştəsiz bir karyeristə çevrilən Yavuz bəy hakimiyyətə gəlib idarəetmə işində səriştəsi olmayan, getdikcə ictimai mövqeyini şəxsi ambisiyalarına qurban verən ümumiləşdirilmiş obrazdır ki, onların çoxunu dramaturq kimi, biz də tanıyırıq.

Mənəviyyat cəhətdən nə qədər aşınmaya məruz qalıb kiçilsə də, müəllif ona mərhəmətini əsirgəmir. Bir sıra məqamlarda, xüsusilə arvadı Bircəxanım və bacısı oğlu Təhsinlə söhbətində onun iki hissin arasında çabaladığını görürük. Təbii ki, heç bir əməl cəzasız qalmadığı kimi, Yavuz bəyin də əməlləri cəzasız qalmır. Ürəyindəki şərin fitvası ilə törətdiyi qanunsuzluqlar zəli olaraq boğazından yapışır və nəhayət, o, qazdığı cinayət quyusuna düşür.

Pyesin finalında onun tutduğu əməllərindən peşman olduğu aydın şəkildə hiss olunur. Lakin müəllifin qənaətinə görə, tövbə qapıları hər zaman açıq olsa da, sonrakı peşmançılıq fayda verməz.

Dramdakı "Ləyaqət" pyesindəki Mirkərim ağanı xatırladan Mirheydər ağa, hardasa az-çox "Vicdanın hökmü"ndəki Rəhim müəllimə bənzəyişi olan Uğur və Rəsi, məhəbbət, vəfa və məğrurluq rəmzi

olan Nilufər, qardaş dağı ilə yaşasa da, gələcəyə böyük ümidlərlə baxan Rəmzi, Uğur və Nilufərin ömürlərinin davamı kimi düşünülmüş Balaca Uğur və Balaca Nilufər Azərbaycan reallıqlarını əks etdirən parlaq bədii obrazlardır.

Əsərdəki meşşan təbiətli Bircəxanım da, milləti düşməndən qorumaq əvəzinə oğurluğa, çapovulçuluğa qurşanan, millətə üzqarası olan Təhsin və Tayfur da uydurulmuş obrazlar deyil. Belələri Qarabağ savaşında da var idi, indi də var və gələcəkdə də olacaq.

Erməni xisləti oxucu və tamaşaçıların diqqətinə epizodik obrazlar olan Qurgen və Raçikin timsalında təqdim olunmuş, ölçülü-biçili ədəbi detallarla onlara oxucu və tamaşaçılarda nifrət hissi formalaşdırılmışdır.

"Cəza quyusu" dramında Qarabağ uğrunda savaşlarda itirdiklərimiz, buna bais olan başlıca səbəblər barədə yazıçının gəldiyi qənaətlərlə yanaşı, həm də dövləti necə yaşatmalı və millətə necə xidmət etmək haqqında düşüncələri ilə də tanış oluruq.

Nəhayət, bu dramdan çıxarılan nəticəni bir cümlə ilə belə ümumiləşdirə bilərik: "Uca Tanrı heç bir yaxşılığı mükafatsız, heç bir pisliyi də cəzasız qoymur" və məcazi məna daşıyan "Cəza quyusu" adı da məhz bu anlamda başa düşülməlidir.

* * *

H.Mirələmovun "Miras" adlı iki hissəlik dramatik komediyasındakı hadisələr XX əsrin 90-cı illərində Bakıda baş verir. Həmin hadisələrdən bizi ayıran zaman məsafəsi o qədər də uzaq olmadığından və biz həmin illəri yaşamış insanlar olduğumuzdan, qəhrəmanların əksəriyyəti bizə tanış gəlir və bu obrazların yaşam tərzi, dünyagörüşü, duyğu və düşüncələri bizə o qədər də yad deyil. Əsərdə müzakirə obyektinə çevrilən məsələ, əslində mənəviyyatla bağlı olan sosial problemlərdir və müəllif problemi bir ailə və bu ailəyə yaxın olan bir çevrədə oxucu və tamaşaçıların gözləri qarşısında canlandırmaq niyyəti güdmüşdür.

Dağılmış Sovet quruluşunu yeni bir ictimai quruluş əvəz etsə də, köhnə quruluşun atributları və tərəfdarları, həmin quruluşun təzədən bərqərar olmasına sidq ürəkdən inananlar hələ də var və bunlara elə gəlir ki, təzədən bir ideya ətrafında birləşməklə quruluşun bərpası mümkünür. Bu adamların heç birini – Nemətulla, onun əqidə dostları olan Həqiqət, Batelman, Svetik və Yazıçını qınamaq olmaz. Onlar Sovet quruluşunun yetirmələri və əqidələrinə sonacan sadiq olan kommunistlərdir. Əslində Azərbaycan cəmiyyətinə yetişməmiş, elmi-nəzəri və iqtisadi cəhətdən tam əsaslandırılmamış bir hadisə kimi daxil olan müstəqillik və Azərbaycan xalqının hə-

yatında kifayət qədər ziddiyyətli dövr olan XX əsrin 90-cı illərindəki hadisələri həzm etmək, doğurdan da, çətin məsələ idi. Həmin illərin Azərbaycan adamının əksəriyyəti SSRİ kimi nəhəng bir ölkənin necə süqutu barədə kifayət qədər məlumata malik olmadığı kimi, sovet qanunları ilə sosializm sistemində yaşamağa adət etdiklərindən, yeni quruluşun qanunları və yaşam tərzini də çətinliklə qəbul edirdilər. Onların bir çoxuna bu hadisələr yuxu kimi gəlir, bir çoxları yeni dövrün yeni qanun və ictimai münasibətlərinə uyğunlaşsalar da, əksəriyyəti "Olum, ya ölüm?" sualı ilə baş-başa qalmışdı. Axar suyun bir daha geri qayıtmayacağına inananlar dolanışıq, həyatda özlərini təzədən təsdiq etmək üçün yollar axtarır, bəziləri ümidsizləyə qapılaraq həyatdan əlini üzür, digərləri – "Miras"ın qəhrəmanları kimi "Bəlkə də qaytardılar" (C.Məmmədquluzadə) ideyası ilə yaşayırdılar. Yenə də təkrar edirik: Bu adamların heç birini qınamaq olmaz və öz hərəkətlərində onların hər biri haqlıdır.

H.Mirələmovun dramını məhz dövrün bədii salnaməsi olmaq baxımından qiymətləndirir, düşünürük ki, həmin illərin ictimai-siyasi durumu, insanlar arasında olan münasibətlər, həyatın burulğanlarında çabalayan insanların psixoloji sarsıntılarını əks etdirmək baxımından, əsər daramaturgiyamızda tamamilə yeni hadisədir.

Əsərdəki hadisələrin ağırlıq mərkəzində İnqilab və onun ailəsi dayanır. Bir vaxtlar Mərkəzi Komitədə şöbə müdiri vəzifəsində işləyən, cəmiyyətdə, tay-tuşları arasında nüfuz sahibi olan bu partiya funksioneri indi sıxıntılar içərisindədir və öz ev-eşiyini sataraq atası Nemətullanın qoltuğuna sığınmağa məcbur olub. Bunun, bu vəziyyətin meydana gəlməsi iki səbəblə bağlıdır. Birincisi, İnqilab yeni quruluşun yeni qaydaları ilə yaşamağı bacarmır, ikincisi, o, öz evində arvadı Nərgizin və oğlu Azikin yanında mütləq söz sahibi deyil. Onun evini, ailəsini, əslində özü yox, meşşan təbiətli arvadı idarə edir.

Ailənin yeganə övladı olan Azik Amerikada gün keçirir və Nərgiz ərini məcbur edir ki, İnqilab hansı yolla olursa-olsun atasının evini satıb pulunu Amerikaya – guya orda iş qurmuş oğluna göndərsin. Bundan sonra özləri də Amerikaya gedib orada yaşasınlar. Bu isə bədii mətndən göründüyü kimi, mümkün deyil. Əvvəla, ona görə mümkün deyil ki, ev Nemətullanın adınadır və onlar əvvəlki evlərini satıb pulunu oğlanlarına göndərdikdən sonra bu evə sığınmışlar və evi satmağa, girov qoymağa onların hüququ yoxdur. İkinisi, İnqilab gedib yad ölkədə kiminsə qabağında hambal kimi işləmək, restoranlarda qab yumaq, müəyyən obyektlərdə keşikçi olmaq fikrində deyil. Çünki o başa düşür ki, onun kimilər Amerika kimi bir ölkədə fəhlə olmaqdan başqa bir

işə yaramazlar. Digər bir cəhət də bundan ibarətdir ki, arvadından fərqli olaraq, İnqilabın ürəyində vətən məhəbbəti var və o, qərib ölkədə vətən həsrəti ilə yaşaya bilməyəcəyini yəqin bilir.

Nərgiz ürəyində baş qaldırmış qarmaqarışıq hisslərin əsirinə çevrilib. Bir tərəfdən uzaq Amerikanın dəbdəbəli, parıltılı həyatı ona "gəl-gəl" deyir və o, əri vəzifəsini itirdikən sonra özünü və ailəsini cəmiyyətdə təklənmiş, artıq adam hesab edir, başqa tərəfdən isə fərasətsiz oğlunun girovuna çevrilərək onu düşdüyü vəziyyətdən qurtarmaq üçün bütün iyrənc əməllərə - qaynatasının icasəsi olmadan onun evini satmağa, ərini zorla vətəndən didərgin salmağa, yad ölkədə qul kimi işlətməyə və özü də işləməyə razıdır. Təki oğlunun ürəyi, könlü xoş olsun. Oğlunu vətənə dəvət etməkdənsə, onu qürbət avarası etmək bu ana üçün daha sərfəli görünür. Əsərin finalında Azikin tutduğu əməllərdən peşman olub, yad məmləkətdə nökər kimi yaşamaqdansa, gəlib öz doğma torpağında insan kimi yaşamağa qərar verməsi onun onsuz da əvvəldən puç olmağa məhkum olan bütün planlarını alt-üst edir.

Dramda izlənən digər bir məqamı mütləq xatırlatmaq lazımdır. Əsərdə Batelman adlı bir yəhudi obrazı var. Bu yəhudi Bakıda döğulmuş, burada boya-başa çataraq ev-eşik sahibi olmuşdur. XX əsrin 80-ci illərində ailəsi ilə İsrailə köç edən bu yaşlı yə-

hudi Azərbaycana – Bakıya qayıtmağı İsraildə ona yaradılan imtiyazlardan üstün tutmuş, "gedib vətənimdə ölmək istəyirəm" fikri ilə Bakıya dönmüşdür. Yəhudinin öz tarixi vətənindən – İsraildən Bakıya qayıdışı, əslində vətəni atıb yad məmləkətlərdə yaşamağa üstünlük verən azərbaycanlılara verilən bir dərsdir.

Bizcə, əsərə verilən "Miras" adı iki mənada düşünülə bilər. Birincisi, həqiqi mənada. Belə ki, atadan qalmış ev qanuni yolla oğula çatmalıdır və hələ ata həyatda ola-ola gəlin onun malına-mülkünə sahib durmağa çalışır. Məqsəd aydındır: qocanı qocalar evinə göndərsələr belə, təki oğul – yəni Azik arzusuna, Nərgiz isə Amerikada yaşamaq istəyinə çatsın.

Miras həm də məcazi mənada düşünülə bilər. Nemətulla və onun ətrafına yığışan köhnə partokratlar özlərini devrilmiş Sovet hökumətinin varisi hesab edir, bu dövlətdən qalan bütün atributları miras kimi qorumağa çalışırlar. Biz bu mənada qocaların istəklərini Nərgizin istəklərindən daha insani hesab edirik.

"Miras" çoxplanlı əsərdir. Burada ailə-məişət məsələlərindən tutmuş bir çox ictimai-iqtisadi və sosial problemlərə toxunulmuş, XX əsr Azərbaycan insanının xaraktercə biri digərindən fərqlənən real obrazları yaradılmışdır.

* * *

Əxlaqi və insani dəyərlərin yerini yavaş-yavaş digər anti-insani və anti-əxlaqi dəyərlərə verməkdə olduğu cəmiyyətlərin əvvəl-axır tənəzzülə uğraması ictimai inkişafın qaçılmaz və dəyişməz əbədi qanunudur. Pulun, var-dövlətin əndazəsiz olaraq artması, külli-miqdarda kapitalın bir nəfərin, yaxud bir qrupun əlində cəmlənməsi və bu kapitala nəzarət mexanizminin yoxluğu bir qrup insan üçün dırnaqarası səadət, kütlə üçün, əgər belə demək mümkünsə, fəlakətdən başqa bir şey deyil. İsbata ehtiyacı olmayan bir həqiqətdir ki, qədərindən artıq sərvət kimsəni ömrünün sonunacan xoşbəxt etməyə yetərli deyil. Artıq, mənbəyi gizli olan sərvət və dövlətin arxasında nə qədər pisliklərin, görünən və görünməyən əzabların olmasını da kimsə dana bilməz. "Axirətdən gələn zəng" tragi-komediyasını oxuyarkən, bizim yadımıza düşən, fikrimizi işğal edən düşüncələr ilk olaraq yuxarıdakılar oldu.

Rəqibi ən iyrənc vasitələrlə aradan götürmək, var-dövlətə əsir olmaq, ərinə xəyanət, vəzifədə olub külli miqdarda sərvət qazanan və bu sərvətdən qohum-əqrəbasına pay ayıranların qarşısında boyun burub hər sözünə ləbbeyk etmək, şöhrət pilləsindən kəlləmayallaq olandan sonra onu saya salmamaq bütün cəmiyyətlərin arzu olunmaz həyat normasi-

dır və bu mövzularda həm dünya, həm də Azərbaycan ədəbiyyatında xeyli əsərlər yazılıb. Xislətində əbədi olaraq xeyirlə şərin mübarizə apardığı insan, görünür, tarixin heç bir dönəmində, heç bir inkişaf mərhələsində fitrətindəki bu ikili xarakterdən qurtula bilməmiş və qurtula bilməyəcəkdir. Ən əsas vəzifələrindən birincisi insanı tərbiyə etmək, ikincisi ona zövq vermək olan ədəbiyyat, təbii ki, yuxarıda haqqında mülahizələrimizi bildirdiyimiz bu əzəli və əbədi mövzuları daim gündəmə gətirməyə məcbur və məhkumdur və bəşəriyyətin labüdlüyü, əbədi yaşayışını təmin edən başlıca şərtlər də, heç şübhəsiz ki, xeyirlə şərin mübarizəsi və bu mübarizədən xeyirin qalib ayrılmasıdır.

Müəllifin dramatik komediya adlandırdığı əsəri biz tərəddüd etmədən, məhz bu ümumbəşəri və əbədi-əzəli problemin işıqlandırılması və həllinə yönəlməsi səbəbindən faciəli komediya – tragi- komediya adlandırırıq. Bu qənaətdəyik ki, əsərdə bədii həllini tapan məsələlər bir qədər gülüş, həm də düşündürücü ironiya doğursa da, əslində faciə, həm də təkcə milli faciə yox, bəşəri faciədir.

Dövran – yeni zamanın bədbəxt milyonçusu sağlığında ətrafındakı bir qrup adam üçün büt, arvadı Röya və əmisi nəvəsi Samir üçün oyuncaq, qazanc mənbəyidir. Əri Fərhadın qəfildən “qeyb” olmasından sonra Dövranla ailə quran Röya H.Cavidin

"Maral" facəsindəki Maralın xələfidir. Turxan bəyin gənc arvadı Maral Turxan bəyin qohumu Arslanla eşqbazlıq edirdisə, Röya – bu maddi cəhətdən hər cür təmin olunmuş orta yaşlı ərli qadın Samirin məşuqəsidir. Samir – bu mənəviyyatsız qohum ona tapşırılmış, etibar edilmiş əmanəti - əmizadəsinin namusunu tapdalamaqdan çəkinmir, qadının altmış yaşlı ərinə olan sayğısızlığından istifadə edərək ondan həm cismani, həm də maddi cəhətdən istifadə edir. Ərini sevmədən onunla bir yastığa baş qoymaq nə bu qadının, nə də qadınlığın faciəsi deyil. Faciə odur ki, ər qadını, həm də sonu-züriyyəti olmayan qadını naz-nemət içində bəsləyə, bütün qohum-əqrabalarını ona hörmət etməyə məcbur edə, o isə ərinin namusunu ayaqlar altına ata, ən dəhşətlisi isə yatağına başqasını yox, ərinin dost-doğma qohumunu soxub murdar nəfsini onunla öldürə. Hələ bu azmış kimi, "ərim olmayandan sonra ərim sən olarsan" deyə onunla əhd-peyman bağlaya. Bu isə, bizcə, uydurma bir süjet deyil, günümüzün reallığıdır və qadınlığa ləkə olan iblis xislətlilərin yaşam tərzi, həyat yoludur. Düşünürsən: bu gün Samiri yatağına soxan ərli qadın, sabah Samir qala-qala maddi imkanlarından istifadə edib başqalarını özünün əyləncəsinə çevirməyəcəkmi?

Kim necə düşünür düşünsün: Ərli qadının başqa kişi ilə əlaqəsi əxlaq normalarına tüpürməkdirsə, ki-

şinin ərli qadınla əlaqəsi, ondan maddi və şəhvani nəfsini öldürmək üçün istifadə etməsi mənəvi şikəstlik və əxlaqi naqislikdir.

Əsərdə Dövranın qohumları və dostları kimi təqdim olunan obrazlardan ikisi – qardaşı Bayramın arvadı Zöhrə və Dövranın yaxın dostu Elman qibtəedilməsi obrazlardır. Zöhrə mümkün qədər iman və inancı, Elman isə dostluğa sədaqəti ilə seçilir.

Müəllif Dövranın yaxın ətrafının daxili aləmini çox böyük məharət və ustalıqla şərti olaraq "Vəsiyyətnamə" adlandırdığımız səhnədə açır. Özünün ad günündə qohumlarına vəsiyyətnamə yazdığını, vəsiyyətnaməsinin bir nüsxəsinin seyfində, digər nüsxəsinin notariusda olduğunu bildirən Dövran onların hər birinə sərvətindən müəyyən pay ayırdığını söyləyir. Qohumları maraq bürüyür, hamısı, xüsusilə bacısı Ceyran ayrılmış məbləğin miqdarını öyrənməyə cəhd edir. Təkcə Zöhrə və Elman, demək olar ki, məbləğlə, bəlkə, vəsiyyətnamə ilə belə maraqlanana oxşamır. Həmin axşam Dövranın təsadüfi elektrik vurmasından dünyasını dəyişməsindən sonra vəsiyyətnamənin oxunuşu ilə məsələyə aydınlıq gəlir. Yüz altmış milyon manatlıq bir sərvətin vəsiyyətnamə əsasında bölgüsü qohumlar arasında böyük mübahisəyə səbəb olur. Qohumlar ölülərinə ağlamaqdansa, mirasın bölünməsi uğrunda didişirlər.

Hər kəs közü öz qabağına çəkməyə çalışır. Təbii ki, hər bir fərd qohumluq əlaqələrini və qazanılmış milyonların iştirakında rolunu nəzərə alaraq iddiasını dilə gətirir və Dövranın bölgüsü bəzilərini çıxmaqla, onların ürəyincə deyil. Ceyran inciyir ki, qardaşı doğma bacısını qoyub gəlinlərinə, qeyri qohum və dostlarına daha çox pay ayırıb. Samir ona ayrılan paydan narazı olsa da, Röyaya ayrılmış 50 milyon manata və mülkə görə özünü sakit aparır. Düşünür ki, Röya ilə evlənəcək və bu qədər varidata, əslində o sahib olacaq. Əsl mərəkə Dövranın qardaşı Bayrama əlavə olaraq ayırdığı və ünvanı ona, Bayrama, bir də evində qulluqçu kimi saxladığı filippinli qadın Delisaya məlum olan beş milyonla əlaqəli olaraq meydana çıxır. Bayram bu məbləğin ona əlavə olaraq nə üçün ayrıldığının səbəbini qətiyyətlə inkar etsə də, bunun qardaşı ilə arasında bir sirr olduğunu bildirsə də, qohumlar ondan əl çəkmir. Nəhayət, Delisay meydana çıxıb bildirir ki, bu pul Bayrama yox, ona, onun Dövrandan olan altı yaşlı oğlu, hazırda Filippində Delisayın anasınının yanında yaşayan oğlu Dodiyə ayrılıb. Bu gözlənilməz və Bayramın da təsdiq etdiyi xəbər qohumlar arasında çaşqınlıq yaratdığı bir məqamda gizli nömrədən edilən telefon zəngi onların əhvalını daha da qarışdırır.

Zəng edən Dövrandır və heç kəs buna inanmaq istəmir. Ölünün dirilib Röyaya, Bayrama, Elmana zəng çalması, Ceyran və Samirlə danışması onlara bir qarabasma, yaxud bir başqasının onlara sataşması kimi görünür. Elman Dövranın qızıl korpuslu telefonunun təsadüfən Dövranın qəbrinə düşüb orada qaldığını bildirəndə vəziyyət bir qədər də mürəkkəbləşir. Elman inanır ki, Dövran elektrik vurmasından ayılıb və torpağın altından – qəbrdən zəng edib onu xilas etmələrini xahiş edir. Elman ona ayrılan on milyon manatdan imtina edib dostunu xilas etməyə tələsir. Qohumlar isə buna imkan vermir. C.Məmmədquluzadənin "Ölülər" əsərindəki Şeyx Nəsurullahın ölüləri diriltmək istəməsi zamanı qəbiristanda yaranan səhnəyə bənzər bir səhnə burada da yaranır. Qohumlar, hər nə qədər "ölü dirilməz, xortlamış ölüyə nə deyərlər?" - deyib Elmanın qəbiristana getməsini əngəlləsələr də, əslində məqsəd Dövranın dirilməsinə mane olmaqdır. Çünki Dövran dirilib gəlsə, onlara vəsiyyət edilmiş milyonlar əllərindən çıxa bilər.

Bu qohumlar üçün sərvətin insandan irəli olduğu qənaətinə gələn müəllif kəfənə bürünmüş halda səhnəyə gətirdiyi Dövranın əli ilə yazdığı vəsiyyətnaməni onun öz əli ilə parça-parça etdirməklə bir daha cəmiyyətə, insanlığa belə bir mesaj göndərmiş olur: Düzlük, həqiqət, əxlaqi dəyər və milli ənənələrə

sadiqlik, insanlıq və humanistlik bəşəriyyəti və cəmiyyəti xilas edəcək ən doğru yoldur. Yalan, tamah, xəyanət, insanlığa yaraşmayan qaydalarla yaşamaq bəşəriyyət üçün dəhşətli müharibələrdən də qorxuludur. Cəmiyyətin mənəvi cəhətdən saflaşması, insanlar arasında normal ünsiyyət maddiyyatla deyil, mədəniyyətlə mümkündür. Ürəyində Allah xofu və insan məhəbbəti olmayan Adəm övladı insan deyil, sadəcə varlıqdır. Elə varlıq ki, o varlığın əməllərindən bəşəriyyət yalnız və yalnız pislik meyvələri dərəcəkdir.

* * *

**Y**azıçı-dramaturq Hüseynbala Mirələmovun dramlarını nəzərdən keçirib sərf-nəzər etdikdən sonra bu qənaətə gəldik ki, o, dramlarında da nəsrində və publisistikasında olduğu kimi "qələmin başlıca vəzifəsi xalqa, millətə və bəşəriyyətə xidmətdir" idealına sadiq qalmış, milli dəyərlərimizin təcəssümü olan ümumbəşəri məsələlərə dramaturgiyasında daha çox yer ayırmaqla, təkcə Azərbaycanın deyil, eyni zamanda dünyanın problemləri ilə yaşayan bir yazıçı olduğunu bir daha sübut etmişdir.

***H.Mirələmovun "Pyeslər" kitabına yazılmış ön söz (Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014, 488), səh. 3-32***

*"...Əziz həmvətənlər, hörmətli Azərbaycan vətəndaşları!*

*Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız Sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.*

*... Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu məhz belə də olacaq".*

***Ümummilli lider Heydər Əliyevin***
***1 oktyabr 2003-cü ildə Azərbaycan***
***xalqına ünvanladığı məktubdan***

## GERÇƏK TARİXİN PUBLİSİSTİK ŞƏRHİ

“Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır... Mədəniyyətin milli sərvətlərinin, demək olar ki, əsas mühafizəçisi olan yazıçının yüksək vətəndaşlıq vəzifəsi xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etməkdir”***(-Heydər Əliyev).*** Yazıçı-dramaturq Hüseynbala Mirələmovun Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim olunmuş “Heydər Əliyev” kitabı haqqındakı yazımıza Azərbaycan xalqının XX əsrdə bəşər siyasəti, dövlətçilik və ictimai fikir tarixinə bəxş etdiyi bənzərsiz şəxsiyyətin – Heydər Əliyevin sözləri ilə başlamağımız təsadüfi deyil. H.Mirələmovun nəsr və dram əsərlərini, xüsusən də bədii-fəlsəfi publisistikasını nəzərdən keçirərkən belə bir qənaətə gəlirik ki, o, bütün yaradıcılığı boyu ulu öndərin yuxarıdakı həmişəyaşar fikrinə sadiq qalmış, həm bir ictimai xadim, həm də yazıçı kimi həmişə xalqın tarixi qarşısında mənəvi məsuliyyət daşımış, milli mədəniyyətin mühafizəçisi olmaq missiyasını şərəflə yerinə yetirmişdir.

Birmənalı şəkildə etiraf olunur ki, bədii əsərlərdən fərqli olaraq, siyasi publisistika nümunələri yaratmaq çox çətindir. Burada xüsusi istedad, sözlə ustalıqla davranmaqla yanaşı, yazıçıdan tarixi faktları yetərincə bilmək, onları sistemləşdirib obyektiv nəticəyə gəlmək, siyasi prosesləri duymaq, onlardan baş çıxarmaq, dünyada və yaşadığı cəmiyyətdəki çeşidli hadisələrə fəal münasibət bəsləmək səriştəsi və bacarığı da tələb olunur. Bütün bunlar əsl ziyalı və vətəndaş mövqeyi ilə seçilən, dünya və ölkə həyatında baş verən hadisələri qiymətləndirməyi bacaran istedadlı və zəhmətkeş qələm sahibi olan H.Mirələmovun şəxsiyyət və yaradıcılğında birləşib harmoniya təşkil etdiyindən, onun siyasi-publisistik əsərləri də bədii nəsri və dramları kimi xalq məhəbbəti qazanır, sevilə-sevilə oxunur.

Hüseynbala Mirələmovun siyasi publistikası problematika və yanr baxımından kifayət qədər çoxşaxəli, zəngindir. Bu siyasi-fəlsəfi publisistikanın əsasını “Amalın işığında” (2002), “Həqiqət” (2003), “Zəfər yolu” (2003), “Bir günəş var” (2004), “Millətin atası” (2004), “Görkəmli adamların həyatı” seriyasından nəşr olunmuş xüsusi əhəmiyyətə və ədəbi-tarixi-siyasi dəyərə malik on üç fəsildən ibarət olan “Heydər Əliyev” (Bakı, 2008), on altı fəsildən ibarət olan “İlham Əliyev”(Bakı, 2007), on dörd fəsildən ibarət olan “Zərifə Əliyeva” (Bakı, 2013) və on üç fəsildən ibarət olan “Missiya” (Bakı, 2014) adlı mötəbər elmi-publisistik və ideoloji mənbə hesab olunan kitablar təşkil edir.

Biz bu yazıda onlardan yalnız biri –“Heydər Əliyev” kitabı haqqında mülahizələrimizi bildirəcəyik. Kitab ilk olaraq Biktor Andriyanovun həmmüəllifliyi ilə məşhur “Görkəmli adamların həyatı” seriyasından Moskvanın “Moladaya qvardiya” nəşriyyatında rus dilində (2005) çap olunmuşdur. Sonralar H.Mirələmov əsər üzərində əsaslı şəkildə işləyərək onu təkmilləşdirmiş və bu tamamilə yeniləşmiş variant dünyanın bir çox aparıcı dillərinə tərcümə olunaraq müəllifinə geniş şöhrət qazandırmışdır.

İrəlicədən qeyd edək ki, həyatın hər üzünü görmüş, çətinliklərə sinə gərə-gərə Allahın ona alın yazısı kimi bəxş etdiyi ümumxalq sevgisini qazanıb milli lider səviyyəsinə yüksələnə qədər əlçatmaz zirvələri fəth edən Heydər Əliyev kimi cəngavər xislətli, ensiklopedik təfəkkürlü bir şəxsiyyət haqqında onun adına və əməllərinə layiq əsər, yaxud kitab yazmaq olduqca çətindir. Onu yetirən ziddiyyətli mühiti və tarixi şəraiti dərk edib qiymətləndirmək, emosiyalara qapılmadan bir təkrarolunmaz şəxsiyyət olaraq onu olduğu kimi görmək və göstərmək müəllifdən yaradıcılıq istedadı ilə yanaşı, böyük elmi-siyasi eredusiya, fəhm və vətəndaşlıq qeyrəti tələb edir.

Ön söz, hər fəsli müstəqil kitab təsiri bağışlayan on üç fəsil, doxsan səkkiz yarımbaşlıq və epiloqdan ibarət monumental bədii-fəlsəfi əsərin baş qayəsini H.Əliyevə, onun bəşəri dəyərlərə, böyük azərbaycan-


HEYDƏR ƏLİYEV
Viktor
Andriyanov
Hüseynbala
Mirələmov
GÖRKƏMLİ ADAMLARIN HƏYATI

çılıq fəlsəfəsinə söykənən siyasətinə inam və sədaqət, bu fenomen yaddaşa, fövqəladə istedad və cəsarətə malik olan böyük insanın tarixi rolunu dərk və əks etdirmək istəyi, həqiqətlə yoğrulmuş vətəndaş və ziyalı sevgisi təşkil edir.

H.Əliyev haqqında çox kitablar yazılıb və şübhə ola bilməz ki, hələ çox kitablar da yazılacaq. Lakin qətiyyət və tam əminliklə bildiririk ki, onun xarakterini və şəxsiyyətini səciyyələndirən ən gözəl əsərlərdən biri, bəlkə də birincisi haqqında bəhs etdiyimiz kitabdır. Kitabın fəsillərini biri digərinin məntiqi davamı olan vahid bir konsepsiya birləşdirir: **Heydər Əliyevin ömür yolu və mübarizə tarixinə faktların dili ilə güzgü tutmaq, onu yeni, müstəqil Azərbaycanın qurucusu kimi dəyərləndirmək!**

Azərbaycan xalqının XX əsrin altmışıncı illərindən başlayaraq XXI əsrin əvvəllərinəqədərki tarixini şəxsiyyətinin ən ali keyfiyyətləri istedad və iradə olan Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil. H. Mirələmovun kitabında məsələyə məhz bu baxımdan yanaşılaraq 1941-ci ildə Naxçıvan MSSR-in Daxili İşlər Xalq Komissarları Sovetində məxfi arxiv şöbəsinin müdiri kimi əmək fəaliyyətinə başlayan, 2003-cü ilin dekabr ayının ortalarına – haqq dünyasına qovuşana qədər Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sədri, Azərbaycan KP MK-nın birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Naxçıvan MSSR

Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədri, Azərbaycan Respublikasının prezidenti kimi ali vəzifələrdə çalışan, Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən ulu öndərin həyat və fəaliyyət yolu faktlar və xatirələr əsasında şərh edilir, 80 illik nəhəng bir ömrün bədii-siyasi salnaməsi yaradılır. Əslində əsər Heydər Əliyevin əməllərinin təşəkkül və təkamül tarixinin təsdiqinə xidmət edir ki, bu cəhəti həm də əsərin tarixi-siyasi-fəlsəfi konsepsiyası kimi də düşünmək olar.

H.Mirələmovun siyasi publisist istedadını aydın şəkildə ortaya qoyan əsərin bədii-publisistik və fəlsəfi dəyərini müəyyən etmək üçün başlıca meyar faktlara sədaqət və tarixilik prinsipidir. Bu zaman faktlar sadəcə sadalanmır. Müəllif faktları mənalandıraraq müqayisələr aparır, gəldiyi nəticələri yüksək ustalıq və peşəkarlıqla bədiiləşdirərək oxucuya təqdim edir. Məhz bu səbəbdən oxucu yazıçının səmimiyyətinə inanır, cəzbedici, şirin təhkiyə onu yormadığı kimi, hadisələrin təqdimatında ziddiyyətli, qaranlıq məqamlar axtarmağa da lüzum qalmır.

Kitabın ön sözündəki bir sıra tarixi olayları xatırladan, xüsusilə Fransanın prezidenti Şarl de Qollun həyatı ilə Heydər Əliyevin həyatı arasındakı oxşarlığı müqayisə edən müəllif irəlicədən məqsədini elan edərək oxucunu bənzərsiz siyasətçi və dövlət xadimi,

milli lider, xalqın öndəri haqqında yazılanları diqqətlə oxuyub nəticə çıxarmağa və milləti necə sevib ona necə xidmət barədə dərindən düşünməyə səfərbər edir.

Bu monumental əsərdəki hadisələr 80 illik zaman kəsiyində - 1923-2003-cü illər arasındakı enişli-yoxuşlu və ziddiyyətli bir tarix hüdudunda cərəyan edir. 1923-cü ilin may ayının 10-da Naxçıvanda doğulub 12 dekabr 2003-cü ildə Amerikanın Klivlend şəhərində əbədiyyətə qovuşan, 15 dekabr 2003-cü ildə canından artıq sevdiyi Azərbaycanda, memarı olduğu müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakıdakı Fəxri Xiyabanda torpağa tapşırılan Heydər Əliyevin olduqca zəngin, kifayət qədər canlı həyat salnaməsini müəllif keçmiş, indiki və gələcək zaman kontekstində nəzərdən keçirir, onu bütün zamanlar üçün canlı, əbədiyaşar bir obraz kimi təqdim edir. Müəllif dönə-dönə iqrar edir ki, H.Əliyevin ömrü, cahanşümul əməlləri, əslində Azərbaycan tarixinin dünənindən bu gününə, bu günündən sabahına salınmış nəhəng bir ünsiyyət körpüsüdür.

Kitabın "Mən Naxçvanda doğulmuşam", "Bura da cəbhədir", "Bu peşəni gəncliyimdən seçmişəm" fəsillərində H.Əliyevin doğulub boya-başa çatdığı mühit, nəsil şəcərəsi, təhsil illəri, həyatda, xidməti vəzifələrində qazandığı nailiyyətlər və ucaldığı məqamlar barədə tutarlı dəlillər və bədii-publisist dillə məlumat verən müəllif "Heydər və Zərifə" fəslində bir məhəb-

bət, gələcək nəsillərə görk olası ədəb-ərkan dastanı yaradır. Bu fəsli oxuyan hər bir huşyar oxucu iti və dərin zəkası, zəhmi, baxışları, danışıq tərzi, polad məntiqi ilə opponentlərini asanlıqla ram etməyi bacaran Heydər Əliyevin nə qədər incə hisslərə, mərhəmətli ürəyə, saf, sadiq, ülvi duyğulara malik olan insan olduğunu görməklə yanaşı, "əsl məhəbbət necə olur?" sualına cavab da tapmış olur.

Kitabın "Respublika rəhbərliyində", "Sən bütün İttifaqa lazımsan, Heydər!", "Mən daş, dəmir deyiləm, insanam" fəsilləri Heydər Əliyevin həyat və fəaliyyətinin 14 iyul 1969-cu ildən – Azərbaycana rəhbərlik etdiyi zamandan başlayaraq Moskvada yaşadığı 1990-cı ilin baharınaqədərki dövrü əhatə edir. Məlumdur ki, H.Əliyev 14 il Azərbaycan KP MK-nın birinci katibi, 5 il SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olmuşdur. O, Nəriman Nərimanovdan sonra yeganə azərbaycanlıdır ki, SSRİ kimi nəhəng bir dövlətdə ən ali, yüksək vəzifələrdən birini tutmuş, bütün dünya liderləri və Sovet xalqı tərəfindən qəbul edilərək, SSRİ-nin birinci şəxsi vəzifəsini tutacağı gündəmə gətirilmişdir. Məhz bundan sonra SSRİ-nin o vaxtkı rəhbəri M.S.Qorbaçov və onun kimi nadürüstlərin gözü onu götürməmiş, haqqında ən alçaq, qeyri-insani üsullara əl atılmışdır. Bütün bu məsələlər kitabda yerli-yartaqlı, dəlillərlə əksini tapmış, "dostlar"ın "düşmən" olduğu zamanlarda da Heydər Əliyevin sınmadığı, gözlənilən

və gözlənilməyən hücumlara mətanətlə sinə gərdiyi, əzmi, iradəsi və böyük Tanrının lütfü ilə qalib gəldiyi bəzən sərt siyasi tonda, bəzən də incə lirizmlə oxucunun gözləri qarşısında canlandırılmışdır.

Kitabda dönə-dönə vurğulanmışdır ki, Heydər Əliyevin ən böyük qazancı ümumxalaq sevgisi, ən böyük arxası isə Azərbaycan xalqıdır. Məhz bu sevgi və arxa sayəsində o, təkcə öz millətinin deyil, bütün türk və müsəlman dünyasının sevimlisinə, şəksiz lideri səviyyəsinə yüksələ bilmişdir. Harada olması, hansı vəzifədə işləməsindən asılı olmayaraq həmişə ürəyi Azərbaycan xalqının yanında olan, onun uğurları üçün heç nəyini əsirgəmədiyi kimi, ona yönəlmiş mənfur siyasətin qarşısını almaq üçün canını belə fəda etməyi Allah tərəfindən boynuna qoyulmuş haqq hesab edən Heydər Əliyevin 1990-cı ilin 20 iyulunda Bakıya, iki gün sonra Naxşıvana qayıdışı, bundan sonra ölkənin ictimai-siyasi həyatındakı rolu, ona olan qısqanclıq və bu qısqanclığın ayaq tutub yeriməsinə mane olan ümumxalaq məhəbbəti kitabın "Öz xalqınla birlikdə olmaq haqqı", "Qayıdış" fəsillərində yerli-yataqlı göstərilmiş, əsərdə xalq və şəxsiyyət – rəhbər birliyinin parlaq ədəbi-bədii səhnələri yaradılmışdır.

Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişi gözümüzün qabağında, çox ağır bir dövrdə baş verdi. Bu elə bir zaman idi ki, Respublika faktik olaraq parçalanmaq və dövlət müstəqilliyini

itirmək təhlükəsi qarşısında idi. Xalqın ağır günündə onunla birlikdə olmağı özünün ən böyük görəvi hesab edən H.Əliyev həyatı üçün ola biləcək heç bir təhlükədən çəkinməyərək millətin səsinə səs verdi, tufanlardan qorxmayan kapitan kimi dağılmaqda olan gəminin – Azərbayacan siyasi hakimiyyətinin sükanı arxasına keçdi, məmləkəti daxili fəlakət və xarici təhdidlərdən qorumağı məharətlə bacardı. Beləliklə, "dövləti necə qurmaq və necə qorumaq olar" teoremini dahiyanə şəkildə həll etdi ki, bütün bunlar kitabın sonrakı fəsillərinin əsas predmetinə çevrilir.

Kitabı oxuyarkən gəldiyimiz daha bir neçə nəticəni də xatırlamağı lazım bilirik. Bunlardan birincisi H.Əliyevin Azərbaycan Demokratik Cümhuriyyətinin ənənələrinə olan ehtiramının ön plana çəkilməsidir. Müəllifin çox doğru olaraq qeyd etdiyi kimi, Ə.Topçubaşov əsl dövlətin yaradılmasında, ilk növbədə daxili sabitliyin olmasını vacib hesab edirdisə, Heydər Əliyev fəaliyyəti zamanı məhz bu ideyanın reallaşmasına can atdı. "Azərbaycançılıq" ideya və nəzəriyyəsini ortaya qoyaraq bütün xalqı, cəmiyyəti bir yerə toplaya bildi.

Həqiqətən, XX əsrin 90-cı illərinin əvvəllərində vətəndaş müharibəsi təhlükəsi qarşısında, parçalanmaqda olan xalqı ortaq məxrəcə gətirən vahid bir ideya lazım idi və Heydər Əliyev müstəqillik dövrünün dövlət ideologiyasını formalaşdırarkən XX əsr

ziyalılarının əsərlərində milli ideya kimi türkçülüklə paralel olan azərbaycançılığı yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyası, milli birlik təlimi kimi sistemə saldı, dünya azərbaycanlılarının ümummilli ideya və ideologiyası şəklində əsaslandırdı.

H.Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycanı dünyaya tanıtması idi. Kitabın "Azərbaycan nefti dünya siyasətində" fəsli, demək olar ki, bu məsələnin şərhinə həsr olunmuşdur. Müəllif doğru olaraq belə bir qənaətə gəlir ki, H.Əliyev Azərbaycanı qloballaşan dünyanın yeni tarixi sahmanına daxil etməyi bacardı. Şübhəsiz ki, burada əsas yeri ümummilli liderin dünya siyasətindəki nüfuzu və bu nüfuza arxalanaraq apardığı fəal, düşünülmüş xarici siyasət təşkil edirdi. Uzaqgörən strateq olan ulu öndər siyasətini elə qurdu ki, dünya ölkələrinin, onların rəhbərlərinin ayağına getmədi, Azərbaycanın maraqlarına xidmət edərək dünya ölkələri liderlərini öz ayağna gətirməyi bacardı. Məhz belə bir ağıllı, davamlı və düşünülmüş siyasət nəticəsində o, dünyanın ən qüdrətli dövlətlərini Bakıda bir araya gətirdi. 1994-cü il sentyabrın 20-də Bakıda, "Gülüstan" sarayında sonralar tarixə "Əsrin müqaviləsi" adı ilə daxil olmuş məşhur neft müqaviləsini imzalatdı. Beləliklə, Bakı nefti H.Əliyevin əlində dünya siyasəti səhnəsində Azərbaycanın xarici siyasətini uğurla həyata keçirmək üçün qüdrətli vasitəyə çevrildi

10 may 1923-cü il! Kitabda bu tarix bir neçə dəfə təkrarlanır və bu tarixə, adətən H.Əliyevin müxtəlif münasibətlərlə yazdığı tərcümeyi-hallardan ilk: "Mən Naxçıvanda doğulmuşam" cümləsi də əlavə olunur. Bu tarix və cümlə kitabın ümumi məzmun və ideyasını şərtləndirən əsas elementlərdən biridir. Bizcə, bu detallarla müəllif irəlicədən aşağıdakılara işarə edir: İllər keçəcək və qədim Azərbaycan yurdu Naxçıvan Heydər Əliyevin taleyində mühüm rol oynayacaq. Nüfuzunun ən uca, dünya şöhrətli çağında, rəhbərlərindən biri olduğu keçmiş SSRİ-də, uzun illər rəhbərlik etdiyi doğma Azərbaycanda, Bakıda vəzifə və çörək verdiyi nankorlar ondan üz döndərəndə H.Əliyev ata ocağına – Naxçıvana pənah aparacaq. Naxçıvan ona qarşı olan bütün həmlələrə sinə gərəcək, onu qorumaqla Azərbaycanın müstəqilliyinin qorunmasına ən böyük töhfəsini verəcək.

Kitabda H.Əliyevin Naxçıvanda 24 okyabr 1992-ci ildə müstəqil Azrbaycan dövlətinin formalaşdırılması üçün verdiyi təkliflər bir proqram sənədi olaraq ön plana çəkilmişdir. H.Əliyev o zaman aşağıdakı məsələlərin həllini vacib hesab edirdi: 1.Qarabağ məsələsinin həlli yollarını tapmaq və Azərbaycanı müharibə vəziyyətindən çıxarmaq; 2. Tükənməz təbii sərvətlərə, böyük iqtisadiyyata, kənd təsərrüfatı və intellektual potensiala malik

Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsinin qarşısını almaq; 3. Hökumətin həm ziyalıların, həm də geniş xalq kütlələrinin haqlı narazılığına səbəb olan kadr siyasətini tənzimləmək; 4. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi ilk növbədə qanunlardan asılı olduğundan, qanunların aliliyini təmin etmək; 5. Azərbaycanı parçalamaq kimi müşahidə olunan təhlükəli tendensiyaların qarşısını qətiyyətlə almaq.

H.Əliyevin bu təklif və mülahizələri Azərbaycanın siyasi hyatında böyük rol oynamış Yeni Azərbaycan Partiyasının proqramının, siyasi platformasının əsasında dayandı və bu məsələləri həll etmək şərəfi də H.Əliyevə nəsib oldu.

"Heydər Əliyev" kitabında elə fərqləndirici məqamlar var ki, deyim, təqdimat tərzi və səmimiyyəti ilə insanı valeh edir. Bəzən H.Mirələmov sözün yaxşı mənasında sanki dahi bir insandan bəhs etdiyini unudaraq faktların dili ilə danışmır, ciddi-cəhd və vurğunluqla ümummilli liderin mənəvi aləmini, iç dünyasını açmağa səy edir və biz bu cəhəti əsərin uğurlarından hesab edirik.

H.Əliyev polad iradəyə malik, lakin milli, bəşəri və insani keyfiyyətləri əzmlə qoruyan kamil bir insan idi. "Mən daş, dəmir deyiləm, insanam" fəslində deyildiyi kimi: böyük hərflərlə yazılan **İNSAN.**

Kitabın "Günəş dənizdən doğur", "Prezident

ili", "Dünyanın gözündə" fəsillərini H.Əliyevin həyat və fəaliyyətinin geniş miqyaslı təsviri olmaqla yanaşı, həm də müstəqil Azərbaycanın 1993-2003-cü illər tarixinin ədəbi-bədii salnaməsi də hesab etmək olar. Çünki bu illərdə Azərbaycan xalqının həyatında elə bir mühüm hadisə olmamışdır ki, H.Əliyevin orada ya birbaşa, ya da dolayısı ilə iştirakı olmasın.

Təbii ki, dahi şəxsiyyət haqqında yazılmış monumental kitab barədə bir yazı – məqalə çərçivəsində yetərincə danışmaq mümkünsüzdür. Kitabın hər fəsli ayrıca tədqiqat mövzusu kimi işlənməyə tamailə layiqdir və şübhə etmirik ki, gələcək tədqiqatçılar bu əsərə dönə-dönə müraciət edəcəklər.

Bir məsələni də qeyd etməyi lazım bilirik ki, siyasi xronikalardan fərqli olaraq bu əsərin yazılışında H.Əliyevin öz söhbətlərindən, müasiri olduğu, görüşdüyü siyasi xadimlərin, dünya siyasətçilərinin xatirələrindən bacarıqla istifadə olunmuş, bunlar da əsərə xüsusi gözəllik və təravət gətirmişdir.

Hüseynbala Mirələmovun "Heydər Əliyev" kitabını təkcə müəllifin yox, ümumən çağdaş Azərbaycan siyasi publisistikasının uğuru kimi qiymətləndiririk. Hesab edirik ki, faktların dəqiqliyi, fikirlərin aydınlığı və səlis ifadəsi, faktın təkcə özünü yox, tarixi mahiyyətini üzə çıxarıb mənalandırmaq, şəxsiyyətin, liderin xarakterini açmaq üçün vasitəyə çevirmək imkanı bu əsərin əsas üslubi xüsusiyyətlərini

müəyyən edir. Belə bir əsərin Dövlət Mükafatına təqdim olunmasını ulu öndərin ruhuna hörmətin ifadəsi saymaqla yanaşı, həm də yazıçı Hüseynbala Mirələmovun gərgin, məqsədyönlü və səmərəli əməyinə verilən qiymət kimi də dəyərləndiririk.

***10 may 2016-cı il***
***"Ədəbiyyat qəzeti", 21 may 2016-cı il***

## SUMMARY

**Islam Garibli**

**Huseynbala Miralamov: History and Modernity**

The book includes works by Islam Garibli, Doctor of Philosophy in philology, writer, famous literature scholar, about drama writer Huseynbala Miralamov.

The essay entitled "Huseynbala Miralamov" provides information about life path and public-political activity of the writer and later phases of his formation as a writer. The author, examining the stories, narratives, novels, dramas and journalistic works by Miralamov, analyzes them in terms of content, form, ideas and craftsmanship, commentes on his pecularities as a writer.

In the article named "Writer-Engineer" Islam Garibli shares his thought about scientific activity and first stories by Husenbala Miralamov. In the piece dedicated "Shame" narrative, the author calls it the one of the best workes on Karabakh theme.

"The Last Conqueror" which describes the tough life and struggle path of Nadir Shah Afshar is evaluated

as historical novel, interesting scholarly ideas are put forward on literary characteristics and historical and political importance of the novel.

In the essay called “Dramas of Characters” Miralamov’s dramas on hictorical and contemporary topics are examined in terms of genre and style. The author highly appreciates the role of this work in development of modern Azerbaijani theatre.

The piece entitled “Publicistic Commentary on Real History” is about Miralamov’s book dedicated to National Leader of Azerbaijanis Heydar Aliyev. Thoroughly analyzing the book, the author comes to conclusion that the book named “Heydar Aliyev” by Miralamov is not only just a precious example of his works but also whole modern Azerbaijani publicity.

# MÜNDƏRİCAT

*HüseynbalaMirələmov*........................................4
*Yazıçı- mühəndis* ..............................................90
*"Xəcalət" povesti haqqında bəzi mülahizələrim*...................................................98
*"Sonuncu fateh" – tarixi gerçəklik və bədii həqiqət* ......................................................... 111
*Xarakterlər dramaturgiyası* .............................. 131
*Gerçək tarixin publisistik şərhi*........................... 172
*Summary (xülasə)*................................................ 187

# QEYDLƏR:

**QƏRİBLİ İSLAM EYNƏLİ OĞLU**

**Hüseynbala Mirələmov: Tarix Və Müasirlik**

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Çapa imzalanmış 14.08.2016.
Şərti çap vərəqi 12. Sifariş № 276.
Kağız formatı 84x108 1/8. Tiraj 500.

Kitab «Elm və Təhsil» nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gamil.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.